Xalqın qəzeti!

# Xalq qəzeti

№ 27 (30431) 8 fevral 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Mərkəzi Seçki Komissiyasının məlumatına görə, prezidentliyə namizəd İlham Heydər oğlu Əliyev 4 milyon 281 min 625 seçicinin səsini (etibarlı səslərin 92,05 faizi) toplayaraq böyük fərqlə liderlik edir.**

# Azərbaycanda prezident seçkiləri demokratiyanın təntənəsinə çevrildi

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər







**Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.**

*AZƏRTAC*

## İlham Əliyev növbədənkənar seçkinin qalibi olub

### Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov seçkilərin ilkin yekunlarını açıqlayıb




**Fevralın 8-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov növbədənkənar prezident seçkilərinin ilkin yekun nəticələri ilə bağlı mətbuat konfransı keçirib.**

M.Pənahov 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsinin 6102-dən (93,35 faiz) nəticələrin MSK-ya daxil olduğunu bildirib. Qeyd edib ki, həmin protokollar üzrə etibarlı hesab edilmiş səslərin sayı 4 milyon 651 min 473-ə bərabərdir. Bu etibarlı səslər namizədlər arasında aşağıdakı kimi bölünüb:

Lider namizəd Əliyev İlham Heydər oğlu – 4 milyon 281 min 625 səs (92,05 faiz);

Əliyev Fuad Ağası oğlu – 24 min 799 səs (0,53 faiz);

Həsənquliyev Qüdrət Müzəffər oğlu – 81 min 799 səs (1,76 faiz);

Musayev Elşad Nəbi oğlu – 31 min 33 səs (0,67 faiz);

Mustafa Fazil Qəzənfər oğlu – 92 min 980 səs (2 faiz);

Nurullayev Razi Qulaməli oğlu – 37 min 386 səs (0,80 faiz);

Oruc Zahid Məhərrəm oğlu – 101 min 851 səs (2,19 faiz).

Məzahir Pənahov bildirib ki, beləliklə, çox az sayda məntəqə üzrə məlumatlar MSK-ya daxil olmayıb. Hesab edirəm ki, artıq səhərdən biz bu dairə seçki komissiyalarının protokollarını qəbul edəcək və həmin protokollar üzrə lider namizədin səslərini müəyyənləşdirəcəyik. Ayın 9-da dairə seçki komissiyalarının protokolları əsasında seçkinin nəticələrini ictimaiyyətə təqdim edəcəyik. Bundan sonra daxil olan sənədləri araşdırıb MSK-nın iclasına çıxaracaq və səsvermənin nəticələri ilə bağlı yekun protokolu təsdiqləyib qəbul edəcəyik. Beləliklə, MSK səviyyəsində seçkilərə yekun vurub protokolu təsdiq üçün Konstitusiya Məhkəməsinə göndərəcəyik.

Konstitusiya Məhkəməsi MSK-nın təqdim etdiyi sənədləri araşdırıb qərar qəbul edəcək. Konstitusiya Məhkəməsinin qərarı qətidir və bu qərardan sonra lider namizəd seçilmiş hesab olunur. O, andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayacaq.

MSK-nın sədri qeyd edib ki, seçkilər çox yüksək səviyyədə hazırlanaraq keçirilib. Bu seçkilərdə Azərbaycan seçiciləri konstitusion hüquqlarını həyata keçirərək səs veriblər.

*XQ*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Fevralın 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edib, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənəcəyinə, "Bir millət, iki dövlət" prinsipi əsasında ölkələrimizin və xalqlarımızın bundan sonra da çiyin-çiyinə irəli gedəcəklərinə əminliklərini ifadə ediblər.

Telefon söhbəti zamanı əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Fevralın 7-də Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Viktor Orban İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Viktor Orbana minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunub.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Çin hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Əminəm ki, Azərbaycan Sizin rəhbərliyinizlə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcək.

Son illər Çin–Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksək səviyyəli siyasi etimad mühiti yaranır, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur.

Mən Çin–Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirəm, bizim işgüzar münasibətlərimizi və şəxsi dostluğumuzu yüksək qiymətləndirirəm. Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafı və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzu edirəm.

Dost Azərbaycana tərəqqi, xalqınıza isə xoşbəxtlik və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasında prezident seçkilərinin uğurla keçirilməsi və Zati-alinizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Respublikasının suverenliyinin bərpasından sonra ölkənizin bütün ərazilərində ilk dəfə bu seçkilərin keçirilməsi daha böyük əhəmiyyət kəsb edir.

İki qonşu və müsəlman ölkəsi olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası xalqları arasındakı qədim tarixi, dini və ortaq mədəni cəhətlər, dərin mənəvi bağlar, iki ölkənin müxtəlif sahələr üzrə birgə maraqları ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi üçün möhkəm dayaqlar yaratmışdır. Əmin olduğumu bildirirəm ki, Zati-alinizin yenidən prezidentliyi dövründə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq, qardaşlıq münasibətlərinin və əlaqələrin yüksələn xətlə inkişaf etməsinə şahid olacağıq.

Allah-taaladan Sizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, qardaş Azərbaycan Respublikasının xalqına isə səadət və xoş günlər arzulayıram.

**Hörmətlə,**

***Seyid İbrahim RƏİSİ,***
***İran İslam Respublikasının Prezidenti***

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Fevralın 7-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Özbəkistan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib, ölkəmizin daha da inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb. Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanmasının və Azərbaycan torpaqlarının geri qaytarılmasının önəmini bir daha vurğulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Şavkat Mirziyoyevə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər, ikitərəfli münasibətlərin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

# Şimali Kiprin Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Prezident İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik edib.**

Şimali Kipr Prezidenti bu barədə "X" sosial şəbəkəsindəki səhifəsində paylaşım edib.

Paylaşımda bildirilib: "Azərbaycan Prezidenti vəzifəsinə seçkilərdə ilkin nəticələrə görə tarixi zəfərlə yenidən prezident seçilən cənab İlham Əliyevi ürəkdən təbrik edir, seçkilərin nəticələrinin bütün qardaş Azərbaycana xeyirli olmasını diləyirəm".

***AZƏRTAC***

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

Fevralın 7-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İraq Prezidenti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan ilə İraq arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq əməkdaşlığın genişlənəcəyinə əminlik bildirilib.

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Fevralın 7-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Aleksandr Lukaşenko İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və firavanlığı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Belarus Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Belarus dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi apardılar.

# Baş nazir Əli Əsədov səs verib

**Fevralın 7-də prezident seçkilərinin başlandığı səhər saatlarından 7 saylı Səbail rayon seçki dairəsinin 2 saylı seçki məntəqəsində canlanma hiss olunurdu.**

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu seçki məntəqəsinə gələrək səs verib.

Məntəqədə 1376 seçici qeydiyyata alınıb.

Qeyd edək ki, bu seçkilər ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində keçirilib. Seçkilərdə 7 namizəd mübarizə aparıb. Seçki prosesini 790 beynəlxalq müşahidəçi izləyib. Onlar 72 beynəlxalq təşkilatı və 89 ölkəni təmsil ediblər. Yerli müşahidəçilərin ümumi sayı isə 90 minə yaxın olub. Seçkiləri 109 beynəlxalq media qurumunun 200-dən çox təmsilçisi işıqlandırıb. Səsvermə saat 19:00-da başa çatıb.

***XQ***




# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident, Əziz Qardaşım!**

Bu gün keçirilən seçkilərdə uğur qazanaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə millətim adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub.

Türkiyə ilə Azərbaycan arasında "Sevincdə və kədərdə birlik" ilə "Bir millət, iki dövlət" şüarları zəminində formalaşan qardaşlıq və həmrəylik əlaqələri Şuşa Bəyannaməsi ilə münasibətlərimizin güclü əsasını təşkil etməyə davam edəcəkdir.

Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm. Bu baxımdan müzəffər lider kimi seçkiləri uğurla başa vurmağınızdan sonra böyük əmək sərf etdiyiniz Ermənistanla müzakirələrin də sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə ümid edirəm.

Bu düşüncələrlə seçkilərdə zəfərinizin həm qardaş Azərbaycan xalqı, həm də bölgəmiz üçün xeyirli olmasını diləyir, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər arzu edirəm.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

# Milli Məclis Sədri Sahibə Qafarova səs verib



**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova fevralın 7-də 19 saylı Nərimanov birinci seçki dairəsinin 11 saylı seçki məntəqəsində səs verib.**

Məntəqədə səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyiblər.

Səhər saatlarından etibarən 11 saylı seçki məntəqəsində də seçicilərin yüksək fəallığı müşahidə olunur. Məntəqədə 1493 seçici qeydiyyatdadır, onlardan 26 nəfəri qeydiyyatdan çıxma vərəqəsi alıb.

Qeyd edək ki, bu seçkilər ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində keçirilib. Seçkilərdə 7 namizəd mübarizə aparıb. Seçki prosesini 790 beynəlxalq müşahidəçi izləyib. Onlar 72 beynəlxalq təşkilatı və 89 ölkəni təmsil ediblər. Yerli müşahidəçilərin ümumi sayı isə 90 minə yaxın olub. Seçkiləri 109 beynəlxalq media qurumunun 200-dən çox təmsilçisi işıqlandırıb. Səsvermə saat 19:00-da başa çatıb.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, möhtərəm cənab Prezident!**

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunam. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür. Bununla yanaşı, bu nəticə dahi Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində son 20 ildə Sizin daxili, regional və beynəlxalq müstəvidə əldə etdiyiniz misilsiz nailiyyətlərə verilmiş qiymətdir.

Sizin strateji siyasətiniz və sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional lidere çevrilərək beynəlxalq arenada həsədaparılası nüfuza sahib olmuşdur.

Serbiya Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir və heç vaxt unutmur ki, ölkəniz həqiqi dost və həyati əhəmiyyətli maraqlarımızın müdafiəçisi olduğunu dəfələrlə sübut edib. Fürsətdən istifadə edərək beynəlxalq hüququn prinsipləri və BMT Nizamnaməsinə sadiqliyinə, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dəstəklə bağlı Azərbaycanın dəyişməz mövqeyinə görə səmimi minnətdarlığımı bildirirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, bizim siyasi, iqtisadi və humanitar sahələrdə strateji əməkdaşlığımız və əlaqələrimiz bir çox aspektlər üzrə genişlənmişdir. Mən tam əminəm ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Serbiya və Azərbaycan arasında uzunmüddətli və sıx tərəfdaşlıq qarşılıqlı maraqlar naminə güclənəcək və inkişaf edəcəkdir. Öz növbəmizdə Sizi əmin etmək istəyirəm ki, biz bütün sahələrdə dostluq, qarşılıqlı hörmət, etimad və dəstək prinsiplərindən çıxış edərək daha da səmərəli və inkişaf edən əməkdaşlığın təmin olunmasına, birgə layihə və ideyaların həyata keçirilməsinə güclü şəkildə sadiqik.

Zati-aliləri, əziz dostum, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirəm.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev səs verib

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev fevralın 7-də 16 saylı Yasamal ikinci seçki dairəsinin 34 saylı seçki məntəqəsində səs verib.**

Bu seçki məntəqəsində də yüksək seçici fəallığı müşahidə olunurdu.

Qeyd edək ki, bu seçkilər ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində keçirilib. Seçkilərdə 7 namizəd mübarizə aparıb. Seçki prosesini 790 beynəlxalq müşahidəçi izləyib. Onlar 72 beynəlxalq təşkilatı və 89 ölkəni təmsil ediblər. Yerli müşahidəçilərin ümumi sayı isə 90 minə yaxın olub. Seçkiləri 109 beynəlxalq media qurumunun 200-dən çox təmsilçisi işıqlandırıb. Səsvermə saat 19:00-da başa çatıb.

***XQ***



# Çeçenistanın başçısı Ramzan Kadırov Prezident İlham Əliyevi seçkilərdə qələbəsi münasibətilə təbrik edib

**Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**



Ramzan Kadırov bununla bağlı sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Hörmətli İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Hazırda seçkilərin ilkin nəticələri məlumdur, İlham Heydər oğlu inamla lider mövqeyini tutur. Azərbaycan vətəndaşlarının bu dəstəyi onu göstərir ki, İlham Heydər oğlu öz xalqının həqiqi lideridir. Yüksək peşəkarlığı və mənəvi keyfiyyətləri, təcrübəsi və mürəkkəb qərarları qəbul etmək bacarığı onu ölkənin siyasi və sosial həyatında əvəzolunmaz lidere çevirib".

Ramzan Kadırov İlham Əliyevin "mühüm sosial-iqtisadi istiqamətlərin inkişafını ehtiva edən" səmərəli daxili siyasətini vurğulayaraq yazıb: "İlham Əliyev tərəfdaş ölkələr, xüsusən Rusiya ilə diplomatik əlaqələrin möhkəmləndirilməsi üzərində yorulmadan çalışır. Bu, qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsinə kömək edir. Əminəm ki, İlham Heydər oğlunun rəhbərliyi ilə ölkə dinamik inkişafını davam etdirəcək, sürətlə tərəqqi edərək nüfuzunu daha da artıracaq".



# Mərkəzi Seçki Komissiyasının sədri səs verib

**Fevralın 7-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 21 saylı Nəsimi-Binəqədi seçki dairəsinin 31 saylı seçki məntəqəsində səs verib.**

***XQ***

# Ceyhun Bayramov qazaxıstanlı həmkarını təbrik etdi

**Fevralın 7-də xarici işlər naziri ilə Qazaxıstan Respublikasının formalaşmış hökumətində yenidən təyin olunmuş Baş nazirin müavini, xarici işlər naziri Murat Nurtleu arasında telefon danışığı olub.**

Həmkarını Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri vəzifəsinə yenidən təyin olunması münasibətilə təbrik edən Ceyhun Bayramov ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan ilə Qazaxıstan arasında mövcud ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyindən məmnunluqla danışan nazir iki ölkə arasında dostluq, qardaşlıq, həmrəyliyə əsaslanan münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə dair əminliyini diqqətə çatdırıb.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri, o cümlədən, regionda cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Prezidentliyə namizəd Qüdrət Həsənquliyev səs verib



**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev növbədənkənar prezident seçkilərində səs verib.**

O, 7 saylı Səbail Seçki Dairəsinin 38 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.

# Prezidentliyə namizəd Fuad Əliyev səs verib

**Prezidentliyə namizəd Fuad Əliyev növbədənkənar prezident seçkilərində səs verib.**

O, 34 saylı Xətai II Seçki Dairəsinin 19 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.



# Prezidentliyə namizəd Fazil Mustafa səs verib



**Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa növbədənkənar prezident seçkilərində səs verib.**

F.Mustafa 26 saylı Sabunçu birinci seçki dairəsinin 13 saylı məntəqəsində səsvermə hüququndan istifadə edib.

# Prezidentliyə namizəd Razi Nurullayev səs verib

**Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev növbədənkənar prezident seçkilərində səsvermədə iştirak edib.**

O, 8 saylı Binəqədi Birinci Seçki Dairəsinin 12 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.



# Prezidentliyə namizəd Elşad Musayev səs verib



**Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev növbədənkənar prezident seçkilərində səs verib.**

O, 19 saylı Nərimanov birinci seçki dairəsinin 3 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.

# Prezidentliyə namizəd Zahid Oruc səs verib

**Prezidentliyə namizəd Zahid Oruc Prezident seçkilərində səs verib.**

O, 23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 18 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.



XQ

# QHT-lər seçkilərdə yüksək fəallıq müşahidə edib

**Seçkilərdə vətəndaş cəmiyyətini təmsil edən "Sosial-İqtisadi və Kənd Təsərrüfatının İnkişafına Dəstək" İctimai Birliyinin sədri Zülfiyyə Nuriyeva XQ-yə açıqlamasında bildirdi:**



– Mən də vətəndaş olaraq hüququmdan istifadə edərək səsvermədə iştirak etdim. Eyni zamanda, QHT nümayəndəsi olaraq müşahidə aparıram. Abşeron rayonu və Bakı şəhərində 10-dan artıq məntəqədə olmuşam.

Seçkilərdə fəallıq müşahidə edilir. Eyni zamanda, seçkilər yüksək səviyyədə təşkil edilib. Hər bir vətəndaş məntəqəyə yaxınlaşaraq seçki prosedurlarını maneəsiz keçərək, öz səsini istədiyi namizədə verir. Müşahidələrimiz bir daha göstərir ki, ölkəmizdə demokratik və şəffaf seçki mühiti hökm sürür. QHT sektorunun müşahidəçiliyi də yüksək səviyyədədir. Bu gün, təqribən, 6 mindən çox vətəndaş cəmiyyəti təşkilatı nümayəndəsinin müşahidəçi kimi iştirakı bizi sevindirir.

Xalqımız üçün əhəmiyyət daşıyan məqamlardan biri də işğaldan azad edilmiş ərazilərdə 26 məntəqənin yaradılması və orada seçicilərin səs verməsidir. İllərdir ki, bu arzu ilə yaşamışıq. Bu gün Şuşada, Xankəndidə və digər işğaldan azad olunmuş ərazilərimizdə müstəqil Azərbaycan dövləti prezidenti seçkisi keçirilməsi böyük qürur doğurur.

XQ

# "Azərbaycanda prezident seçkiləri demokratik keçirilir"

**Səsvermə prosesinin müşahidəsi göstərdi ki, Azərbaycanda prezident seçkiləri demokratik, beynəlxalq standartlar çərçivəsində keçirilir.**

Bunu beynəlxalq müşahidəçi, Moldova parlamentinin üzvü, Moldova–Azərbaycan parlament dostluq qrupunun sədri Vitali Jakut deyib.

Onun sözlərinə görə, Azərbaycan ilə Moldova arasında inkişaf edən münasibətləri nəzərə alaraq, Azərbaycanda prezident seçkilərinin Moldova parlamentariləri tərəfindən monitorinqi böyük əhəmiyyət kəsb edir.

Müşahidəçi sonda bildirib: "Bizim üçün burada olmaq çox vacib idi ki, Azərbaycana müəyyən qədər dəstək göstərək, eyni zamanda, proseslərin demokratik, beynəlxalq standartlar çərçivəsində aparıldığına və respublikanın demokratik inkişaf yolu ilə getdiyinə əmin olaq. İndi isə buna əmin oluruq".

XQ



# "İnsanlarda bayram əhval-ruhiyyəsi var"

**Mən MDB-nin müşahidəçilər missiyasının üzvüyəm. 58 saylı seçki dairəsində (Xaçmaz kənd – red.) müşahidə aparmaq üçün akkreditə olunmuşam. Səhərdən indiyədək 10 seçki məntəqəsində olmuşuq. Bütün məntəqələrdə seçici fəallığı müşahidə edilib. İnsanlarda bayram əhval-ruhiyyəsi var. Bu cür fəallıq məni çox təəccübləndirdi.**



Bunu jurnalistlərə açıqlamasında MDB-nin müşahidəçilər missiyasının üzvü Marat Krımov söyləyib.

O deyib: "Heç bir pozuntu müşahidə etməmişik. Səsvermə fəal şəkildə keçir, bayram əhval-ruhiyyəsi var. Biz bu seçki məntəqələrində səslərin hesablanması başa çatanadək və protokollar tərtib edilənədək müşahidə aparacağıq", – deyə o əlavə edib.

XQ

# "Qarabağda səsvermə keçirilməsi tarixi hadisədir"

**Uzun illərdən sonra Qarabağda soydaşlarınızın seçki hüquqlarından demokratik şəkildə istifadə etməsi tarixi hadisədir.**

Bunu jurnalistlərə Şuşa şəhərində prezident seçkilərini izləyən Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) nümayəndəsi Kadim Durmaz söyləyib.

O deyib: "Səhər saatlarından insanların prezident seçkilərində səsvermə prosesində belə fəal iştirak etmələrindən son dərəcə şadıq. Seçki məntəqəsində səsvermənin gedişini izlədikcə bütün həzırlıqların demokratik şəkildə həyata keçirildiyini gördük. Seçkilərin Azərbaycan xalqına və ölkənizə xeyirli-uğurlu olmasını diləyirik".



XQ

# "Seçki prosesində böyük coşqu yaşanır"

**Şuşada olmaqdan çox məmnunuq. İşğaldan azad olunduqdan sonra burada keçirilən seçki prosesində böyük coşqu yaşandığını görürük.**

Bunu Şuşa şəhərində jurnalistlərə açıqlamasında prezident seçkilərinin gedişini izləyən Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) nümayəndəsi Tahir Akyürek söyləyib.



"Seçici fəallığının şahidi olduq. Gözəl təşkilatçılıq var. Seçkilərin Azərbaycan xalqı üçün, Türk dünyası üçün xeyirli olmasını diləyirik", – deyə TÜRKPA nümayəndəsi bildirib.

XQ

# "Biz Şuşada yüksək fəallıq müşahidə etdik"

**Beynəlxalq müşahidəçi, Belarus Parlamenti Respublika Şurasının sədr müavini Valeri Belski Qarabağ regionundakı seçki məntəqələrində seçici fəallığının yüksək olmasını məmnunluqla qeyd edib.**

Açıqlamasında belaruslu deputat Şuşadakı seçki məntəqəsində də olduğunu vurğulayıb. V.Belski Azərbaycana işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı planların tezliklə həyata keçirilməsini arzulayıb.

O, həmçinin Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasını ən yüksək dövlət səviyyəsində əldə edilmiş razılaşmaların səmərəli icrası baxımından vacib adlandırıb.



XQ

# "Seçkilər beynəlxalq seçki standartlarına tam uyğundur"

**Azərbaycanda növbədənkənar prezident seçkiləri demokratiya və şəffaflıq normaları çərçivəsində keçirilir.**

Bunu GUAM nümayəndə heyətinin tərkibində seçkiləri müşahidə etmək üçün Azərbaycana gələn Ukrayna Ali Radasının deputatı Mixail Papiyev deyib.

"Biz artıq Sumqayıtdakı seçki məntəqələrində olmuşuq, indi Bakıdayıq. Müşahidələrimiz zamanı vətəndaşlarla əlaqə saxlamışıq, seçkilərlə bağlı hər hansı irad yoxdur. Hər şey demokratik normalar çərçivəsində həyata keçirilir", – o vurğulayıb.



Onun sözlərinə görə, Azərbaycanda seçkilər beynəlxalq seçki standartlarına tam uyğundur.

XQ

# "Azərbaycan gənclərinin seçkiyə marağı yüksəkdir"



**İtaliya parlamentindən olan müşahidəçi Andrea Di Cüzeppe Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində gənclərin yüksək fəallığını məmnunluqla qeyd edib.**

Bunu italiyalı parlamentari jurnalistlərə 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 38 saylı seçki məntəqəsində apardığı müşahidələrin nəticələrinə əsasən deyib.

"Seçkilərdə fəallığın yüksək olması bizi müsbət mənada təəccübləndirdi. Səhər saatlarından fəallıq çox yüksək idi. Gənclər səsvermədə aktiv iştirak edirlər", – o bildirib.

İtaliyalı parlamentari vurğulayıb ki, Azərbaycan gəncləri Avropa İttifaqı ölkələrindən fərqli olaraq seçkilərdə səsvermədə iştirak etməkdə maraqlıdırlar: "Avropada insanları səsvermə hüququndan istifadə etməyə razı salmaq problemlidir".

XQ

# "Heç bir problemlə qarşılaşmamışıq"



**Seçkilərin qardaş Azərbaycan xalqı və Türk dünyası üçün xeyirli olmasını diləyirəm. Biz Türk Dövlətləri Təşkilatı olaraq, Azərbaycanın dəvəti əsasında seçki prosesini müşahidə edirik. İki əsas qrupumuz Bakıda fəaliyyət göstərir. Üçüncü qrup isə Qarabağ bölgəsində seçkiləri müşahidə edir. İndiyədək seçki məntəqələrində hər hansı problemlə qarşılaşmamışıq. Seçkilər mütəşəkkil keçirilir.**

Bunu Xocalıda jurnalistlərə açıqlamasında Türk Dövlətləri Təşkilatının nümayəndəsi Ali Çiviler söyləyib.

"Qarabağ bölgəsində, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında olmaqdan məmnunuq. Seçki günündə burada olmağın bizim üçün xüsusi önəmi var. Seçkilərin qardaş Azərbaycana xeyir gətirməsini diləyirik", – deyə türk müşahidəçi bildirib.

XQ

# Paytaxt seçiciləri hərtərəfli yeniləşmə və

## Nəsimi

***Bakının mərkəzi rayonu Nəsimi müstəqil dövlətimizin inkişafında yeni mərhələ sayılan hərtərəfli yeniləşmə və tərəqqi prosesinin önündə gedir. Ölkə rəhbərliyinin təşəbbüsü və birbaşa nəzarəti altında son illərdə burada gerçəkləşdirilən silsilə layihələr ərazinin simasını başdan-başa dəyişdirmişdir.***



218 min əhalinin yaşadığı rayonda sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlərlə insanların rifahı xeyli yaxşılaşmışdır. Paytaxtın mədəni həyatının zənginləşməsinə Nəsimi royonunun töhfəsi də çoxalmışdır. Bütün bunlar ümumi məmnunluğu yüksəltmiş, ölkədə gerçəkləşdirilən islahatların yeni mərhələsində insanların fəal iştirakına təkan vermişdir.

Dünən ölkədə keçirilən prezident seçkilərinə rayon ərazisində dəvət almış 106 min 824 seçici növbəti dəfə vətəndaşlıq borcunu yerinə yetirməyə belə bir mənəvi-siyasi ab-havada çıxmışdı. Son illərdə əksəriyyəti əsaslı təmir edilmiş və yenidən qurulmuş sosial-mədəni obyektlərdə yerləşən seçki məntəqələrinin qarşısında kütləvilik və mütəşəkkillik səhər saatlarından açıq-aşkar görünürdü. 2020-ci ilin Qarabağ Zəfərindən qaynaqlanıb gələn, ötən ilin payızında Xankəndidə separatçı xuntanın darmadağın edilməsi ilə daha da yüksələn ümumxalq təntənələri bu gün yeni bir dalğa ilə təzahür edirdi.

Rayonun iri və yığcam yaşayış massivi olan mikrorayonlarda yerləşən 21 saylı dairənin 15 saylı seçki məntəqəsi paytaxtın 5 saylı məktəbində yerləşir. IV mikrorayonun bir hissəsini əhatə edən məntəqə açılmamışdan binanın qarşısına qocalı-cavanlı, kişili-qadınlı xeyli seçici toplaşmışdı. Seçki komissiyasının sədri qapıları taybatay açıb səsvermənin başlanmasını elan edəndə bir-birini yaxından tanıyan məhəllə sakinləri uğurlu başlanğıc və ehtiram əlaməti olaraq bayaqdan başına toplaşdıqları Qarabağ qazisi Kəbi Lalayevi qabağa verdilər.

Sonra izdihamdakılar kiçik dəstələrlə içəri daxil olub səsvermə prosesinə qoşuldular. Giriş qapısının yan tərəfində "şəfaf mürəkkəb" yoxlanışından keçənlər şəxsiyyət vəsiqəsi ilə komissiya üzvlərinə yaxınlaşır, ümumi siyahıda adlarının qarşısına imza qoyandan sonra səsvermə bülleteni alır, seçim etmək üçün pərdə arxasına keçirdilər.

***Səyyar kabinədən ilk çıxan Qarabağ qazisi yüksək əhvalla dörd qatladığı bülleteni ilk olaraq şəffaf qutuya salıb "uğurlu olsun!"– dedi. Kəbi Lalayevi bir kənara çəkib ayaqüstü müsahib olduq:***

– Seçimimi açıqlaya da bilərəm. Qaydaya uyğun olaraq, bunu eləmirəm. Mən I Qarabağ savaşında Qazaxda döyüşmüşəm. Bizim mövqeyimizdə məğlubiyyət olmasa da, daxili və xarici düşmənlər bizi Qarabağda uduzdurdular. 30 il başımızı yuxarı qaldıra bilmədik. Vətən müharibəsində mənim oğlumun da sıralarında olduğu nəsil Qarabağı düşməndən azad etdi, milli qeyrətimizə düşmüş ləkəni sildildi. Bax mən bu siyasətin davamına, bu Zəfərin xalqa gətirdiyi yeni ruha, qarşımızda açılmış yüksəliş meydanında yeni uğurlar qazandıracaq, inandığım, sevdiyim namizədə səs verdim. Onu da deyim ki, biz Qarabağ qazilərinin hamısı eyni seçim etməyi qərara almışıq.

***Prosesi xeyli izlədikdən sonra 15 saylı seçki məntəqəsinin sədri Məlahət Hüseynovaya yaxınlaşdıq. O, sualımıza cavab olaraq bildirdi:***

– Seçki siyahısına ərazidə yaşayan 1484 sakinin adı daxil edilib. Onlardan 16-sı son günlərdə başqa ünvana getməsi ilə bağlı çıxarış vərəqi alıb. Artıq 1 saatdır ki, səsvermə başlayıb. Hər kəsə bülleten lazımi yoxlanışdan və şəxsiyyət vəsiqəsini təqdim etdikdən sonra verilir. Başqasının əvəzinə səs vermək yolverilməzdir. Ümumi fəallıq əvvəlki seçkilərlə müqayisədə çox yüksəkdir.

***Məntəqədən çıxanda Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski ilə rastlaşdıq. Seçkiqabağı təşviqat kampaniyası zamanı keçirdikləri görüşlər zamanı tanış olduğumuz Vaqif müəllim söylədi ki, onların məqsədi seçici fəallığına nail olmaq idi:*** "Bu gün isə Şura üzvləri müşahidəçi kimi məntəqələri dolaşırlar. Rayon üzrə 3 dairənin bütün məntəqələrində yüksək fəallıq var. Hər kəs öz namizədinə sərbəst şəkildə səs verir. Uzun illər çoxsaylı seçkilərdə olmuşam. Budəfəki yüksək əhval heç vaxt olmayıb. Şübhəsiz bu, 30 il xalqımızı üzmüş, ölkəmizə hədsiz bəlalar gətirmiş Qarabağ ağrısına ən yüksək səviyyədə son qoyulmasının nəticəsidir. Biz yaşlı nəsil xalqımıza daha böyük sevinclər, təntənələr arzulayırıq. İnanırıq ki, seçkidə qalib gələn namizəd ölkəmizi yeni qələbələrə aparacaq".

## Xətai

***Növbədənkənar prezident seçkiləri paytaxtımızın əhalisinin sayına görə ən böyük rayonlarından olan Xətaidə də böyük mütəşəkkilliklə keçdi. Səhər saatlarından etibarən apardığımız müşahidələr əhalinin seçki məntəqələrinə axınını aydın şəkildə nümayiş etdirirdi.***

Qeyd edək ki, Xətai rayonu ərazisində dörd seçki dairəsi fəaliyyət göstərir. Bunlar 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü və 35 saylı Xətai-Suraxanı seçki dairələridir. Əvvəlcə 35 saylı Xətai üçüncü seçki dairəsinin 17, 18, 19 və 31 saylı məntəqələrində olduq. Həmin məntəqələr Azərbaycanın Milli Qəhrəmanı Tahir Bağırovun adını daşıyan 59 saylı tam orta məktəbdə yerləşir.

Məntəqənin girişində səs verməyə gələn bütün seçicilərin barmaqları ultrabənövşəyi şüalarla təchiz olunmuş xüsusi detektorlarla diqqətlə yoxlanılırdı. Seçkidə şəffaflığın təmin edilməsinin mühüm elementi olan həmin cihazla yoxlama səs verməyə gəlmiş seçicinin bundan öncə səs verib-vermədiyini aşkarlamaq üçündür. Səsvermə bülleteni alaraq kabinəyə yaxınlaşan seçicinin barmağına isə gözlə görünməyən mürəkkəb vurulurdu.

Ümumilikdə, məktəb daxilində izdiham yaşanırdı. İnsanlar səs vermək üçün növbəyə düzülmüşdülər. Seçicilər arasında ilk dəfə səs verənlər də var idi. Onlardan biri 2005-ci il təvəllüdlü Kərimov Davud Səbuhi oğludur. Davud Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birinci kurs tələbəsidir. O, "XQ"yə açıqlamasında dedi: "Prezident seçkiləri mənim səsvermə hüququmun yaranmasından sonra keçirilən ilk seçkilərdir. Təəssüratım yüksəkdir. Səsvermə yaxşı təşkil olunub. Proses qanunauyğun şəkildə gedir. Hamı kimi biz də bülleten aldıq və səsvermə kabinəsinə keçərək öz iradəmizi azad şəkildə ifadə etdik. Seçkilərin xalqımıza və dövlətimizə düşərli olmasını arzu edirəm".

**31 saylı məntəqə seçki komissiyasının sədri Fəridə Nəsibova açıqlamasında bildirdi: "Məntəqədə 1346 seçici qeydiyyatdadır. Seçkilər çox fəal keçir.**



**Seçicilərin iştirakından razıyıq. Aktivlik yüksəkdir".**

Məntəqələrdə namizədliyi siyasi partiyalar və öz təşəbbüsü ilə irəli sürülmüş şəxsləri təmsil edən müşahidəçilər də var idi. Onlardan Şahnaz Sadıqova dedi: "Mən namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Zahid Orucu təmsil edən müşahidəçiyəm. Müşahidəçilərə heç bir problem yaradılmır. Səsvermədə yüksək aktivlik müşahidə olunur".

Namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Əliyevi təmsil edən müşahidəçi Raqif Əzizli seçkilərin şəffaf qaydada keçirildiyini bildirdi. Qeyd etdi ki, seçkilər azad və aşkar keçirilməsinə görə nümunə ola bilər: "Seçicilərin çoxluğunu özünüz də müşahidə edə bilərsiniz. İnsanlar dəstə-dəstə gəlir, səs verdikdən sonra məntəqələri tərk edirlər. Qeydiyyatı olmayanların şəxsiyyət vəsiqələri yoxlanılır, onların adları ayrıca siyahıya daxil edilir və səs vermələrinə şərait yaradılır".

**Vətəndaş Zülfiyyə Abdullayeva da ilk dəfə səs verənlər sırasında idi.** Səsvermədən sonra onun fikirlərini öyrəndik: "Səsvermə normal qaydada keçirilir. Hər hansı çətinliklə üzləşmədik. İstədiyimiz namizədə səs verdik".

**Ölkəmizin rus əsilli vətəndaşı Antonina Petrovna Qodunova** həyat yoldaşı, qızı və kürəkəni ilə birlikdə səsvermədə iştirak edirdi: "Bu gün, fevralın 7-si Azərbaycanın həyatında əlamətdar gündür. Biz öz iradəmizlə, xoş niyyətlə seçkidə iştirak etməyə gəlmişik. Biz ölkəmizin işıqlı gələcəyinə səs verdik. Arzu edirik ki, hər şey yaxşı olsun".

Məktəb daxilində yerləşən **19 saylı məntəqə seçki komissiyasının sədri Pikə Əhmədova** isə qəzetimizə açıqlamasında seçicilərin fəallığının çox yüksək olduğunu bildirdi: "Məntəqəmizdə 1459 seçici qeydiyyatdadır. Fəallıq yüz faizdir. Gördüyünüz kimi, seçicilər bülletenləri almaq üçün gözləməli olurlar. Bu saatadək nə qədər seçici gələcəyini gözləyirdiksə, o qədər də gəlib".

Qeyd edək ki, 35 saylı Xətai üçüncü seçki dairəsində 50 min 395 seçici daimi qeydiyyatdadır. Onlardan bir nəfərin yaşı yüzdən yuxarıdır. Dairə üzrə 41 seçki məntəqəsi mövcuddur. Seçki məntəqələrinin 11-ində, o cümlədən, bizim də müşahidə apardığımız 17 saylı məntəqədə veb-kamera quraşdırılmışdı. Dairə üzrə hərbi hissə və xəstəxanalarda yerləşən və seçki gününə beş gün qalmış yaradılan məntəqələrin sayı isə 6-dır. Həmin məntəqələr fevralın 2-dən etibarən fəaliyyətə başlayıb.

Daha sonra seçki prosesini 33 saylı Xətai birinci seçki dairəsinin 38 saylı məntəqəsində izlədik. Həmin məntəqədə seçici siyahısında 1314 nəfərin qeydiyyatda olduğunu öyrəndik. Səsvermənin ilk saatlarında onlardan 185 nəfəri artıq səsvermə hüququndan istifadə etmişdi. Səs verdikdən sonra 35 yaşlı vətəndaş Vüsal Qarayevin fikirlərini öyrəndik: "Proses əla adlandırılmağa layiq təşkil olunub. Səsvermə qanunvericiliyin tələblərinə əməl etməklə təşkil olunub".

## Səbail

***7 saylı Səbail seçki dairəsinin 26 saylı məntəqəsi rayonun "20-ci sahə" adlanan qəsəbəsindəki 51 saylı tam orta məktəbin binasında yerləşir. Bu gün (dünən-red) səhər saat 10 radələ-***



***rində buraya gələndə, əvvəlcə gözlərimə inanmadım. Məntəqənin qarşısında azı 40-50 adam səs vermək üçün növbəyə durmuşdu.***

"Bəlkə, səsvermə prosedurunda ləngimə baş verir?" – deyə ani olaraq düşündüm. Bir neçə dəqiqədən sonra bəlli oldu ki, burada ləngimədən söhbət belə gedə bilməz. Belə ki, məntəqə üzvləri vaxt itirmədən seçicilərdən bildirişləri qəbul edir və seçki bülletenlərini vətəndaşlara təqdim edirdilər. Növbə ona görə yaranırdı ki, sadəcə insanlar axın-axın gələrək öz vətəndaşlıq borclarını tez yerinə yetirməyə çalışırdılar. Sözün düzü, bu səhnəni müşahidə edərkən təsirlənməmək qeyri-mümkün idi!

**Məntəqədə belə yüksək seçki fəallığı ilə üzləşəcəyini uzaq Meksika Respublikasından 7 fevral prezident seçkilərini izləmək üçün ölkəmizə gələn beynəlxalq müşahidəçi, Meksika Konqresinin deputatı Alberto Villa Villegas da gözləmirmiş.**

– Bakıda bu gün müşahidə etdiklərim məni yaxşı mənada təəccübləndirdi. Seçici fəallığı olduğum bütün məntəqələrdə son dərəcə yüksəkdir. Bu, ilk növbədə, ona dəlalət edir ki, Azərbaycan xalqı və dövləti, həqiqətən, sivil və demokratik dəyərlərə böyük önəm verir. Bu, bütün dünyaya gözəl nümunədir! Meksikanın aparıcı "Morena" (Milli Hərəkat) Partiyasının rəhbərlərindən biri olan qonaq sonra dərin məmnunluq hissilə son illər müstəqil Azərbaycanla onun ölkəsi arasında bütün sahələrdə hərtərəfli əlaqələrin inkişaf etdiyini qeyd etdi.

**Yeri gəlmişkən, Meksika Konqresinin məsləhətçisi Niddiya İzney Parra** da ölkəmizdə prezident seçkilərinin dünyanın ən yüksək standartları səviyyəsində keçirildiyini, ölkə vətəndaşlarının səsvermə prosesində olduqca fəal iştirak etdiklərini izləməkdən məmnun qaldığını vurğuladı.

…Məktəbin digər korpusunda, 7 saylı dairə seçki komissiyasının 17 nömrəli məntəqəsində də yüksək seçki fəallığı müşayiət olunurdu. Burada nəzərəçarpan əsas cəhətlərdən biri də, həm də o idi ki, səsvermə prosesinə qatılanların çoxu gənclər idilər. Onların çoxunun üzündə xoş əhvali-ruhiyyə vardı.

Gənc qızlardan birinə yaxınlaşdım və ondan özünü təqdim etməsini xahiş etdim:

– Adım Züleyxa, soyadım Əliyevadır. Bakı Dövlət Universitetində hüquq fakültəsinin 2-ci kursunda oxuyuram. Həyatımda ilk dəfədir ki, seçkilərə qatılıram. Qalib ölkənin qalib vətəndaşı olmaqdan son dərəcə xoşbəxtəm.

**Züleyxa ilə qısa, ayaqüstü söhbət zamanı öyrəndim ki,** o, təhsil aldığı ali məktəbdə dərslərini əla qiymətlərlə oxuyur. Universiteti bitirəndən sonra isə peşəkar vəkil kimi fəaliyyət göstərməyi, insanlara gücü çatan qədər yaxşılıqlar etməyi arzulayır.

**Sonra 7 saylı Səbail seçki dairəsinə gəldim. Dairənin sədri Cahangir Məmmədov bildirdi ki,** dairə üzrə 41 daimi və səsvermə gününə ən az 5 gün qalmış yaradılan 12 müvəqqəti seçki məntəqəsi fəaliyyət göstərir. Dairə üzrə seçkiləri 300 yerli müşahidəçi izləyir. Bundan başqa seçkiləri izləmək üçün çox sayda xarici müşahidəçilər paytaxtımıza təşrif buyurublar.

C.Məmmədov sonda vurğuladı ki, gün ərzində seçkilərlə bağlı heç bir qanun pozuntusu qeydə alınmayıb.

*

***…Bura 23 saylı Səbail-Nəsimi seçki dairəsinin 13 saylı seçki məntəqəsidir. Saat 13.00-dır. Məntəqə Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənov adına 23 nömrəli tam orta məktəbin binasında yerləşir.***



Məntəqənin sədri Jalə Zeynalova səsvermə proseseinin təşkili ilə bağlı sualımızı cavablandırarkın dedi:

– Seçici fəallığı əladır. Səhər erkən saatlardan insanlar axın-axın gəlir. Siyahı üzrə 1445 nəfər seçicimiz var, 600 nəfərə qədər vətəndaş artıq səsvermədə iştirak edib. Seçkiyə gələnlər bayram əhval-ruhiyyəsindədir. Mən çox sayda seçkilərdə iştirak etmişəm. Bu qədər fəallıq, izdiham görməmişəm. Görürsünüzmü, seçicilər səsvermə otağına daxil olmaq üçün növbə gözləyirlər.

Seçkini izləyən xarici ölkə xəbər kanallarının müxbirləri ilə də söhbət edib, onların seçki haqqında rəylərini öyrəndim.

**"TGRT Haber" kanalının müxbiri Merve Sibel Sili bildirdi:**

– İlk növbədə onu qeyd edim ki, Azərbaycanda prezident seçkilərinin keçirilməsi xəbərini sevinclə qarşıladım. Düşməndən azad edilən Qarabağda ilk dəfədir ki, seçkilər keçirilir. Bu, Azərbaycanın gələcəyi üçün çox önəmlidir. Düşünürəm ki, orada yaşayan vətəndaşlar daha çox sevinirlər.

Azərbaycanın torpaqları ilk dəfə olaraq işğaldan azad olunduqdan sonra seçicilərini qarşılayır. Bundan böyük sevinc yaşamaq olarmı? Mən bir türk olaraq bu Zəfər seçkisini sizinlə birgə izləyirəm və çox sevinirəm.

**Başqa bir media nümayəndəsi, "kanal 100"ün müxbiri Yunis Əmrə Demirkaya dedi:**

– Dünəndən Bakıdayam. Bu gün səhərdən seçkini izləyirəm. 22 min vətəndaş Qarabağa – doğma yurdlarına qayıdıb. Onlar ilk dəfə olaraq səs verirlər. Bu, çox böyük hadisədir. Dünən MSK-nın brifinqində iştirak etdik. Seçkinin keçirilməsi ilə bağlı tam məlumat əldə etdik. Hər şey ən yüksək səviyyədə təşkil olunub.

Məndə bir müxbir olaraq belə bir fikir yarandı ki, indiki dövlət rəhbəriniz daha çox səs qazanacaq. Çünki o, Qarabağ zəfərinin başında dayanıb. Xalq kimə səs verir? Biz də belə bir sualın cavabında deyirik ki, kim xalqa daha çox xidmət edirsə, onun səsi də çox olacaq. Şanslı namizəd xalqın sevgisini qazanandır! Mən belə düşünürəm.

**Böyük Quruluş Partiyasının üzvü, müşahidəçi Sənurə İsgəndərova öz təəssüratlarını bizimlə bölüşdü:**

–13 saylı Səbail-Nəsimi seçki məntəqəsindəyəm. Seçicilər çox fəaldır. Torpaqlarımızın azad olunması hamını bir nəfər kimi bu seçkiyə gəlməyə ruhlandırır. Uşaq da, böyük də bu hadisəni bayram kimi qarşılayır. İnanın ki, bu yaşıma kimi belə bir yüksək fəallıq görməmişəm. Heç bir hüquq pozuntusu ilə qarşılaşmamışam.

Sonra, 23 saylı Səbail-Nəsimi seçki dairəsinin 12 saylı seçki məntəqəsinə yollanıram. Burada da seçicilərin fəallığını, xoş əhval-ruhiyyəsini görürəm. **Məntəqənin sədri Aytən Baxşıyevadan öyrənirəm ki, bu məntəqədə 998 seçici var.**

**Müstəqil müşahidəçi Arzu Qulamovanın da fikirləri maraqlı idi:**

–Bilirsiniz, mən ilk dəfədir ki, belə bir izdihamlı seçkinin müşahidəçisiyəm. Bu gün müşahidələrim əsasında bir daha yəqin etdim ki, Azərbaycan multikultural, tolerant ölkədir. Çünki, burada müxtəlif xalqların nümayəndələrini gördüm. Dilindən, irqindən asılı olmayan bu vətəndaşlarımız seçkiyə gəlməklə onu sübut etdilər ki, onlar bu ölkədə rahat yaşayırlar. Mən onların üzündə ancaq təbəssüm gördüm.

## Nərimanov

***19 saylı Nərimanov 1-ci seçki dairəsinə daxil olan seçki məntəqələrinin önündə əsl qələbəlik hökm sürürdü. Müşahidə apardığımız seçki məntəqələrində səsvermə prosesinin ilk saatları olmasına baxmayaraq, yüksək seçici fəallığı müşahidə olunurdu. Dairənin 26 saylı məntəqəsinin önündə isə əsl izdiham var idi.***



Burada seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələri, eləcə də səsvermə prosesini yaxından izləyən yerli və beynəlxalq müşahidəçilər üçün hərtərəfli şərait yaradılmış, məntəqədə veb-kamera quraşdırılmışdı. Səsvermənin gedişində neqativ hallara yol verilməməsi üçün seçicilərin barmaqları gözlə görünməyən mürəkkəblə işarələnirdi. Öyrəndik ki, məntəqə üzrə qeydə alınmış 1485 seçicinin 545 nəfəri saat 12-dək məntəqəyə gələrək layiq bildiyi namizədə səs verib.

Ümumilikdə isə, 19 saylı 1-ci Nərimanov seçki dairəsi üzrə 37 seçki məntəqəsi yaradılıb. Dairə üzrə seçici sayı 49 min 142 nəfər təşkil edir. **Dairə seçki komissiyasının sədri Azad Nəbiyevin bildirdiyinə görə,** səsvermə prosesinin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilməsi üçün bütün məntəqələrdə zəruri şərait yaradılıb, texniki təchizat ən yüksək səviyyədədir. 11 məntəqədə isə veb-kamera quraşdırılıb. Dairə üzrə səsvermə prosesini izləmək üçün 699 yerli müşahidəçi qeydiyyatdan keçib. Bundan əlavə, səsvermə prosesinin ilk 3-4 saatı ərzində dairə seçki komissiyasına müraciət etmiş 8 nəfər beynəlxalq müşahidəçiyə seçkini izləmək üçün lazımi şərait yaradılıb. Komissiya sədri onu da bildirdi ki, dairə üzrə yaşı 100-ü ötmüş 2 nəfərin, eləcə də səhhətində problemləri olan seçicilərin səs vermələri üçün məntəqələr daşınan qutu ilə təchiz olunub.

Saat 12-dək isə bu dairə üzrə 13 min 61 nəfər seçici səsvermədə iştirak edərək layiq bildiyi namizədə səs verib.

20 saylı Nərimanov ikinci seçki dairəsi üzrə səsvermənin azad, demokratik və şəffaf keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb, seçki məntəqələri zəruri texniki vasitələrlə, o cümlədən, mürəkkəb balonları və ultrabənövşəyi lampalarla təchiz edilib. **Dairə seçki komissiyasının sədri Musa Musayev bildirdi ki,** səhər 8:00-dan etibarən 3-ü qapalı olmaqla 39 seçki məntəqəsi öz qapılarını seçicilərin üzünə açıb. Dairə üzrə 10 məntəqədə veb-kamera quraşdırılıb. Ümumilikdə, həmin məntəqələr üzrə 49 min 717 seçici qeydə alınıb ki, onlardan da 3 nəfərinin yaşı 100-ü ötüb. 18 yaşı fevralın 7-də tamam olmuş 2 nəfər də seçki hüququndan istifadə edib. Bununla yanaşı, səhhətində problemləri olan seçicilərin səs vermələri üçün ərazidəki 7 klinikaya və 26 mənzilə daşınan qutu çatdırılıb. Onun dediyinə görə, səhər saat 10-dək dairə üzrə seçicilərin 6963 nəfəri səsvermə hüququndan istifadə edib.

Məntəqələrdə seçki prosesini izləyən yerli və beynəlxalq müşahidəçilər üçün də hərtərəfli şərait yaradılıb. Komissiya sədrinin bildirdiyinə görə, dairənin tərkibində yaradılmış məntəqələr üzrə, ümumilikdə, 620 nəfərdən artıq müşahidəçi qeydiyyata alınıb. Bundan əlavə, səsvermə prosesinin ilk saatlarında ATƏT, MDB və digər ölkələrdən olan beynəlxalq müşahidəçilər də seçkinin gedişini izləmək üçün ayrı-ayrı məntəqələrə baş çəkiblər.

Səsvermə prosesini müşahidə etmək üçün yaxınlıqdakı 18 saylı seçki məntəqəsinə baş çəkdik. Məntəqədə seçici fəallığı olduqca yüksək idi. Yaşından asılı olmayaraq hər kəsin çöhrəsində bir məmnunluq, ölkəmizin gələcəyinə böyük inam işartıları sezilirdi. Səsverməyə gələnlər arasında gənclərin daha çox olması diqqət çəkirdi.

# tərəqqi siyasətinin davamına səs verdilər

## Sabunçu

***Müstəqil Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra keçirilən növbədənkənar prezident seçkilərində seçici kimi iştirak etmək hər bir azərbaycanlının şərəf borcudur. Mən də istisna deyiləm. Amma əvvəlki illərdə səsvermədə iştirak etmək ənənəmi bilərəkdən pozub bu dəfə səsvermədə iştirak edəcəyim məntəqəyə bir qədər gec – saat 10:30-da getdim. Bunun iki səbəbi vardı.***

Əvvəla, həmişə ailəlikcə səs verdiyimiz 26 saylı Sabunçu I seçki dairəsinin







35 saylı məntəqəsində səhər tezdən qələbəlik olur deyə, vaxtıma qənaət etmək istədim. İkincisi, sadəcə, özüm üçün monitorinq keçirirdim, görəm, səsvermənin ilk saatlarında daim müşahidə etdiyim seçici fəallığı saat 10–11 arasında da qalırmı?

Bu düşüncələr içində evdən çox da uzaq olmayan 35 saylı seçki məntəqəsinin yerləşdiyi 12 saylı texniki peşə liseyinə yollandım. Diqqətçəkən ilk məqam təbiətin göstərdiyi möcüzə idi. İnanmaq olmurdu ki, qışın bu oğlan çağında Bakıda belə hava olar. Sanki təbiət də bu günün müstəqil Azərbaycanın taleyində mühüm bir hadisə olduğunu duyub, paytaxta bir yaz havası hədiyyə etmişdi.

Seçkilərlə əlaqədar rəsmən istirahət günü elan edilsə də marşrut avtobusunda sıxlıq idi. Düşündüm, yəqin insanlar dükan-bazara tələsir. Amma seçki məntəqəsinin qarşısındakı dayanacaqda salondakı insanların əksəriyyəti avtobusdan düşdü. Yox, deyəsən yanılmamışdım, onlar da məntəqəyə sarı gedirdilər. Hər birinin çöhrəsində təbəssüm və sevinc vardı. Ünvan həmişəki ünvan, elə qarşısındakı qələbəlik də əvvəlki qələbəlik idi.

Saat 11-ə 5 dəqiqə qalmış lazımi prosedurları keçib bülletenimi aldım və səsvermə kabinəsinə daxil olub suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş müstəqil Azərbaycanı bundan sonra idarə etmək qüdrətində olan namizədimə səs verdim. Yalnız bundan sonra məntəqənin sədri Cavanşir Orucova yaxınlaşıb özümü təqdim etdim və elə onun iştirakı ilə bu məntəqədə seçki prosesini izləyən jurnalist kimi qeydiyyatdan keçdim.

Səmimi deyim ki, aktivlik bundan əvvəlki bütün seçkilərdən müsbət mənada seçilirdi. Daha çox diqqət çəkən səsverməyə gələn gənclərin çoxluğu idi. Görünür ölkənin taleyi onlar üçün daha çox əhəmiyyət kəsb etdiyindən bu prosesdə heç bir təbəqədən geri qalmaq istəmirdilər. Amma insafən ahıl və yaşlı nəslin nümayəndələri, xüsusilə qadınlar da kifayət qədər aktiv görünürdülər. Seçicilərin çoxluğu səbəbindən məntəqənin bütün üzvləri fəal şəkildə onların xidmətində idilər. Masaya yaxınlaşan vətəndaşın əvvəlcə barmağı xüsusi cihazla yoxlanır, təkrar səs vermədiyi aydınlaşandan sonra barmağına gözlə görünməyən xüsusi boya vurulur, şəxsiyyət vəsiqəsindəki məlumatlarla seçici siyahısındakı məlumatlar dəqiqləşdirilir, yalnız bundan sonra vətəndaş siyahıda adının qarşısında imzasını qoyub büllütenini alır və səsvermə kabinəsinə keçib səs verirdi.

Təbii ki, bütün bu proseslər bir qədər kənarda oturmuş müxtəlif partiya və ictimai təşkilatların 10-a yaxın müşahidəçisinin nəzarəti altında həyata keçirilirdi.

**35 saylı məntəqənin sədri Cavanşir Orucov vaxt tapan kimi “Xalq qəzeti”nə qısaca bunları söyləyir:**

– Məntəqəmiz bütün kampaniyalarda seçici aktivliyi ilə həmişə diqqət çəkib. Bu seçkilərdə isə ərazidəki vətəndaşlarımız gözlədiyimizdən daha fəaldırlar. Bu da onu göstərir ki, insanlar bu seçkinin ictimai-siyasi həyatımızda və Azərbaycanın sosial-iqtisadi inkişafında daha mühüm rol oynayacağını dərindən başa düşürlər.

Saat 11:00-a olan hesablamalarımıza görə məntəqəmizdə 1319 seçicidən, təqribən, 300 nəfəri artıq səsvermədə iştirak edib. Amma gördüyünüz kimi aktivlik davam edir, insanlar dəstə-dəstə məntəqəyə gəlirlər. Sıxlıq olmasın deyə, məntəqənin bütün üzvləri fəal işləyirlər. Çalışırıq ki, insanlar növbədə durub vaxt itirməsinlər. Yaşlı nəslin nümayəndələri də bu gün çox fəal görünürlər. Daha yaşlı seçicilərimizə çalışırıq ilk növbədə xidmət edib yola salaq.

Saat 14:30-a qədər prosesi canlı izləməli oluram. Fəallıq davam etməkdədir. Seçicilər kiçik dəstələrlə öz aralarında nəyisə müzakirə edir, deyib-gülür və xoş əhval-ruhiyyə ilə seçki məntəqəsinə gəlib səsvermədə iştirak edirlər. Məntəqədən böyük əminliklə ayrılıram, çünki müstəqilliyin gətirdiyi vətəndaş məsuliyyətindən irəli gələn seçici fəllığı artıq tariximizin reallığına çevrilib.

*

***Dünən Bakının Sabunçu rayonunda da növbədənkənar prezident seçkiləri demokratik, azad və sərbəst şəkildə keçirildi. Rayondakı dairə və məntəqə seçki komissiyalarının ərazisində apardığımız müşahidələrdən məlum oldu ki, seçicilər mütəşəkkil qaydada gələrək 7 namizəddən birinə səs verdilər.***

Rayondakı 27 saylı Sabunçu İkinci Seçki Dairəsinin 37-ci seçki məntəqəsinin sədri Azad Qədirov bizi səsvermə prosesi, məntəqə komissiyasının üzvləri, eləcə də müxtəlif partiya və ictimai təşkilatları təmsil edən müşahidəçilərlə tanış etdi.

Məntəqə komissiyasının katibləri Nəsib Hüseynov və Hidayət Hüseynovla söhbətdən öyrəndik ki, məntəqə səhər saat 8-də qanunvericiliyin tələblərinə uyğun olaraq açılıb, qutular komissiya üzvlərinin və müşahidəçilərin iştirakı ilə möhürlənib, qutuların şəffaflığı, səsvermə kabinələrinin seçkiyə tam hazırlığı hamıya göstərilib.

**Katib Nəsib Hüseynov bildirdi ki, məntəqənin ərazisində, ümumilikdə, 1090 nəfər seçici qeydə alınıb:**

– Günortaya yaxın, saat 12-yə olan məlumata görə, artıq 367 nəfər seçici prosedurlara uyğun olaraq, səs verib. Seçicilərin fəallığından da razıyıq. İnanırıq günün sonuna qədər sesicilərimiz bu mühüm dövlət tədbirində fəal iştirak edəcəklər. Bu seçki xüsusilə ona görə əlamətdardır ki, Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla, Azərbaycanın bütün ərazisində keçirilir. Bu, seçicilərin məntəqələrə axınına stimul verir.

Müşahidələrimizdən o da məlum oldu ki, növbə ilə məntəqə komissiyasına yaxınlaşan hər bir seçicinin barmağı şəffaf mürəkkəblə rənglənir və ona yalnız bundan sonra seçki bülleteni verilir.

Məntəqədə xeyli müşahidəçinin səsvermənin gedişini izlədiyi də diqqətimizdən yayınmadı. Onlardan Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının təmsilçisi Arzu Həsənova səhər saatlarından etibarən məntəqədə səsvermənin gedişini izlədiklərini, seçici fəallığının normal olduğunu, saat 12-yə qədər səsvermənin gedişində heç bir nöqsan qeydə alınmadığını, qanun pozuntusuna yol verilmədiyini bildirdi.

Həmin dairənin Sabunçu qəsəbəsindəki 24 saylı məntəqəsində də çoxlu seçici toplaşdığnı gördük. İnsanlar növbə ilə səsvermə otağına buraxılırdılar. Elə kənardan baxanda da seçicilərin seçkidə xüsusi fəallıqlarını müşahidə etmək mümkün idi.

**Gənc seçici Elçin Qəhrəmanov isə bizə yaxınlaşaraq bildirdi:**

– Qəsəbəmizin sakini olan seçicilər budəfəki seçkiyə böyük ruh yüksəkliyi və mütəşəkkilliklə gəliblər. Bu da səbəbsiz deyil. Çünki artıq uzun illər işğal altında qalmış torpaqlarımız azad edilib və həmin ərazilərdə, o cümlədən, Şuşada, Xankəndidə seçki keçirilir. Belə bir vaxtda heç kim seçkidən kənarda qalmaq istəmir.

## Yasamal

***Səhər saat 8:00-dan Yasamal rayonundakı üç seçki dairəsinin əhatəsində olan seçki məntəqələri qapılarını seçicilərin üzünə açdı. Sanki axşamdan bəri seçki məntəqəsinin qapısının açılmasını gözləyənlər var imiş. Bir neçə dəqiqə sonra seçicilərin axını başlandı. Mən də səs vermək üçün səhər tezdən 17 saylı III Yasamal seçki dairəsinin 8 saylı seçki məntəqəsinə getdim. Seçicilərin və müşahidəçilərin yaşlı bir kişinin başına toplaşdığını görüb oraya yaxınlaşdım. Öyrəndim ki, səsverməyə gələn 96 yaşlı seçici Nəcəf Mustafayevdir.***

**Məntəqə sədri Mehparə Babayeva dedi ki,** dəqiqləşdirilmiş seçici siyahısında 1239 nəfərin adı var. Gördüyünüz kimi, seçki məntəqəsinin qarşısında növbə var. Hamı səsvermədə iştirak etmək istəyir. Nəcəf baba ən yaşlı seçicimizdir. Fikirləşdik ki, yaşadığı ünvana daşınan səsvermə qutusu apararıq. Ancaq təkidlə dedi ki, səsverməyə özü gələcək. Elə də oldu. Hamıdan tez gələnlərdən biri də odur. Seçki kabinəsinə daxil olub istədiyi namizədə sərbəst səs verdi.

Seçki məntəqəsində müşahidəçilər üçün ayrılmış münasiib yerdə Böyük Quruluş, Yeni Azərbaycan və Böyük Azərbaycan partiyalarının təmsilçiləri və öz təşəbbüsləri ilə seçki prosesini izləyənlərə yaxınlaşıram. Müşahidə zamanı hansısa qanun pozuntusu, mübahisə və digər xoşagəlməz halların baş verib verməməsinin şahidi olmaları ilə maraqlanıram. Müşahidəçilər bildirirlər ki, seçki başlanandan elə bir xoşagəlməz hadisə baş verməyib. Seçici fəallığı müşahidə olunur. Bəzi hallarda səsvermə zamanı çox sayda seçicinin növbəyə dayandığının şahidi olmuşuq.

Məntəqə sədri dedi ki, Macarıstandan, MDB-dən və Birləşmiş Ərəb Əmirlikləri parlamentindən gəlmiş beynəlxalq müşahidəçilər də seçicilərin səs vermək üçün növbəyə dayandıqlarının şahidi oldular. M.Babyeva saat 2-yə qədər 600 nəfərdən çox seçicinin səs verdiyini dedi. Seçicilərin isə ardı-arası kəsilmirdi.

12 saylı seçki məntəqəsində də seçicilərin mütəşəkkilliyi özünü büruzə verirdi. Kənardan müşahidəmiz zamanı seçicilərlə komissiya üzvləri arasında hər hansı mübahisənin şahidi olmadıq. **Komissiya sədri Bəsti Ağayeva dedi ki,** seçici siyahısında 1261 nəfərin adı var. Onların arasında 11 nəfər ilk dəfə səs verəcək. Komissiya üzvləri seçkiyə hazırlıq prosesi zamanı onlarla maarifləndirici söhbətlər aparmışdı. “Aşağı seçki komissiya üzvləri üçün MSK tərəfindən təşkil



olunmuş maarifləndirici proqram, xüsusilə treninqlərdə öyrəndiklərimiz bu gün karımıza gəlir. Biz həmin təlimlərdə bilik və vərdişlərimizi daha da təkmilləşdirdik. Ona görə də bu gün elə bir ciddi problemlə üzləşmirik. Seçiciləri maraqlandıran bəzi məsələlər yerindəcə öz həllini tapır”.

Məntəqəyə daxil olan seçicilərin, ilk növbədə, baş barmaqları bənövşəyi lampalarla yoxlanılırdı. Ötən seçkilərdə olduğu kimi, bu dəfə də seçicilərin barmaqları gözlə görünməyən mürəkkəblə işarələnirdi. Bu, bir seçicinin təkrar səs verməsinin qarşısını almaq məqsədilə edilirdi. Məntəqədə seçki prosesini izləyən beynəlxalq müşahidəçilər də barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsini yüksək dəyərləndirdilər.

13 saylı seçki məntəqəsinin sədri Telman Məmmədovla söhbətdən öyrəndik ki, burada 1204 seçiicinin səs verməsi nəzərdə tutlub. Məntəqəyə daxil olanlar adlarını seçici siyahısında tapdıqdan sonra komissiya üzvlərinə yaxınlaşırdılar. Bəzi seçicilər isə onlara verilmiş bildirişləri də özləri ilə gətirmişdilər. Belə seçicilərin adlarını seçici siyahısında axtarmalarına ehtiyac yox idi. Məntəqəyə gəlmiş beynəlxalq müşahidəçilər hər hansı qanun pozuntusunun şahidi olmadılar.

Seçki məntəqəsinin sədri bildirdi ki, artıq seçicilərin 65 faizi səsvermədə iştirak edib. Seçicilərin mütəşəkkilliyi prezident seçkilərinə böyük maraq göstərildiyindən xəbər verir. Axı, bu, həm də Zəfər seçkisidir. Hər kəs bu seçkidə iştirak etməyi özünə borc bilir.

Baş çəkdiyimiz digər seçki məntəqələrində də seçicilərin böyük həvəslə səsverməyə gəldiklərinin şahidi olduq. Onlar da Zəfər seçkisində hər kəsin səsvermədə iştirakının vacibliyini bildirdilər.

**17 saylı III Yasamal seçki dairəsi dairə seçki komissiyasının sədri Qədir Kərimov bildirdi ki,** bütün seçki məntəqələrində vəziyyət belədir. Hər kəs səsvermədə iştirak etmək istəyir. Hətta, əlil arabasında səsverməyə gələnlər də var. Seçki məntəqələrinə əlil arabasında gələnlər üçün panduslar quraşdırılıb. Hətta bəzi yaşlı seçicilərin səsvermədə şəxsən iştirak etmək arzusunu nəzərə alıb onların avtomobillə gəlmələrini təmin etmişik. Çalışmışıq ki, hər kəs səsvermə hüququndan istifadə edə bilsin.

## Binəqədi

***Fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri günü Bakının Binəqədi rayonundakı seçki məntəqələrində də əhalinin yüksək fəallığı müşahidə olunurdu.***

Binəqədi 8 saylı I seçki dairəsinin 4 saylı məntəqəsində səsverməni izləyərkən, məkanda lazımi şəraitin yaradıldığını, bütün zəruri avadanlıqlarla təmin olunduğunu, veb-kamera quraşdırıldığını müşahidə etdik. Öyrəndik ki, məntəqədə səs vermək üçün ərazidən 1163 seçici qeydə alınıb. Səsvermədə iştirak edən seçicilərdən 18 nəfərinin yaşı 80-dən yuxarı, ilk dəfə səs verənlərin sayı 3-dür. Səs vermək üçün seçki məntəqəsinə gəlməyə imkanı olmayan 15 seçici yaşadığı evdə səs verəcək. Müşahidəçilərə yaxınlaşıb səsvermənin gedişi, seçiciyə kənar müdaxilənin olub-olmaması ilə bağlı fikirlərini öyrəndik.

***Məşvərətçi səs hüquqlu müşahidəçi Dilbər Səmədovadan seçkinin gedişinə kənar təsirin olub-olmadığını soruşduq. O dedi:***

– Seçki yüksək səviyyədə təşkil olunub. Seçki qanunvericiliyinə və Seçki Məcəlləsinə uyğun keçirilir. Bugünkü seçki mütəşəkkilliyi və şəffaflığı ilə yadda qalacaq. Veb-kamera vasitəsi ilə dünyanın istənilən ölkəsindən məntəqəni izləmək mümkündür. Belə olan halda hansı qanun pozuntusundan, seçiciyə təsirdən danışmaq olar? Hər kəs kabinədə istədiyi namizədə səs verir. Seçkini izləyən müxtəlif partiyaların təmsilçiləri də aydın görürlər ki, seçicilər sərbəst səs verirlər. Onlara yaxınlaşan, seçimlərinə müdaxilə edən yoxdur.

***Məntəqə seçki komissiyasının sədri Fəridə Yunusova:***

– Gördüyünüz kimi, seçkidə qələbəlikdir, dəhlizdə növbə gözləyənlər var,– dedi. – Bu seçki əvvəlkilərdən fərqlənir. Çünki böyük Zəfərdən sonra keçirilən ilk seçkidir. Azad edilmiş torpaqlarımızdakı bu təntənə qəlbimizi fərəh hissi ilə doldurur. Artıq seçicilərdə səsvermə fəallığı əvvəlki illərə nisbətən daha da formalaşıb. Növbəlilik qaydasında şəxsiyyət vəsiqələrini və ünvanlarına gələn bildirişləri təqdim etməklə bülletenlərini götürüb kabinələrdə istədikləri namizədə səs verirlər. Seçki prosesini müxtəlif partiyaların, prezidentliyə namizədlərin, QHT-lərin təmsilçiləri olan 10 müşahidəçi izləyir. Seçki gününə qədər seçici siyahısında dəyişikliklər edilib, dəqiqləşdirmələr aparılıb. Başqa məntəqələrdə səs verəcək seçicilər çıxarış alıblar və onların adları siyahıdan çıxarılıb. Bundan başqa, ötən seçkidən sonra dünyasını dəyişənlərin adları siyahıdan silinib. 2003–2006-cı ildə doğulan, ilk dəfə səsvermədə iştirak edən gənclərin adı siyahıya salınıb. Gördüyünüz kimi seçicilər sərbəst şəkildə öz mövqelərini bildirirlər.

Müşahidəçilərdən – BAXCP-nin təmsilçisi, “Psixoloji Xidmət” Tədqiqatlar Mərkəzinin nümayəndəsi Səriyyə İsmayılova, “Sivil toplum” 3 QHT Birliyini təmsil edən Mahir Şirvanov, prezidentliyə namizəd Zahid Orucun nümayəndəsi Günay Əlizadə səhər saatlarından məntəqədə olduqlarını, səsvermə prosesini izlədiklərini, heç bir qanun pozuntusunun olmadığını bildirdilər.

*

Qeyd edək ki, rayon ərazisində 8 saylı Binəqədi birinci, 9 saylı Binəqədi ikinci, 10 saylı Binəqədi üçüncü, 11 saylı Binəqədi-Qaradağ, 21 saylı Nəsimi-Binəqədi seçki dairələrinin dairə seçki komissiyaları fəaliyyət göstərir.

Rayonda fəaliyyət göstərən 10 saylı Binəqədi üçüncü seçki dairəsinin seçki məntəqələrində vətəndaşların izdihamı müşahidə edilirdi. Binəqədi qəsəbəsindəki 35 nömrəli şəhər poliklinikasında yerləşən **10 saylı Binəqədi üçüncü seçki dairəsinin 26 saylı seçki məntəqəsinin sədri Emin Dadaşzadə bildirdi ki,** burada seçkilərin demokratik, azad keçirilməsi üçün bütün imkanlardan istifadə olunub. Builki seçkilərdə dəqiqləşdirilmiş seçici siyahsına görə 1434 seçicinin səs verməsi nəzərdə tutulub. Seçkilərə hazırlıq dövründə prosesin şəffaf keçirilməsi üçün seçki məntəqəsi lazım olan bütün ləvazimatlarla təmin edilib. Barmaqların gözlə görünməyən mürəkkəb balonlarından tutmuş bənövşəyi lampalar, daşınan və daşınmaz seçki qutuları, metodiki vəsaitlər, yaddaş kitabçaları, əyani vəsaitlər və digər zəruri ləvazimatlara qədər hamısı seçki məntəqəsinə vaxtında çatdırılıb.

Qeyd edək ki, seçici siyahıları məntəqənin münasib yerindən asılıb. Seşki məntəqəsinin yaxınlığında quraşdırılmış dəmir lövhədə prezidentliyə namizədlərin təşviqat aparmaları üçün bərabər səviyyədə yer ayrılıb. Bu, indiyədək



seçkilərdə iştirak edən istər vətəndaşlarımız, istərsə də beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

Seçki prosesinin 6 müşahidəçi tərəfindən izlənildiyini qeyd edən məntəqə sədri vurğuladı ki, səsvermə zamanı hər hansı neqativ hal qeydə alınmayıb. Səhər saatlarından başlayaraq seçici fəallığı müşahidə olunub. Məntəqədə fiziki qüsurlu seçicilər üçün yaradılan şərait də razılıqla qarşılanıb. Seçki prosesində hər hansı bir çatışmazlıq qeydə alınmayıb.

**Nazim Nəbiyev, neft mühəndisi:**

– Artıq beynəlxalq aləmin də respublikamızda demokratik, azad, mütəşəkkil surətdə keçirilən seçkilərdən məlumatı var. Bax, elə buna görə də indiyədək yersiz, əhəmiyyətsiz bəhanələrlə ölkəmizə qarşı təhdid və təzyiq vasitələrindən istifadə edən bir sıra dövlətlər bundan sonra Azərbaycanı, xalqımızı mövqeyindən döndərə bilməyəcək.

**Adıgözəl Şükürov, elektrik mühəndisi:**

– Yaşadığımız bu dövrün irəli sürdüyü çağırışlar növbədənkənar prezident seçkilərinin keçirilməsini şərtləndirən ən mühüm səbəbdir. Xalqımız, şübhəsiz ki, qarşıdakı qlobal və mühüm regional problemlərini ən mükəmməl səviyyədə həll edə biləcək namizədə səs verəcək. Bu seçkilər ölkəmizin ərazi bütövlüyü şəraitində keçirilən ilk seçki olaraq tarixə yazılır.

Seçki məntəqələrində səhər saatlarından böyük seçici aktivliyi müşahidə olunur. Əhalinin seçkidə fəal iştirakına şahid oluram. Seçkilərin tam demokratik və şəffaf keçdiyini əminliklə deyə bilərəm.

***Səhifəni hazırladılar:
Tahir AYDINOĞLU,
İlqar RÜSTƏMOV,
Məsaim ABDULLAYEV ,
Vaqif BİNYATOĞLU ,
Mirbağır YAQUBZADƏ,
Paşa ƏMİRCANOV,
Zərifə HÜSEYNOVA,
Əliqismət BƏDƏLOV,
Kəmalə ABDİNOVA,
Səxavət HƏMİD
XQ***

# Naxçıvanda növbəti seçki təntənəsi yaşandı





**Fevralın 7-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 32 saylı seçki məntəqəsində səs verib.**

Məntəqədə çoxsaylı müşahidəçilər səsvermə prosesini izləyiblər.

Səlahiyyətli nümayəndə komissiyanın işinə uğurlar arzulayıb.

Növbədənkənar prezident seçkilərində səsvermə üçün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 6 seçki dairəsi üzrə, ümumilikdə, 278 mindən çox seçici qeydə alınıb. Səsverməyə start verildiyi andan muxtar respublika sakinləri seçkilərdə fəal iştirak ediblər. Seçki məntəqələrində seçicilərin rahat və şəffaf şəkildə səsverməsi üçün lazımi tədbirlər görülüb, veb-kameralar quraşdırılıb, müşahidəçilər üçün yerlər ayrılıb.

Muxtar respublikada seçki dairələri üzrə ən çox seçici 2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə (47 min 224 nəfər) qeydə alınıb.

17 min 514 nəfər ilk dəfə səsveməyə dəvət alıb. Yaşı 100-dən çox olan seçicilərin sayı isə 5 nəfərdir.

***

**Naxçıvan MR-in ən yaşlı seçicisi Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşayan 104 yaşlı Şərəf Hüseynəliyevanın prezident seçkilərində öz evində səs verməsinə şərait yaradılıb.**

Yaşlı seçicinin bu arzusu əvvəlcədən qeydə alınaraq məntəqə seçki komissiyası tərəfindən onun yaşadığı evə daşınan seçki qutusu göndərilib. Adı 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 41 saylı Qıvraq seçki məntəqəsinin seçicilər siyahısında olan 1920-ci il təvəllüdlü Şərəf Hüseynəliyeva seçki bülletenini doldurmaqda övladları kömək edib.

***

**Dünən 18 yaşı tamam olan Naxçıvan şəhər sakini Fatimə Qurbanova ilk dəfə olaraq səs verib. O, 4 saylı Naxçıvan Seçki dairəsinin 28 saylı seçki məntəqəsində seçici kimi iştirak edib.**

Ad günü ilə bağlı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Fatimə Qurbanovanı təbrik edib. Təbrik məktubunu ona 28 saylı seçki məntəqəsinin sədri Cavid Səfərov təqdim edib.

***

**Vətən müharibəsi qazisi Pərviz Muradov Naxçıvan şəhərindəki 4 saylı seçki dairəsinin 18 saylı məntəqəsində səs verib. O bildirib ki, savaşda qazanılan Zəfərdən sonra döyüşdə aldıqları qəlpə yaraları onları incitmir, əksinə, qürur hissi verir.**

Qazi daha sonra qeyd edib ki, bu Zəfər igid oğulların canı, qanı bahasına



qazanılıb: "Qələbənin qazanılmasında payı olan hər bir hərbçi Vətəninə sədaqət andı içərək döyüşə atıldı. Və bu gün də seçkilərdə Vətənimizin parlaq gələcəyi üçün sədaqətimizi bir daha sübut edirik".

Vətən müharibəsindəki döyüşlərdə düşmənin keçilməz dediyi "Ohanyan xətti"ni öz tağımı ilə yaran zabitlərimizdən biri Əli Əlisoy isə öz ailəsi ilə birlikdə Şərur rayonunun Danyeri kəndində yerləşən 2 saylı Şərur-Kəngərli seçki dairəsinin 2 saylı məntəqəsində səsvermə hüququndan istifadə edib.

O bildirib ki, döyüşə atılanda hər kəs öz canını Vətənə qurban deyib, torpaqları azad etməyə and içmişdi: "Qarabağ yanğısı ilə yanan ürəklərə su səpib, bu dərdi balalarımıza saxlamamağa söz vermişdik. Xalqımızla bir olub qələbə qazandıq. Bu gün buraya Vətən müharibəsindən bir neçə ay sonra dünyaya gələn, şəhid döyüş yoldaşımın adını verdiyim Turan adlı övladımla gəlmişəm. Zəfər seçkisində azad Vətənin azad övladı ilə iştirak edərək bundan sonra dünyaya gələcək övladlarımızın parlaq gələcəyi üçün səs verdik".

***

**Naxçıvan sakinləri bu gün ölkədə keçirilən növbədənkənar prezident seçkilərinin ilkin nəticələrini yüksək əhval-ruhiyyə ilə qarşılayıblar.**

Səslər hesablandıqdan və "exit-poll" nəticələri elan edildikdən dərhal sonra Naxçıvan şəhər sakinləri küçələrə axışıb,



ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin yenidən Prezident seçilməsini musiqi sədaları altında üçrəngli dövlət bayrağımız və səsləndirdikləri şüarlarla böyük sevgi, coşqu ilə qeyd ediblər. Naxçıvan şəhərində keçirilən avtoyürüş Babək məhəlləsindən Heydər Əliyev prospektinə kimi davam edib.

***Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

# Qalib Prezidentin seçki qələbəsinin ümumxalq təntənəsi








**Ölkə ictimaiyyəti Prezident İlham Əliyevin fevralın 7-də keçirilən seçkilərdə inamlı qələbəsini böyük sevinclə qarşılayıb və coşqu ilə qeyd edib.**

Axşam saatlarında paytaxt sakinləri, sənətçilər, ziyalılar və ictimai fəallar sevinc hisslərini paylaşmaq üçün Heydər Əliyev Mərkəzinin parkına toplaşıblar. Nəhəng izdiham bir yerdə şənlənib, yüksək duyğularını birlikdə yaşayıb. Şüar və pransporantlarda xalqımızın öz liderinə sonsuz sevgisi və böyük inamı, onun rəhbərliyi ilə qazanılan qələbələr əks olunub.

Növbədənkənar prezident seçkilərində İlham Əliyevin üstün qələbə xəbəri Zəfər zirvəsi Şuşada, Qayıdış şəhəri Laçında və ölkənin digər şəhər və rayonlarında da coşğu ilə qarşılanıb, şənliklərə çevrilib.

***XQ***

# Qəndab nənə səs vermək üçün məntəqəyə gəldi

**Qəzetimizin ötən saylarında 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 36 saylı Danyeri məntəqəsində səsverməyə ciddi bir həvəslə hazırlaşmış Həbibbəyli Qəndab Məmməd qızı ilə əlaqə saxlayıb kiçik müsahibə almışdıq. Vətənə layiqli övladlar bəxş etmiş, ömrünün son 30 ilinin müstəqillik dövründə düşməsini isə Tanrının ən böyük bəxşişi sayan, yaşı 1 əsri haqlamış Qəndab nənə evində səs verməsinə hazırlıq görülsə də, hamı ilə bir yerdə olmaq üçün – bizə bildirdiyi kimi seçki məntəqəsinə gəldi.**

Bu barədə 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 36 saylı Danyeri məntəqə seçki komissiyasının sədri Həbib Həbibbəyli bildirdi:

– İllərdir ki, seçki marofonunda iştirak edirəm, amma inanın ki, Azərbaycan cəmiyyəti bu boyda seçki fəallığını heç vaxt yaşamayıb. 95 yaşı olan Qəndab nənə seçkiyə qatılmaq həvəsi və təkidi bütün obada xüsusi bir ovqat yaratdı. Onun bu yaşda seçki məntəqəsinə sərbəst getməsi çətin idi, lakin qərarından dönmədi. Xoşbəxtlikdən, hava da xoş oldu, onun bu arzusunu yerinə yetirdik, məntəqəyə gəldi və səs verdi.

**Qəndab nənə isə fəxrlə dedi:**

– Öğul, ötəndəfə də sizə dedim ki, seçkiyə getməyi özümün bir nönrəli borcum hesab etmişəm. Mən dövlətim, qəhrəman və xilaskar xalqım üçün bu gündən sonra nə edə bilərəm?! Mənə seçki barədə sual verənlərə dəfələrlə dediyim bir cavab var, seçkiyə getməyənin fəraridən-doyüşdən qaçan əsgərdən nə fərqi ola bilər?! Əlimdən gələn ən böyük iş səs verməđə iştirak etmək idi, allaha şükürlər olsun ki, havalar yaxşı oldu. Uşaqlar da sağ olsunlar ki, kömək etdilər, məntəqəyə gəlib səs istədiyim, inandığım namizədimə səs verdim.

Qəndab nənənin bu yaşda məntəqəyə gəlib verdiyi səs onun nəzərində əmin-amanlığa, daha xoş günlərə bəslənən ümiddir, onun Vətən sevgisinin səsidir. Doğrudan da, siyasi fəallığı ilə çoxlarına nümunə olan belə müdrik, xoş diləkli insanların ölçülü-biçili mövqeyi həmişə ətrafdakıları ayıq-sayıq və mübariz olmağa səfərbər edib. Heç şübhəsiz ki, Qarabağ savaşında qalib gələn qəhrəman oğullarımız məhz Qəndab nənə kimi el ağbirçəklərindən öyüd alıblar.



Sonda onu da bildirək ki, Qəndab Həbibbəyli AMEA-nın prezidenti İsa Həbibbəylinin anasıdır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Azərbaycanın uğurları bütün Türk dünyasını sevindirir

**Ölkəmizdə keçirilən prezident seçkilərini müşahidəçi kimi izləyən Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım təəssüratını öyünclü coşğu ilə ifadə edib:**

– Qardaş Azərbaycanda prezident seçkiləri ilk dəfə ölkənin bütün ərazilərində keçirilir. Bu, Türkiyə, həmçinin Türk dünyası üçün böyük hadisədir, qürur duyuruq. Azərbaycan xalqı da bunun sevincini və həyəcanını yaşayır. Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfəri və ötən il antiterror tədbirləri ilə işğala son qoyaraq, ərazi bütövlüyünü tam təmin edib. Qardaş ölkənin parlaq uğurları bizi, ümumiyyətlə, bütün Türk dünyasını çox sevindirir.

Türkiyə ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsini qeyd edən Şamil Ayrım əlaqələrimizin Türk dünyası üçün nümunə olduğunu da vurğulayıb: "Azərbaycan nə qədər güclü olarsa, Türkiyə nə qədər güclü olarsa, bu coğrafiyada sülh, hüzur və sabitlik də bir o qədər davamlı olar".

Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasının vacibliyinə toxunan Türkiyə deputatı deyib: "Hazırda əsas məqsəd və məram münasibətlərin normallaşmasıdır. İnanırıq ki, müharibə bitdiyi kimi, sülh də imzalanacaq. Azərbaycanın dövlət siyasəti də qonşularla dinc və yanaşı yaşamağa yönəlib".

Türk dünyasının gələcəyini çox parlaq gördüyünü vurğulayan Şamil Ayrım əlavə edib: "Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra digər ölkələrlə müqayisədə uğurlu və şərəfli yol keçərək böyük uğurlara imza atıb. Azərbaycan Qarabağ müharibəsində Zəfəri ilə Türk dünyasının digər ölkələrinə örnək göstərib. Türkiyə və Azərbaycan qardaşlığı da həmin ölkələrə stimul verir. İnşallah, Özbəkistan, Qazaxıstan, Türkmənistan və digər ölkələr də bizim kimi dostluq münasibətləri qura biləcəklər. Türk dünyası dövlətlərinin heç kəsin torpağında gözü yoxdur, eyni zamanda, digər ölkələrin də öz torpaqlarını işğal etməsinə imkan verməz".



***XQ***

# İlham Əliyevin qələbəsi dünya mediasında

**Dünya mediası fevralı 7-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərini diqqət mərkəzində saxlayıb və hazırkı dövlət başçısı İlham Əliyevin növbəti qələbəsini operativ olaraq geniş işıqlandırıb.**




Türkiyənin "Anadolu" agentliyi işğaldan azad olunmuş ərazilərdə, xüsusən Füzuli şəhərində səsvermənin gedişi, öz evlərinə qayıtmış keçmiş məcburi köçkünlərin seçkilərdə iştirakı barədə yazıb.

"Haber Global" isə yazır ki, 30 il işğal altında olmuş Qarabağda ilk dəfə seçki məntəqələri yaradılıb, bu fakt demokratiyanın təntənəsidir. Həmin ərazilərdə 20 min seçici bu gün həqiqətən də 300 milyon nəfərdən ibarət Türk dünyasının döyünən ürəyidir.

Türkiyənin İHA, "Hürriyet", "Son dakika", "Haberler.com", "Beyaz Gazete", "TRT-Haber" kimi media orqanları da növbədənkənar prezident seçkilərinin ölkənin bütün ərazisində keçirildiyini vurğulayıblar. Bildiriblər ki, dövlət başçısı bir vaxtlar separatçı ermənilərin əsas şəhəri olan, ötən ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri nəticəsində azad edilən Xankəndidə səs verib. Məqalələrdə, həmçinin seçkilərdə həvəslə iştirak edən azad olunmuş ərazilərdəki insanların – qalib ölkə vətəndaşlarının fikirləri yer alıb

Macarıstanın ingilisdilli xəbər portalı "Daily News Hungary", "Origo", "Magyar Nemzet, demokrata" və digər mətbuat orqanları seçkinin nəticələrini izləyərək İlham Əliyevin qələbə xəbərini dərhal yayıblar. Beynəlxalq internet nəşri olan "Breaking News Network Worldwide" isə "Azərbaycanda seçkilərdə yüksək seçici fəallığı: xalq üçün qələbə" sərlövhəsi ilə məqalə dərc edib.

Avropa, ABŞ, həmçinin Yaxın Şərq və Asiyanın, o cümlədən Çin və Pakistanın media orqanları qeyd edirlər ki, seçkilər ilk dəfə Azərbaycanın müasir tarixində ölkənin öz ərazisi üzərində tam nəzarəti əldə etməsi şəraitində keçirilib. Ölkə ərazisinin təxminən 20 faizi 30 il ərzində işğal altında olub.

Rusiyanın TASS, "İzvestiya", RBK, "Vedomosti", "İnterfaks", "Nezavisimaya qazeta", "Komsomolskaya Pravda", "Arqumentı i faktı", "Rossiyskaya qazeta", "Qazeta.ru" media orqanlarında "exit-poll" məlumatlarına əsasən qeyd olunur ki, Prezident İlham Əliyev seçkilərdə 93,9 faiz səslə liderdir.

"Euronews" kanalı "exit-poll" məlumatlarına əsasən yayımlanan təcili xəbərində qeyd edib ki, İlham Əliyev təxminən 94 faiz səs toplayaraq seçkilərdə qalib gəlir, onun Qarabağda nüfuzu isə 100 faizə yaxındır.

Azərbaycandakı prezident seçkiləri Qazaxıstan və Qırğızıstanın "Kazinform", "Zakon.kz", "Veçerniy Bişkek" və digər media orqanlarında da operativ işıqlandırılıb.

***XQ***

# Qarabağda seçkilər Azərbaycanın ərazi bütövlüyünün təntənəsi oldu

### Xankəndi

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 122 saylı Xankəndi seçki dairəsinin Xankəndi şəhərində yaradılmış 14 saylı seçki məntəqəsində seçicilərin ruh yüksəkliyi



və fəallığı ilə davam edib.

İşğaldan azad olunmuş digər ərazilərdə yaradılan seçki məntəqələri kimi, 14 saylı seçki məntəqəsində də qələbəlik hökm sürüb. Ərazidəki seçicilər məntəqəyə gələrək öz namizədlərinə səs veriblər.

Səsvermədə iştirak edən Rəmzi Şakiri deyib: "30 ildən artıq idi ki, Qarabağımızdan ayrı düşmüşdük. Şükür bu günümüzə. Bütün torpaqlarımız azaddır. Mən Xankəndi şəhərində çalışıram. Bu gün böyük fərəh hissi ilə səsvermədə iştirak edirəm. Buna görə özümü xoşbəxt sayıram".

Məntəqədə səsvermə prosesini 15 yerli müşahidəçi izləyib. Onlar səsvermənin yüksək səviyyədə, demokratik



şəraitdə keçirildiyini və heç bir qanun pozuntusuna rast gəlmədiklərini bildiriblər.

112 saylı Xankəndi seçki dairəsinin 1 saylı seçki məntəqəsində səsvermədə iştirak edən Xankəndi sakini Anar Rzayev deyib: "Bu gün Azərbaycan ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Buna görə hər bir qarabağlı kimi, mən də qürur duyuram. Qalib xalqın vətəndaşı kimi səsvermə prosesində iştirak etmək mənim üçün fəxrdir".

### Şuşa

"Bu gün bir şuşalı kimi ikiqat sevinc, qürur hissi keçirirəm. Çünki xəyallarımız gerçəkləşib, Qarabağımıza, Şuşamıza qovuşmuşuq. Çünki prezident seçkiləri ölkəmizin bütün ərazisində ke-




çirilir və mən öz doğma yurdumda səs verirəm".

Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binasında yaradılmış 105 saylı seçki məntəqəsində səs verən Şuşa sakini Elşən İsmayılov daha sonra deyib: "Şuşa şəhərində fəaliyyət göstərən modul tipli xəstəxananın təcili yardım briqadasında işləyirəm. Seçki məntəqəsinə böyük ruh yüksəkliyi ilə gəlib, istədiyim namizədə səs verdim. Məntəqədə səsvermə üçün yaradılan şəraitdən razıyam. Qoy, bu seçki xalqımız və dövlətimiz üçün uğurlu olsun".

### Ağdam

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində 118 saylı seçki dairəsinin 3 məntəqəsində keçirilib.

57 saylı məntəqə Ağdam şəhəri Konfrans mərkəzində, 58 saylı məntəqə "Azərenerji" ASC-nin binasında, 59 saylı məntəqə Kəngərli kəndində təşkil edilib. Məntəqə seçki komissiyasının sədri Arzu Rəhimova bildirib ki, məntəqə üzrə 1414 seçici qeydiyyata alınıb. Seçki məntəqəsində seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb.

Seçicilər səsvermədə fəallıq göstəriblər, məntəqəyə gələrək sərbəst və azad şəkildə öz vətəndaşlıq borclarını yerinə yetiriblər.

Məntəqəyə gələn seçicilərin hər biri səsvermədə böyük ruh yüksəkliyi ilə iştirak etdiyini bildirib. Ağdamda yol tikintisində çalışan Həbib Ağasiyev deyib: "Bu gün iş yoldaşlarımızla birlikdə böyük ruh yüksəkliyi ilə gəlib səsvermədə iştirak etdik. Azad ərazilərdə işləmək, səs vermək olduqca qürurvericidir".

Səsvermənin gedişini izləyən müşahidəçilər Rəhibə Süleymanova və Dürriyə Rəhimova seçkilərin seçicilərin fəallığı ilə, demokratik, şəffaf şəraitdə keçdiyini və heç bir qanun pozuntusuna rast gəlmədiklərini bildiriblər.

### Füzuli

Füzulidə yaradılan 75 saylı seçki məntəqəsində səsvermə hüququ olan bütün seçicilər iştirak ediblər.

İşğaldan azad olunan Füzuli rayonunda növbədənkənar Azərbaycan Prezidenti seçkiləri üzrə səsvermə böyük uğurla keçib. Füzuli şəhərində Mirzə Uluqbəy adına Füzuli şəhər 1 saylı tam orta məktəbdə yaradılan 75 saylı seçki məntəqəsinin sədri Ləman Məstalıyeva bildirib ki, məntəqədə 1 351 nəfər qeydiyyatdan keçib: "Bugünkü seçkilər xalqımızın həyatında çox əlamətdar bir hadisədir. Biz Qarabağ torpaqlarında tarixi bir gün yaşayırıq. Səhər saatlarından başlayaraq seçki prosesinə start verilib. Hazırda da seçki prosesi davam edir. Heç bir qayda pozuntusu qeydə alınmayıb. Seçicilərin üzündə yalnız fərəh və ruh yüksəkliyi dolu bir hissin cizgilərini görürük".

Məntəqə sədrinin sözlərinə görə, 75 saylı məntəqədə səs verən seçicilər əsasən Füzuli şəhəri və rayonun ərazisində quruculuq işləri aparan şirkətlərin əməkdaşlarıdır: "Əminliklə deyə bilərəm ki, məntəqəmizdə seçki prosesi tam şəffaf şəkildə aparılır. Məntəqəmizdə qeydiyyatda olan seçicilərin artıq 900-ə yaxını bu vaxta qədər səsvermədə iştirak edib. Seçki prosesini yerli və beynəlxalq müşahidəçilər izləyir. Məntəqə üzrə qeydiyyatdan keçən seçicilərin səsvermədə 100 faiz iştirakı gözlənilir".

Bildirilib ki, səhhəti ilə əlaqədar məntəqəyə gələ bilməyən seçicilərin səsverməsini təşkil etmək üçün səyyar seçki qutusu ayrılıb

### Ağdərə

Prezident seçkiləri Ağdərə şəhərində də yüksək səviyyədə təşkil edilib.

97 saylı Tərtər-Naftalan-Goranboy seçki dairəsinin Ağdərə şəhərində yaradılmış 59 saylı seçki məntəqəsinin sədri Mahir Səmədov bildirib ki, məntəqədə seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait var. Seçicilər səhər saatlarından başlayaraq məntəqəyə gəlir, sərbəst və azad şəkildə öz vətəndaşlıq borclarını yerinə yetirirlər. Məntəqə üzrə 154 seçici qeydiyyatdan keçib. Seçki prosesini 13 yerli müşahidəçi izləyir.



Tərtər-Naftalan-Goranboy seçki dairəsi üzrə iki seçki məntəqəsi işğaldan azad edilmiş ərazilərdə yerləşir. 58 saylı seçki məntəqəsi Suqovuşan qəsəbə tam orta məktəbində, 59 saylı seçki məntəqəsi isə Ağdərə şəhər mədəniyyət evində yaradılıb.

### Tərtər

Tərtər rayonunda da seçicilərin fəallığı ilə müşahidə olunub. Seçki məntəqələrinə gələ bilməyən yaşlı, fiziki məhdudiyyətli seçicilərin səsvermədə iştirakı üçün daşınan seçki qutuları ünvanlara aparılıb.



Mamırlı kənd sakini 112 yaşlı Süleymanova Zəhra Hətəm qızı, Hacıqərvənd kənd sakini 102 yaşlı Xəlilov İbrahim Heydar oğlu, Ağdərə rayonunun Umudlu kənd sakini 100 yaşlı Abbasquluyeva Atlas Salah qızı və Kəngərli kənd sakini 100 yaşlı Almuradova Fatma Abbas qızı yaşadığı ünvanda səsvermə hüququndan istifadə ediblər.

### Laçın

İşğaldan azad olunmuş Laçın şəhərindəki 105 saylı seçki məntəqəsində seçici fəallığı müşahidə olunub.

Laçın şəhərində, ümumilikdə, 5 seçki məntəqəsi fəaliyyət göstərir. Bunlardan 3-ü şəhərin mərkəzində, digər 2 məntəqə isə Zabux və Qorçu kəndlərindədir. 105 saylı seçki məntəqəsi üzrə 1493 seçici var. Həmçinin məntəqə üzrə 2 nəfər ilk dəfə səs verəcək. Seçki prosesini 12 müşahidəçi izləyib.

Zabux kəndində, 121 saylı Laçın seçki dairəsinin 108 saylı seçki məntəqəsində keçirilən prezident seçkilərində seçici fəallığı müşahidə olunub. Məntəqə sədri Mübariz Rüstəmov bildirib ki, butrada Zabux sakinləri ilə bərabər, ərazidə tikinti-quruculuq işlərində çalışan vətəndaşlar da səs verirlər. Məntəqə üzrə 1494 seçici qeydiyyata alınıb ki, onlardan da 549 nəfəri Zabux sakinidir.

Zabux sakinlərindən ilk dəfə səsvermə hüququna malik olanların sayı 11 nəfərdir. Ən yaşlı seçicisi isə 1934-cü il təvəllüdlü Qasımova Mahı Astan qızıdır.



### Zəngilan

Növbədənkənar prezident seçkiləri Zəngilan rayonunun Ağalı kəndindəki 33 saylı seçki məntəqəsində də seçici fəallığı ilə keçib. Səhər saatlarından başlayaraq kənd sakinləri və ətraf ərazidə çalışan işçilər məntəqəyə üz tutur, səsvermədə yüksək əhvali-ruhiyyədə iştirak ediblər.

125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 33 saylı seçki məntəqəsi Ağalı kəndindəki məktəbdə fəaliyyət göstərir. Səsvermə prosesi mütəşəkkil keçir. QHT nümayəndələri, xarici jurnalistlər prosesi izləyiblər. Məntəqə üzrə 971 seçici qeydə alınıb. Onlardan 603 nəfəri Ağalı kəndi sakinləridir. Kənd üzrə ilk dəfə səs vermədə iştirak edənlərin sayı isə 31 nəfərdir. Ən yaşlı seçici 1933-cü il təvəllüdlüdür.

Zəngilan rayonunda seçkilərin keçirildiyi məntəqələrdən biri də Alıbəyli



kəndi ərazisində yerləşən 61 saylı seçki məntəqəsidir. Seçki məntəqəsinin sədri Gülnaz Mahmudova bildirib ki, məntəqə üzrə, ümumilikdə, 615 seçici qeydə alınıb və seçicilər Zəngilan rayonu ərazisində çalışan işçilərdir. Məntəqədə seçkinin gedişatını izləyən 11 müşahidəçi var.

61 saylı seçki məntəqəsində səs verən Hacıqabul rayon sakini Heybət Rzazadədir. O, ilk dəfə səsvermə hüququndan işğaldan azad olunan ərazilərdə istifadə etdiyi üçün özünü qürurlu sayıb: "Hər bir azərbaycanlı kimi mən də səsvermədə iştirak edirəm. Mənim üçün bu gün çox əlamətdardır. Çünki işimlə əlaqədar olaraq Zəngilandayam və ilk səsvermə hüququmdan da məhz burada istifadə etdim. Bizlərə belə tarixi anları yaşadan şəhidlərimizə rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram".

Səsvermə prosesini QHT nümayəndələri, xarici jurnalistlər prosesi izləyiblər. Məntəqə üzrə 971 seçici qeydə alınıb. Onlardan 603 nəfəri Ağalı kəndi sakinləridir. Kənd üzrə ilk dəfə səs verməmdə iştirak edənlərin sayı isə 31 nəfərdir. Ən yaşlı seçici 1933-cü il təvəllüdlüdür.

Zəngilanın Alıbəyli kəndində seçkinin gedişatını 11 müşahidəçi izləyir

### Suqovuşan

Suqovuşan qəsəbəsində yaradılan 97 saylı Tərtər–Naftalan–Goranboy seçki dairəsinin 58 saylı seçki məntəqəsində də səsvermə fəal keçib.



Bu məntəqəyə həm Talış kəndinin sakinləri, həm də Suqovuşan qəsəbəsində tikintidə çalışanlar gələrək 30 ildən sonra işğaldan azad olunan ərazilərdə keçiriləcək seçkilərdə böyük qürur və sevinc hissi ilə səs veriblər.

58 saylı seçki məntəqəsinin sədri Tural Əzizov bildirib ki, soydaşlarımız 30 ildən sonra işğaldan azad edilən Suqovuşanda keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində böyük ruh yüksəkliyi və qürur hissi ilə iştirak edirlər: "Məntəqəmizdə səsvermə artıq başlayıb. Seçici fəallığı müşahidə olunur. Məntəqəmizdə Talış kənd sakinləri ilə yanaşı, Suqovuşan qəsəbəsində həyata keçirilən tikinti işlərində çalışanlar da səs verəcəklər".

Suqovuşanda aparılan tikinti-quruculuq işlərində çalışan seçici Vidadi Həsənov böyük qürur və fəxarət hissi ilə səs verəcəyini deyib: "Bu seçkilər bizim üçün bir bayramdır. Ərazi bütövlüyü təmin olunan Azərbaycanda ilk dəfə seçkilər keçirilir. Hər birimiz borcudur ki, bu seçkilərdə iştirak edək, öz namizədimizə səs verək. Hər kəsi seçkilərdə fəal iştirak etməyə çağırıram".

***Səhifəni "Xalq qəzeti"nin və AZƏRTAC-ın materialları əsasında Tahir RÜSTƏMLİ hazırlayıb.***

# Bölgələrdə səsvermə yüksək fəallıqla keçdi



## GƏNCƏ

Növbədənkənar prezident seçkiləri günündən bir gün qabaq da şəhərdəki seçki məntəqələrinə baş çəkmişdik. Yerlərdə olan səliqə-səhman, hər xırda detalların belə, dönə-dönə yoxlanılması, məntəqə seçki komissiyaları üzvlərinin hazırlığı diqqətimizi cəlb etmişdi. Əvvəldən hiss olunurdu ki, şəhərdə bu seçkilər çox böyük mütəşəkkiliklə keçiriləcəkdir. Belə də oldu...

Fevralın 7-si səhər saat 8-in yarısıdır. Şəhərdə hara baxırsan adamlarla qarşılaşırsan. Hərə öz məntəqəsinə tələsir. Bir azdan seçki məntəqələrinin qarşısında növbələr yaranır. Hamı səbirsizliklə qapıların açılmasını gözləyir.

Mərkəzi kitabxana binasında yerləşən seçki məntəqəsinə daxil oluruq. Əməlli-başlı qələbəlikdir. Məntəqənin sədri bildirir ki, xarici müşahidəçilər də öz heyranlıqlarını gizlədə bilmirdilər və açıqça deyirdilər ki, biz hələ heç harda seçkiyə bu qədər maraq göstərilməsinin şahidi olmamışıq.

92 yaşlı seçici Fərrux Abdulayevlə ayaqüstü söhbət edirəm. Yanında dayanan həyat yoldaşı Valentina Abdullayevanı göstərərək "bayaqdan deyirəm bu məntəqədə ən yaşlı seçici mənəm, inanmır". Çox seçkilərdə iştirak etmişəm, belə mütəşəkkillik heç vaxt görməmişəm" deyir.

**Şəhərdəki 38 saylı məktəbdə təşkil olunan məntəqədə də xeyli seçici var. Məntəqə seçki komissiyasının üzvü Xumar Zeynalova səsvermənin gedişi haqqında məlumat verir:**

–Artıq saat 3-ə kimi 805 nəfər seçicimiz səs verib. ATƏT-dən gələn müşahidəçilər Zauqin Kimberli, Eqan Brayn saat 2-nin yarısında burada idilər. Özləri də seçkinin necə şəffaflıqla keçirildiyinin şahidi oldular.

Məntəqənin sədri Yeganə Məmmədova bildirdi ki, 1393 seçicimiz var. Onların 90 faizindən çoxunun gəlib səs verəcəyinə inanıram.

... "Gəncə-Dəyirman" ASC-nin inzibati binasında yerləşən 40 saylı Dairə Seçki Komissiyasının 27 saylı məntəqəsində olan gözəl abu-hava, seçki əhval ruhiyyəsi diqqətimizi cəlb etdi. Seçicilər növbə ilə bülleten götürür, kabinələrə keçir və həvəslə səs verirdilər.

Qeyd edək ki, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov da seçkilərdə iştirak edib. Şəhər rəhbəri 40 saylı Gəncə üçüncü seçki dairəsinin 11 saylı seçki məntəqəsində səs verib.

Bütövlükdə isə Gəncə şəhəri üzrə 4 Dairə Seçki Komissiyası yaradılıb ki, bunlardan 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələridir.

Dünən şəhər üzrə 133 seçki məntəqəsi fəaliyyət göstərmiş, səsvermə hüququ olan vətəndaşların sayı isə 180 min 582 nəfər olmuşdur. Şəhərin bütün məntəqələrində yüksək seçici fəallığı var idi.

Səsvermə saat 19:00-da başa çatmış və məlum olmuşdur ki, 38 saylı Gəncə I seçki dairəsində 74,8 faiz, 39 saylı Gəncə II seçki dairəsində 75,64 faiz, 40 saylı Gəncə III seçki dairəsində 74,35 faiz, 41 saylı Gəncə–Samux–Goranboy seçki dairəsində 75,32 faiz seçici iştirak etmişdir.



## GÖYGÖL

– Göygöldə seçicilərin fəallığı həm doğma Qarabağımızın yağı düşməndən tamamilə azad edilməsi, həm də son vaxtlar bu rayonda aparılan geniş abadlıq-quruculuq işləri ilə bağlıdır. Dövlət başçımızın Göygöl rayonuna göstərdiyi diqqət və qayğı hər bir sakinin ürəyindən xəbər verir…

Bu sözləri Yeni Qızılca kəndinin sakini Çingiz Vəliyev dedi.

100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsinin 51 saylı seçki məntəqəsində səs verən 90 yaşlı Daşdəmir Məmmədov da ölkəmizdə, eləcə də rayonda aparılan geniş miqyaslı quruculuq işlərindən razı qaldığını bildirdi.

…Qutular açılarkən məlum oldu ki, Göygöl–Daşkəsən–Kəlbəcər seçki dairəsində 75,11 faiz seçici iştirak etmişdir.



## SAMUX

Samux rayonunda seçki prosesi əvvəlki seçkilərdən həm də ona görə seçilirdi ki, insanlar səhər tezdən məntəqələrə



axışmışdılar. Yaşlı insanlar söyləyirdi ki, əvvəllər heç vaxt bu cür qələbəlik görməyiblər.

"Yeni Samux" qəzetinin redaktoru Azər Əhmədov məlumat verdi ki, indicə 1saylı məktəb-litseydəki seçki məntəqəsindən gəlirəm və hələ də orada gördüklərimin təəssüratı altındayam. Dedi ki, seçicilərin belə fəallığı adamda qürur hissi oyadırdı. Buradakı 1 saylı məntəqədə 1299 seçici qeydiyyatdadır. İlk səs verən isə Gəncə Dövlət Universitetinin 18 yaşlı tələbəsi Ayşən Məmmədova olub. Jurnalist həmkarımız onu da bildirdi ki, 5 saylı məntəqədə səs verən Səfərova Ziynət Yaqub qızının seçki günü 100 yaşının tamam olması da böyük bir hadisə kimi qarşılandı və keçmiş ibtidai sinif müəllimini evində gül-çiçək dəstələri ilə təbrik etdilər.

## GƏDƏBƏY

103 saylı Gədəbəy seçki dairəsinin sədri Xaliq Xudaverdiyev səhər saat 8 radələrində özünün facebook səhifəsinə bir neçə şəkil yerləşdirərək yazırdı: "Xalq seçim üçün məntəqələrə axışır. Budur Gədəbəylilər! Xalq öz liderini seçir. Birinci və ikinci Qarabağ müharibəsində qəhrəmanlıq nümayiş etdirən əziz həmvətənlərimə eşq olsun! Yaşasın Azərbaycan!"

Bir azdan komissiyanın sədri ilə əlaqə saxlayırıq. Deyir ki, sevincimin həddi-hüdudu yoxdur. Təvəzökarlıqdan uzaq olsa da fəxrlə bildirmək istəyirəm ki, dairəmizin 20 saylı məntəqəsində ilk səs vermək mənə qismət oldu və bununla qürur duyuram.

Öyrənirik ki, digər bir məntəqədə ilk dəfə səs verən Şəfa Abdullayevanın isə həmin gün18 yaşı tamam olmuşdur və bu münasibətlə ona Mərkəzi Seçki Komissiyasının hazırladığı xüsusi vəsiqə təntənə ilə təqdim olunmuşdur.

Sədr məlumat verdi ki, saat 3-ə kimi seçicilərin 28 min 77 nəfəri məntəqələrə gələrək öz vətəndaşlıq borcunu yerinə yetirib.

Onu da öyrəndik ki, Gədəbəyin 9 məntəqəsində veb kameralar quraşdırılıb. Bir neçə xarici müşahidəçi, o cümlədən, Viktor Sazanov, Rimbu Helena və başqaları seçki prosesini izləyiblər. Bütövlükdə isə rayonun seçki məntəqələrində 650 müşahidəçi olub.

## QAZAX

Saat 15 radələrində Qazax 109 saylı seçki dairəsini sədri xəyyam Salehovla əlaqə saxladıq.Mməlumat verdi ki, rayonda seçki günü 41 məntəqə fəaliyyət göstərib. Artıq 48 min 296 seçicidən 34 min 203 nəfər öz Konstitusiya hüququndan istifadə edərək səs verib.

Sədr dedi ki, Kəmərli kənd sakini, 117 yaşlı Səyalı Nəbiyevanın bu gün səs verməsi rayonda böyük əks-səda yaradıb. Bütövlükdə isə Qazaxda çox böyük seçici fəallığı açıq-aşkar hiss olunur.

Kəmərli kənd icra nümayəndəsi Səməd Orucov da dedi ki, bu gün ən çox axın seçki məntəqələrinə, bir də Səyalı nənənin evinədir. Onu hamı görmək, təbrik etmək istəyir. Kənddə iki məntəqə fəaliyyət göstərib. 39 saylı məntəqədə 1036 seçicidən ən yaşlısı Səyalı Nəbiyeva olub.

## SUMQAYIT

...Sübh tezdən, yaşadığımız ərazidəki 42 saylı 1-ci seçki dairəsinin məntəqələri açılan kimi burada növbədənkənar prezident seçkilərində ilk səs verənlərin sırasında bizim ailənin də 4 üzvü oldu. Sonra prosedurlardan keçərək, bülletenlərini seçki qutularına atan qonşularımızla görüşüb söhbət etdik. Hər kəs müstəqil Azərbaycanın suverenliyinin təntənəsinə qürurla səs verdiyini söylədi.

vətəndaş kimi ilk dəfədir ki, seçki hüququndan istifadə elədi. Bu günə bütün ailəmizlə fərəhlənirik.

Oradan məntəqələrimizin aid olduğu 42 saylı 1-ci seçki dairəsinə yollandıq. Komissiya sədri Ruslan Hacıyev, üzv Aydın Məlikov və müşahidəçilərlə görüşdük. Öyrəndik ki, 41 məntəqəni əhatə edən bu dairədə səsvermə hüququ olan 50 min 122 vətəndaş, həmçinin 417 müşahidəçi qeydiyyata alınıb. Dairədə seçkilərə hər cür zəruri hazırlıq görülməsini



xətircəmliyi yaşanır. Seçicilərdən 25 nəfəri səhhəti ilə əlaqədar olaraq öz iradəsini səsvermə otağından kənarda – evlərinə aparılacaq səyyar qutular vasitəsilə ifadə edəcək. Dairənin 7 məntəqəsində veb-kameralar quraşdırılıb. Çaxsaylı müşahidəçilər qeydiyyatdan keçib.

Elə orada MDB Parlamentlərarası Assambleyasını təmsil edən müşahidəçilərlə həmsöhbət olduq. Onlar soydaşımız – Leninqrad vilayəti Qanunverici Məclisinin vitse-spikeri Sayad Əliyev və Sankt-Peterburq şəhərindən deputat Sergey Qolovanov idi. Səhər tezdən 23-cü seçki məntəqəsində olduqlarını, açılışın və ilk səsvermələrin sırf qanun-qayda çərçivəsində aparıldığını bildirdilər.

**Sergey Qolovanov, MDB müşahidə missiyasının üzvü:**

– Bundan əvvəl 2020-ci ildə Azərbaycanda parlament seçkilərində ilə iştirak etmişəm. O seçkilər də məndə xoş təəssürat yaratmışdı. Bu gün isə daha çox adam seçkilərə qatılıb. Hamı deyir ki, bu, ərazi bütövlüyümüz tam təmin olunandan sonra keçirilən ilk seçki olduğu üçün belə fəalıq. Müşahidələrim göstərir ki, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə reallaşdırılır. Mən, həqiqətən də, sizin xalqınızın vətənpərvərliyinə heyranam.

Eyni binada yaşadığımız gözəl qonşumuz, tanınmış şair Əşrəf Veysəlli də oğlu Şahin Şəfiyevlə birlikdə gəlib çıxdı. Uzun illər Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Komitəsinin Sumqayıt şəhər təşkilatının sədri olmuş 86 yaşlı dəyərli ziyalımız bizə xeyli gümrah təsir bağışlayırdı.

**Prezidentin fərdi təqaüdçüsü, Əməkdar mədəniyyət işçisi Əşrəf Veysəlli səs verdikdən sonra ürək sözlərini bizimlə bölüşdü:**

– Ömrümdə, çox səsvermələrdə iştirak etmişəm. İnanın ki, hələ bu seçkilərdə iştirakımdan sevindiyim qədər heç vaxt sevinməmişəm. Bilirsiniz ki, mən əslən Füzuli rayonundanam və 30 il idi ki, dədə-baba yurdlarımız yağı tapdağında idi. 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur, o cümlədən də Füzuli işğaldan təmizləndi. Ötən ilin sentyabrında isə lokal antiterror tədbirləri sayəsində bütün suveren ərazilərimizə sahibləndik. Bu seçkilərdə bütövləşən Azərbaycanın tamhüquqlu vətəndaşı kimi seçimimi sonsuz qürurla elədim. Bundan böyük xoşbəxtlik olmaz.

Əşrəf müəllim qonşu binamızın sakini–





Vətən müharibəsi qazisi olan "Qarabağ" ordenli polkovnik-leytenant Ehtiram Məmmədovu görən kimi dedi ki, budur, bizim kəndlərimizi qarı düşmənin işğalından azad edən igid də gəldi. Müharibədə yurd yerlərimizə onun da qanı axıb.

Seçki məntəqəsinə 69 yaşlı anası Hürzad xanım və ilk dəfə səs verən tələbə oğlu Təhməzlə gələn qazi qardaşımızın şərəfli döyüş yolunu ötən il işıqlandırmışdım. Bilirdim ki, "N" saylı hərbi hissədə briqada komandirinin müavini olub. Alxanlı–Füzuli istiqamətlərində döyüşlərə atılıb. Orada Azərbaycan Milli Ordusunun ilk əks-hücum əməliyyatları zamanı başından qəlpə yarası alıb, elə həmin yerdə ona tibbi yardım göstərilib. Tezliklə yenidən döyüşlərə qatılıb, Füzuli rayonunun Mahmudlu kəndinə qədər torpaqların düşməndən təmizlənməsində iştirak edib. Füzuli şəhəri alındıqdan sonra Ehtiram Məmmədov iki taborla digər kəndlər uğrunda döyüşlərdə hünər göstərib. Daha sonra Daşaltı–Şuşa istiqamətində gedən döyüşlərə qatılıb. Daşaltı kəndi işğaldan azad edilən zaman düşmən snayperinə tuş gələrək yaralanıb.

**Böyük Zəfərlə bitən müharibədən sonra "Qarabağ" ordeni ilə bərabər, Füzulinin, Şuşanın və Xocavəndin azad olunmasına görə medallarla təltif edilən, hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində çalışan Ehtiram Məmmədovun dedikləri:**

– Hazırda ehtiyatda olan zabitəm. Vətən müharibəsindən sonra dövlət tərəfindən Sumqayıtda üçotaqlı mənzillə təmin edilmişəm. Sumqayıt şəhərinin və Qubadlı rayonunun icra hakimiyyətləri də məni hər zaman diqqətdə saxlayır, problemlərimlə, qayğılarımla maraqlanırlar. "YAŞAT" Fondu da mənim maddi və mənəvi yardımçımdır. Fond tərəfindən bütün xərclərim qarşılanmaqla Türkiyəyə bir həftəlik istirahətə göndərilmişəm. Sağ olsunlar, bütün müraciətlərimə operativ baxır və əllərindən gələni edirlər. Siz deyin, belə olduğu halda mən böyük siyasi hadisə olan bu seçkilərdən kənarda qala bilərdimmi? Əsla yox. Bir də ona sevinirəm ki, UNEC-in tələbəsi olan oğlum da artıq yaşı çatan bir

Qeyd edək ki, Sumqayıtda daha 5 seçki dairəsi fəaliyyət göstərir. Bunlar 43 saylı 2-ci, 44 saylı 3-cü, 45 saylı 4-cü, 46 saylı 5-ci və 47 saylı Sumqayıt–Abşeron–Qaradağ seçki dairələridir.

**Sumqayıt Dövlət Dram Teatrının binasında yerləşən 45 saylı 4-cü seçki dairəsində seçkilərin gedişatı ilə maraqlandıq. Dairə seçki komissiyasının sədri Məhəbbət Məmmədova məlumatında bildirdi:**

– Dairəmizə daxil olan 39 seçki məntəqəsinin 6-da veb-kamera quraşdırılıb, ümumi sayı 51 min 458 nəfər olan seçici kontingenti üçün sərbəst səsməkdən ötrü bütün zəruri şərait yaradılıb. 30 seçicinin müraciətinə əsasən onların evdə səs vermələri təmin ediləcək. İlk dəfə səs verənlərimizin sayı isə 1503 nəfərdir ki, hər birini ayrıca təbrik edəcəyik. Dairəyə gələn və öz istəkləri ilə seçdikləri məntəqələrdə səsverməni izləyən xarici müşahidəçilər heç bir pozuntu halı ilə rastlaşmadıqlarını söyləyiblər. Bu fikri yarım saat əvvəl burada olan ABŞ-dan gəlmiş müşahidəçi Aske Norbi Bondanın və danimarkalı Marşa Velnermanın dediklərinə əsaslanaraq deyirəm. Özünüz də istədiyiniz məntəqəyə gedib baxa bilərsiniz.



**Sözügedən dairənin 1 saylı seçki məntəqəsində qələbəliyin şahidi olduq. Komissiya sədri Vidadi Məmmədov səsvermənin gedişatı barədə məlumat verərək dedi:**

– Bizim məntəqədə 1487 seçicinin səs verməsi nəzərdə tutulub. Səhərdən yüksək seçici fəallığı müşahidə olunur. Saat 12-yə qədər artıq 585 nəfər səs verib ki, bu da ümumi sayın 39, 34 faizi qədərdir.

Gün ərzində Sumqayıt seçicilərinin yüksək siyasi fəallığı və dövlətimiz, xalqımız üçün daha xoş gələcək arzuladıqları müşahidə olunurdu.

*Səhifəni hazırladılar:*
***Əli NƏCƏFXANLI,***
***Hamlet QASIMOV,***
***XQ***

# 95 yaşlı seçici

**Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində 78 saylı Lənkəran kənd seçki dairəsinin 47 saylı seçki məntəqəsində də yüksək seçici fəallığı qeydə alınıb. Rayonun Bəliton kəndinin ən uzunömürlü sakini, 95 yaşlı Hüseyn Ağayev də bu məntəqədə səs verib.**

Ağsaqqal daşınan qutuya ehtiyacı olmadığını bildirərək məntəqəyə birincilər sırasında gəlib öz seçimini edib. Suverenliyini tam bərpa etmiş, qalib Azərbaycanın yaşlı sakini kimi seçkilərdə iştirak etməkdən qürur duyduğunu deyən Hüseyn Ağayev gələcək nəsillərin, o cümlədən, nəvə-nəticə və kötücələrinin xoşbəxt gələcəyinə səs verdiyini bildirib.

Canın sağlam, arzuların çin olsun, Hüseyn baba!



# Bölgələrdə səsvermə yüksək fəallıqla keçdi

## Mingəçevir

Mingəçevirdə sonuncu dəfə nə vaxt olmusunuz? Mən xidməti işimlə əlaqədar tez-tez gedirəm. "Nur şəhəri"nin siması, demək olar ki, hər gün dəyişir, hər dəfə bir yeniliyin şahidi olursan. Təkcə son illər iri istehsal müəssisələri, məcburi köçkünlər üçün qəsəbələr, şəhid ailələri və Qarabağ əlillərinə yaşayış binaları, Heydər Əliyev mərkəzi, Gənclər evi tikilib, ona yaxın park salınıb. Görülən işlər çoxdur, lap çox.

**53 saylı Yevlax – Mingəçevir seçki dairəsinin sədri İsrafil Bəkirovun dediyi kimi,** müşahidəçilər prezident seçkilərinə, bax belə bir əhval-ruhiyyə ilə qatılıblar.

İsrafil müəllim onu da bildirdi ki, 52 min 295 nəfər seçicinin səs verdiyi 54 məntəqədə 7 veb-kamera quraşdırılıb. Yaxınlaşıb istədiyiniz müşahidəçidən soruşa bilərsiniz. Heç bir qanun pozuntusu qeydə alınmayıb. Seçicilər fəallıq göstərirlər. Onların istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılıb.

37 saylı məntəqədə iki övladını eyni gündə itirmiş Sevinc Əhmədovanı görürəm. Hamı başına toplaşıb. **"Şəhid anasına olan ehtiramı görürsünüzmü? – deyə məntəqənin sədri Tünzalə Məmmədova bildirir.**

Sevinc Əhmədovanın evində bir dəfə olmuşam. Canlı muzey yaradıb. Talış və Suqovuşanda qəhrəmancasına həlak olmuş oğlanları Əli və İslamın ən xırda əşyasına qədər qoruyur. Bu dünyada qısa bir ömür yaşayan şəhidlərin şəkilləri, paltarları, hər şeyi əziz bir yadigar kimi saxlanılır. Bir dəfə demişəm. Bir də yazıram. "Niyə tək qalırsınız?" sualına Sevinc xanım belə cavab vermişdi: "Özüm istəmirəm.Yanımda kimsə olsa, balalarımla rahat söhbət eləyə bilmərəm".



## Şəki

Heyran Aslanovanın 18 yaşı var. İlk dəfə səs verməyə gəlib. "Sevincimin həddi-hüdudu yoxdur, – deyir. Fəxr edirəm ki, ilk dəfə məntəqəyə gəlib, növbədənkənar Prezident seçkilərində istədiyim namizədə səs verəcəm. Bunun üçün hər cür şərait yaradılıb".

Heyranın atası Sahib Aslanov hərbçidir. İndi pensiyaya çıxıb. Ailəliklə səsverməyə gəliblər.

114 saylı Şəki şəhər seçki dairəsinin 43 saylı məntəqəsinin sədri Şaiq Hüseynov bildirir ki, indiyə qədər belə fəallıq olmayıb. Hamı həvəslə seçki məntəqəsinə gəlir. Saat 12-dir. Artıq 1463 nəfər seçicidən 60 faizi seçkilərdə iştirak edib.

Eyni sözləri dairə seçki komissiyasının sədri Kamran Rəsulov da dedi. Bildirdi ki, 18 məntəqədə veb-kameralar quraşdırılıb. Fəallıq açıq-aşkar hiss olunur. Seçkinin gedişini 593 müşahidəçi izləyir. Hər şey aydın, hər şey şəffaf. Bir dəfə də olsun dairəyə hər hansı neqativ halla bağlı müraciət daxil olmayıb.

## Balakən

...Diqqətli oxucunun bəlkə də yadındadır. Təxminən, bir il əvvəl Balakəndə İqor Perekrestovla görüşüb onun haqqında yazı hazırlamışdım. İqor Pavloviç 1926-cı ildə dünyaya gəlib. Krasnodarda doğulub. Fevralın 1-də 98 yaşı tamam olub. Bölgədə sağ qalan yeganə müharibə veteranıdır. Əvvəllər bütün tədbirlərə dəvət edərdilər, söz verərdilər. Xatirələrini danışardı. Son illər isə səhhətində problemlər yaranıb. Heç hara gedə bilmir, ayaqları sözünə baxmır. Amma diqqətdən kənarda qoymurlar. Rayon rəhbərliyi tez-tez gəlib baş çəkir, qayğıları ilə maraqlanır.



**110 saylı Balakən seçki dairəsinin 2 saylı məntəqəsinin sədri Elmira Tahirova bildirir ki,** İqor Pavloviçin evinə səsvermə qutusu aparılıb. Müharibənin od-alovundan keçmiş ağsaqqal layiq bildiyi namizədə səs verib.

**Seçki dairəsinin sədri Vahid Əliyevlə əlaqə saxladıq.** Bildirdi ki, seçki prosesində heç kəs kənarda qalmayıb. Hamıya bildiriş göndərilib. Məntəqələrlə daim əlaqə saxlayırıq. Fəallıq yüksəkdir. Heç bir müdaxilədən söhbət gedə bilməz.

44 məntəqənin 8-də veb-kamera quraşdırılıb. Seçkinin gedişini ATƏT-in və MDB-nin müşahidəçiləri izləyir.

Qanun pozuntusunun olması barədə məlumat daxil olmayıb. Seçicilər sərbəst şəkildə öz fikirlərini ifadə ediblər.

Axşama yaxın Vahid Əliyevə zəng vurduq. Cavabı konkret oldu. Seçicilərin 77,4 faizi seçkilərdə iştirak edib.

## İsmayıllı

...Anastasiya Kazakovanın bu il iyul ayının 7-də 100 yaşı tamam olacaq. Amma deyir ki, sənədində doğulduğu ayı səhv yazıblar. Əslində, o, yanvarın 7-də dünyaya gəlib. Odur ki, keçən ay qızları, oğlu, nəvələri yığışıb Anastasiya Qriqoryevnanın 100 illiyini qeyd ediblər.



Bilsəydim, mən də gedərdim. Amma eybi yoxdur, iyul ayında İvanovkada onun ad gününü bir də qeyd edərik. Sağlıq olsun!

Bu gün isə 100 yaşlı Nastya nənə İsmayıllının İvanovka kəndində yerləşən 26 saylı məntəqəyə gəlib. Gəlib ki, prezident seçkilərində iştirak etsin, istədiyi namizədə səs versin.

**Məntəqənin sədr müavini Svetlana Sqokova bildirir ki,** açığı, təklif etdik ki, əziyyət çəkməsin, səsvermə qutusunu evlərinə göndərək. Etiraz etdi. "Yox, – dedi. – Ailəliklə gəlib səs verəcəyik".

Budur, gəliblər. Görüşürük. Məni görən kimi tanıyır. Keçən il evlərində qonaq olmuşam, çayını içmişəm. Ayrılanda özünün toxuduğu yun corabı mənə hədiyyə verib: "Qışda geyinərsən, qoy ayaqların isti olsun", – deyib.

Bülleteni götürüb səsvermə qutusuna yaxınlaşır. "Kimə səs verəcəksiniz" – deyə soruşuram.

Cavabı kəsə olur: "Balalarımızın, nəvələrimizin xoşbəxt gələcəyinə".

**89 saylı İsmayıllı seçki dairəsinin sədri Əlirəmzi Məhərrəmovla** söhbət zamanı məlum oldu ki, 100 yaşını keçmiş daha dörd nəfər seçici var ki, onların evlərinə səsvermə qutusu göndərilib. 106 yaşlı Səltənət Hacıyeva, 1920-ci ildə anadan olmuş Yasəmən Rəhimova Quşencədə doğulub, 101 yaşını haqlayan Mənsurə Əliyeva və bir əsr ömür sürmüş Sara İbrahimova övladlarının, nəvə-nəticələrinin əhatəsində səs verəcəklər.

61 məntəqədə 6 veb-kamera quraşdırılıb. Seçkinin gedişini 799 nəfər müşahidəçi izləyir. 2230 nəfər isə ilk dəfə səs verəcək.

## Qax

Hər dəfə Qaxdan nəsə yazanda istər-istəməz buranın başı qarlı dağları, zümrüd meşələri gəlib gözümün önündə dayanır. Burada yaşayan insanlara bir az da həsədlə baxırsan. Təəccüblənməyin. Qaxın gözəlliyindən inanın ki, doymaq olmur ki, olmur. Tələbə yoldaşım, rayonda çıxan **"Şəlalə" qəzetinin baş redaktoru Xavər Əfəndiyeva zəng vurub:** "Seçki məntəqəsindəyəm, – deyir. – Ömür-gün yoldaşım Qabillə birlikdə səsverməyə gəlmişəm. Rayonda əsl bayram əhval-ruhiyyəsi var. Hamı seçki məntəqəsinə tələsir".

**113 saylı Qax–Şəki seçki dairəsinin sədri Abdulkərim Əliyevlə** əlaqə saxlayıram. Sevinclə deyir ki, Şəkinin Baş Layski kəndindəki 66 saylı məntəqədə bu gün 18 yaşı tamam olan Təmraz Xəlilovun ad günü qeyd olunur. O, həm də ilk dəfə səs verəcək. Əməlli-başlı qələbəlik var. Hamı ora yığışıb. Təəssüf edirəm ki, mən gedə bilmirəm...

Qax rayonunda seçkiləri 920 müşahidəçi izləyib. 10 məntəqədə veb-kamera quraşdırılıb.

Günün sonunda dairə sədri ilə əlaqə saxladıq. Söylədi ki, seçicilərin 77,3 faizi səsvermədə iştirak edib.

## Lənkəran

Dünən "Cənub mirvarisi"ndə, sözün əsl mənasında, bayram ab-havası duyulurdu. Səhər saatlarından başlayaraq, şəhərdə, eləcə də rayonun qəsəbə və kəndlərində bir qələbəlik, coşqu hökm sürürdü. İnsanlar dəstə-dəstə seçki məntəqələrinə axışırdı.

Qeyd edək ki, 76 saylı Lənkəran–Masallı Seçki Dairəsi üzrə 42 min 431 seçici qeydə alınmışdı. Onlar 38 məntəqədə səs verirdilər. Seçicilərin 3 min 239 nəfəri ilk dəfə səs verən gənclər, 1 nəfəri isə 100 yaşdan yuxarı insan idi. Bütün məntəqələrdə tibbi xidmət üçün yerlər ayrılmışdı. 1, 15, 18 və 27 saylı məntəqələrdə isə veb-kameralar quraşdırılmışdı. Məntəqələr digər təchizat vasitələri ilə yanaşı, seçicilərin müraciətinə əsasən, daşınan qutularla da təmin olunmuşdu.

Rayonun Xarxatan kənd sakini, 104 yaşlı Qızvəs Səmid qızı Mehtiyeva seçki dairəsinin 29 saylı məntəqəsində səs verib. Qeyd edək ki, 104 yaşlı Qızvəs Mehtiyevanın 7 övladı, 27 nəvəsi, 45 nəticəsi və 12 kötükcəsi var. Bütün balalarının, bütün xalqın daha xoşbəxt gələcəyini istədiyini dedi.



Bu dairə üzrə seçkilər 20 Yanvar şəhidi Asif Əsədullayevin adını daşıyan Şağlaser kənd orta məktəbinin binasında yaradılmış 26 saylı seçki məntəqəsində də fəal keçib. Burada səsvermə prosesi tam qayda-qanuna uyğun aparılıb.

**Məntəqə seçki komissiyasının sədri Ayıq Əliyev dedi:**

– Seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb, məntəqə lazımi avadanlıqlarla təmin olunub. Burada 1465 nəfər seçici var ki, onlardan da 7 nəfəri ilk dəfə ölkə başçısının seçilməsində iştirak edir. Məntəqə üzvləri sırasında Yeni Azərbaycan Partiyasının, Böyük Quruluş Partiyasının və Bütöv Azərbaycan Xalq Cəbhəsinin təmsilçiləri yer alıb.

Prezidentliyə namizəd Zahid Orucun müşahidəçisi Əflatun Dadaşov bildirdi ki, ölkəmizin hər yerində olduğu kimi, Lənkəran rayonunda da sağlam mənəvi-psixoloji mühit yaradılıb.

– Ona görə də çox nikbinik. Sabaha böyük ümidlərlə baxırıq. Zəfər seçkilərində hər kəs qəlbinin hökmü ilə istədiyi namizədə səs verir. Məntəqədə müşahidə apardığım müddətdə bütün işlərin Seçki Məcəlləsinə uyğun qurulduğunun bir daha şahidi oldum.

**Gənc seçici 19 yaşlı Lalə Ağazadə:**

– Lənkəran Dövlət Universiteti nəzdində sosial-aqrar texnoloji kollecin 2-ci kurs tələbəsiyəm. İlk dəfədir ki, seçici hüququndan istifadə edirəm. Mənim üçün bu prosesi görmək çox maraqlıdır. Bir gənc olaraq düşünürəm ki, daha yaxşı gələcəkdə yaşamaq bizim də haqqımızdır. Ona görə də inkişafın davamlı və daimi olmasına səs verdim.

Sonra yolumuzu 77 saylı Lənkəran şəhər seçki dairəsinin 2 saylı məntəqəsindən saldıq. Burada da qələbəlik idi. Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin atası Hacı Ələkbər Əliyev ürək sözlərini belə ifadə etdi:

– İnsanların seçkilərdə öz vətəndaşlıq borclarını yerinə yetirmələri məni valeh edir. Seçicilər fəaldırlar. Belə də olmalıdır. Çünki bu seçkilərlə onlar dövlətin və xalqın gələcəyinə səs verirlər. Azərbaycan bizim Vətənimizdir və xoşbəxt sabahımız üçün namizədlərin ən layiqlisinə səs verməklə özümüzə dövlət başçısı seçmək müstəsna hüququmuzdur. Vətənini və xalqını sevən hər bir vətəndaş ölkəsinin taleyinə və mənafeyinə heç vaxt laqeyd qala bilməz.



**Müstəqil müşahidəçi Əlimərdan Əliyev də söhbətə qoşuldu:**

– Müşahidəçilər üçün hər cür şərait yaradılması sevindiricidir. Mən burada olduğum müddətdə məntəqədə heç bir qanun pozuntusuna rast gəlmədim. Seçicilər sərbəst şəkildə istədikləri namizədə səs verirlər. ATƏT nümayəndələri də Lənkəranda apardıqları müşahidələrdən razılıq ediblər. Onlar 37 saylı seçki məntəqəsində müşahidə aparıblar.

**Bu seçki dairəsinin seçicisi Ümbulbani Hüseynovanın evinə yaşlı, xəstə və əlilliyi olan şəxslər üçün ayrılmış daşınan seçki qutusu aparılıb. O, şəhid Ehtiram Hüseynovun anasıdır. Ümbulbani ananın dedikləri:**

– Hər birinizə təşəkkür edirəm. Mənim müraciətimi qəbul edib gəlmisiz. Arzum idi seçkilərdə iştirak etmək. Səhhətim imkan vermədiyi üçün məntəqəyə gedə bilmədim. Şükür, arzum yerinə yetdi. Azərbaycanın gələcəyinə, xoşbəxtliyinə səs verdim. Bir oğul itirmişdim, min oğul qazandım.

Boladi kəndindən 103 yaşlı Şananə Mahmudovanın ötən il qonağı olmuşduq. Köklü-köməli, qol-budaqlı bir nəslin ağbirçəyidir. 10 övladı, 24 nəvəsi, 50 nəticəsi var. Bu günsə öyrəndik ki, növbədənkənar prezident seçkilərində səsini səslərə qataraq övladlarının, nəvə-nəticələrinin, bir sözlə, bütün xalqımızın daha gözəl, xoş günlərini diləyib.



## Saatlı

66 saylı Saatlı seçki dairəsi üzrə növbədənkənar prezident seçkilərində 50 min 616 seçicinin 50 seçki məntəqəsində səsvermə hüququndan istifadə etməsi nəzərdə tutulmuşdur. Səsvermə başlanandan seçki məntəqələrində böyük canlanma yarandı. Seçkilərə hazırlıq prosesinin qanunvericilik çərçivəsində aparılması seçki zamanı özünü biruzə vedri. Aşağı seçki komissiyasının üzvləri hər hansı bir problemlə qarşılaşmadılar. Çünki MSK-nın təşkil etdikləri treninqlərində seçki ilə bağlı bilik və bacarıqlarını daha da təkmilləşdirmişdilər. Bu barədə dairə seçki komissiyasının sədri Arif Əliyev məlumat verdi.

DSK sədri qeyd etdi ki, 7 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Fiziki qüsurlu seçicilərin səsvermə hüququnu təmin etmək məqsədilə 12 seçki dairəsində panduslar qoyulub. 5 və 10 saylı məntəqələrdə daha böyük coşqu və mütəşəkkillik olub.

**5 saylı seçki məntəqəsinin sədri Çingiz Fətullayevlə əlaqə yaratdıq.** Dedi ki, seçkiyə böyük maraq var. Düşünürəm ki, bu, seçkilərin Azərbaycanın bütün ərazisində keçirilməsi ilə əlaqədardır. Ona görə də adları seçici siyahısında olan 957 nəfərin hamısı səsvermədə iştirak etmək istəyir.

Məntəqə sədri dedi ki, bu il ilk dəfə səs verən 14 nəfərin hamısı səsvermədə iştirak edib. Özləri də etiraf etdilər ki, ilk dəfə səsvermədə iştirakları çox uğurlu və yaddaqalan olacaq. Çünki ilk dəfə səs vermələri Zəfər seçkisinə təsadüf edib. Ç.Fətullayev səsverməyə əlil arabasında gələnlərin də olduğunu bildirdi. Bu da prezident seçkilərinə böyük marağın olmasının göstəricisidr. Bir də ki, qazilərimizin Zəfər seçkisində iştirak etmələri onların haqqıdır. Axı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında qazilərimizin zəhməti əvəzsiz olub.



Ç.Fətullayev seçki zamanı hər hansı bir xoşagəlməz hadisənin baş vermədiyini bildirdi.

**10 saylı seçki məntəqəsinin sədri Ağaxəlil Əzizovun** seçki sahəsində təcrübəsi böyükdür. Bu seçkilərdə də iştirak etmək, məntəqə seçki komissiyasına sədrlik etməkdən qürur duyduğunu bildirdi. Dedi ki, növbədənkənar prezident seçkilərində məntəqədə 1429 nəfərin səs verməsi nəzərdə tutulmuşdu. Seçkiyə hazırlıq işləri yüksək səviyyədə həyata keçirilmişdi. Elə buna görə də seçki zamanı hər hansı problemlə qarşılaşmadıq. Bunu məntəqəmizə gələn müşahidəçilər də hiss etdilər. Səsvermədə 8 şəhid ailəsi və 7 qazi də iştirak edib.

A.Əzizov yaşlıların da seçkidə şəxsən iştirak etdiklərini bildirdi. Sanki Zəfər seçkisində iştirak etməyi hər kəs özünə şərəf bilirdi. Ona görə də seçkilər mütəşəkkil şəraitdə başa çatdı.

## Şirvan

Fevralın 7-də respublikamızın hər yerində olduğu kimi, Şirvan şəhərində də növbədənkənar prezident seçkiləri keçirilib. Səhər saatlarından bütün məntəqələrdə seçici fəallığı müşahidə olunub.

Şəhərdə fəaliyyət göstərən 51 saylı Şirvan və 68 saylı Sabirabad – Şirvan seçki dairələrini əhatə edən 47 seçki məntəqəsi səhər saat 8:00-da öz qapılarını seçicilərin üzünə açıb.

Dairə seçki komissiyalarından verilən məlumata əsasən, səsvermənin azad, demokratik və şəffaf keçməsi üçün lazımi şərait yaradılıb, seçki məntəqələri zəruri texniki vasitələrlə, o cümlədən mürəkkəb balonları və ultrabənövşəyi lampalarla təchiz edilib.

Məntəqələrdə səsvermənin gedişini müxtəlif siyasi partiyalar və qeyri-hökumət təşkilatlarını təmsil edən yerli, habelə nüfuzlu beynəlxalq təşkilatlardan çoxlu sayda müşahidəçi izləyib.

Səhhəti ilə əlaqədar seçki məntəqəsinə gələrək səsvermədə iştirak edə bilməyən vətəndaşların yaşadığı evə daşınan seçki qutuları aparılır və onların seçkidə iştirakı təmin edilib.

Şirvan sakinləri seçkilərin şəffaf keçirilməsini yüksək qiymətləndiriblər. **Şəhid atası Rəhim Hüseynov** seçkilərdə fəal iştirak edənlərdən biridir. O, hər kəsi seçkilərdə fəal iştirak etməyə çağırıb: – Bu gün ölkənin hər yerində seçki bayramıdır. Gəlin, müharibədə birləşdiyimiz kimi bir yumruq olaq, ən layiqli olana səs verək.

Qeyd edək ki, 2 seçki dairəsinin 12 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Seçki dairələri üzrə 57 min 510 nəfər səsvermə hüququ olan vətəndaşın adı siyahıya alınıb. Onlardan 1223 nəfəri ilk dəfə səsverənlərdir.

*Səhifəni hazırladılar:*
***Əli NƏCƏFXANLI,***
***İlqar HƏSƏNOV,***
***Əliqismət BƏDƏLOV,***
***Fidan SALMANOVA,***
***XQ***

# Xaricdə yaşayan soydaşlarımız Vətənin uğurlarına səs veriblər

## Türkiyə



**Azərbaycanın Türkiyədəki diplomatik nümayəndəliklərində təşkil olunan məntəqələrdə həmvətənlərimizin seçkilərə yüksək marağı müşahidə edilib. Ölkənin müxtəlif bölgələrində yaşayan azərbaycanlılar səhər saatlarından başlayaraq, xüsusi ayrılmış avtobuslarla və səyyar avtomobilləri ilə seçki məntəqələrinə gələrək səs veriblər.**

Azərbaycanın Türkiyədəki səfirliyində 46 və 47, İstanbuldakı Baş konsulluğunda 53 və 54, Qarsdakı Baş konsulluğunda isə 55 saylı seçki məntəqələri yaradılıb. Türkiyədə daimi və ya müvəqqəti yaşayan, uzunmüddətli ezamiyyətdə və ya ümumiyyətlə, hazırda Türkiyədə olan 18 yaşına çatmış, aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları yerli vaxtla saat 19:00-dək seçki məntəqələrinə gələrək səsvermə hüququnu həyata keçiriblər.

Səsvermə prosesi Azərbaycan Respublikasının Konstitusiyasına, Seçki Məcəlləsinə və bu sahədəki digər qanunvericilik aktlarına uyğun aparılıb.

## Qazaxıstan

**Qazaxıstanın Aktau şəhərində yaşayan azərbaycanlılar da növbədənkənar prezident seçkilərində iştirak ediblər.**

Secki-2024.az saytı xəbər verib ki, səhər saatlarından seçicilər arasında aktivlik müşahidə edilib. Onlar kütləvi şəkildə seçki məntəqəsinə gələrək səsvermədə iştirak ediblər.

## Özbəkistan

**Fevralın 7-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri ilə bağlı ölkəmizin Özbəkistandakı səfirliyində səsvermə keçirilib.**



Səfirlikdə yaradılan seçki məntəqəsində Daşkənddə və paytaxta yaxın yerlərdə yaşayan Azərbaycan vətəndaşları, Özbəkistanda keçirilən tədbirlərdə iştirak etmək üçün dost ölkəyə gələn vətəndaşlarımız iştirak ediblər.

Azərbaycanın Özbəkistandakı səfiri, məntəqə seçki komissiyasının sədri Hüseyn Quliyev bildirib ki, səfirlikdə qeydə alınan 249 Azərbaycan vətəndaşının 235- i seçkidə iştirak edib. Seçkilərin şəffaf və demokratik keçirilməsi üçün səfirlikdə hər cür şərait yaradılıb.

Hüseyn Quliyev deyib: “Çox şadam ki, bu seçkilər Qarabağ tam azad olunduqdan sonra keçirilir. Hazırda tamamilə dağıdılan yeddi şəhər və rayonumuzun bərpası və yenidən qurulması yolunda iş aparılır. Əminəm ki, bu istiqamətdə layihələrimiz yüksək səviyyədə həyata keçiriləcək. Mən bu gün Azərbaycanın iqtisadi inkişafına, sabitliyinə, Qarabağın dirçəldilməsinə, əhalinin maddi rifah halının yaxşılaşmasına səs verdim”.

İş adamı Nazim Musazadə isə deyib ki, Azərbaycanın qalib və qürurlu vətəndaşı kimi öz namizədimə səs verdim, əminəm ki, seçimimdə yanılmamışam.

## Macarıstan

**Macarıstanda yaşayan soydaşımız, Gənclərin İnteqrasiyası və İnkişafı Assosiasiyasının sədri Ramil Şükürov deyib ki, hazırkı prezident seçkiləri onun iştirak etdiyi birinci səsvermədir.**

Onun sözlərinə görə, bu hadisə həm də onunla əlamətdardır ki, prezident seçkiləri ilk dəfə Azərbaycanın bütün ərazisində keçirilir.

Diaspor fəalı deyib: “Növbədənkənar prezident seçkilərini haqlı olaraq xüsusi



əhəmiyyətə malik Qələbə seçkiləri adlandırmaq olar. Bu səbəbdən çox həyəcanlıyam”.

Ramil Şükürov hələ də səsvermədə iştirak etməyən diaspor nümayəndələrini səfirliyə gələrək öz seçimlərini etməyə çağırıb.

Xatırladaq ki, Azərbaycanın Macarıstandakı səfirliyində yaradılmış seçki məntəqəsində yerli vaxtla saat 08:00-dan növbədənkənar prezident seçkiləri ilə bağlı səsvermə keçirilir.

## Pakistan

**Dünən növbədənkənar Azərbaycan Respublikası prezidenti seçkiləri ilə əlaqədar ölkəmizin Pakistandakı səfirliyində də səsvermə keçirilib.**

Səfirlikdən bildiriblər ki, Pakistanda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətdə olan Azərbaycan vətəndaşlarının Seçki Məcəlləsinə uyğun olaraq səsvermə hüququnun təminatı üçün səfirlikdə 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə 54 saylı məntəqə seçki komissiyası yaradılıb.

Səfirlikdə yaradılan məntəqədə bu ölkədə yaşayan vətəndaşlarımızla yanaşı, müxtəlif səbəblərdən həmin gün İslamabadda olacaq səsvermə hüququna malik seçicilər də səs veriblər.

Qeyd edək ki, Azərbaycanın Pakistandakı səfirliyində ilk dəfədir seçki məntəqəsi yaradılıb və səsvermə keçirilib.

## Gürcüstan

**Fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri ilə əlaqədar Azərbaycanın Gürcüstandakı səfirliyində məntəqə seçki komissiyası yaradılıb.**

Komissiyasının sədri, səfir Faiq Quliyev bildirib ki, bu seçkilər ölkəmiz üçün tarixi hadisədir. Müstəqilliyin bərpasından sonra ilk dəfədir ki, Azərbaycanın bütün bölgələrində prezident seçkiləri keçirilib. Hazırda Gürcüstanda çalışan, təhsil alan, müvəqqəti ezamiyyətdə olan 18 yaşına çatmış və səsvermə hüququna malik Azərbaycan Respublikasının vətəndaşları bu gün səfirlikdə istədikləri namizədə səs veriblər. Bunun üçün səfirlikdə hər cür şərait yaradılıb.

Vətəndaşları fəal səsverməyə dəvət edən səfir özü ilk növbədə səs verib. Diplomat səfirlik əməkdaşlarına və səs vermək üçün səfirliyə gələn insanlara uğurlar arzulayıb.

Batumidə də məntəqə seçki komissiyası yaradılıb. Komissiyanın sədri, Baş konsul Pərviz İsmayılzadə bildirib ki, məntəqədə konsulluğun əməkdaşları ilə yanaşı, Batumidə fəaliyyət göstərən Azərbaycan şirkətlərinin əməkdaşları, azərbaycanlı tələbələr, eləcə də həmin gün müvəqqəti olaraq Batumidə səfərdə olan və xidməti vəzifələrini icra edən Azərbaycan vətəndaşları səs veriblər. Onların sərbəst şəkildə səs verməleri üçün hər cür şərait yaradılıb.

Pərviz İsmayılzadə konsulluğun əməkdaşlarına və Batumidəki soydaşlarımıza uğurlar arzulayıözü isə ilk səs verən olub.

## Rusiya

**Azərbaycanın Moskvadakı səfirliyində yaradılan seçki məntəqələrində 2500-dən çox Azərbaycan vətəndaşı qeydiyyatdan keçib.**

Moskvada və Moskva vilayətində yaşayan 18 yaşına çatmış, daimi və ya uzun müddət Rusiya Federasiyasının ərazisində yaşayan Azərbaycan vətəndaşları səsvermədə iştirak etmək imkanı qazanıblar. Səhər saat 8:00-dan açılmış məntəqələrdə Azərbaycan vətəndaşları-



nın səs verməsi üçün hər bir şərait yaradılmış, müasir texniki vasitələrlə təchiz olunmuşdu. Moskvanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr sırasında seçkilərdə ilk dəfə iştirak edən gənclərə səfirik tərəfindən xüsusi hədiyyələr də təqdim olunub.

Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluqdakı seçki məntəqəsinin seçici siyahısında isə 1 030 nəfər seçici qeydə alınıb. Səsvermənin gedişi prosesində MDB Parlamentlərarası Assambleyasının (PA) müşahidəçiləri məntqəyə gəliblər. MDB Parlamentlərarası Assambleyasının Demokratiyanın İnkişafının Monitorinqi Beynəlxalq İnstitutunun eksperti Satnisalv Tkaçenko bildirib ki, MDB PA-nın müşahidəçiləri həm səsvermənin gedişini, həm də səslərin hesablanması prosesini müşahidə ediblər.

Növbədənkənar prezident seçkiləri ilə əlaqədar Rusiyada 4 seçki məntəqəsi yaradılıb.

## Ukrayna

**Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri ilə əlaqədar Kiyevdə səsvermə başa çatıb. Səsvermə seçici fəallığı ilə müşahidə edilib.**

Seçki məntəqəsinin seçici siyahısında olan Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti səsvermədə iştirak edib. Seçki komissiyasının üzvü Sabir Rzayev bildirib ki, Kiyevdə yaradılan seçki məntəqəsində səsvermə uğurla başa çatıb. Ukraynanın müxtəlif bölgələrində yaşayan Azərbaycan vətəndaşları gələrək səsvermədə iştirak etdilər: “Bu gün Ukrayna ərazisinə, o cümlədən Kiyevə raket hücumuna baxmayaraq, vətəndaşlarımız



500-600 kilometr məsafəni qət edərək seçkilərdə iştirak etdilər”.

## Belarus

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkisi ilə əlaqədar Azərbaycanın Belarusdakı səfirliyində səsvermə uğurla başa çatıb.**

Belarusdakı səfirliyində yaradılmış seçki məntəqəsində səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb.

Seçicilərin 78 faizə yaxını Zəfər seçkisində səsvermədə iştirak edib.



Səsvermə prosesi zamanı seçki komissiyasına hər hansı şikayət daxil olmayıb.

## Çin

**Çin Xalq Respublikasındakı səfirliyimizdə Azərbaycan prezidenti seçkiləri ilə əlaqədar səsvermə keçirilib.**

Səsvermə prosesi Azərbaycan Respublikası Konstitusiyasına, Seçki Məcəlləsinə və bu sahədəki digər qanunvericilik aktlarına uyğun aparılıb. Məntəqə lazımi əyani vəsaitlərlə təmin edilib, burada səs verən seçicilərin siyahısı tərtib olunub. Yaşı 18-ə çatmış və seçki hüququna malik digər vətəndaşlarımız Azərbaycan Respublikasının etibarlı pasportu və ya şəxsiyyət vəsiqəsi ilə səsvermədə iştirak ediblər.

Seçicilərin öz iradələrini azad və sərbəst şəkildə bildirmələri üçün lazımi şərait yaradılıb.

## Böyük Britaniya

**Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Səfirliyində 7 fevral Azərbaycan Respublikası prezidenti seçkiləri ilə bağlı yaradılmış seçki məntəqəsində səsvermə prosesi uğutla başa çatıb.**

Səfirlikdən bildirilib ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında, İslandiya Respublikasında və İrlandiya Respublikasında daimi yaşayan və ya müvəqqəti olan, yaxud uzunmüddətli ezamiyyətdə olan 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşlarının daxil olmuş müraciətləri əsasında seçici siyahısına daxil edilməsi məqsədilə səfirlikdə qeydiyyat aparılıb. Həmin şəxslər böyük əksəriyyətlə səsvermədə iştirak ediblər.

## İtaliya

**Növbədənkənar prezident seçkiləri ilə əlaqədar Azərbaycanın İtaliyadakı səfirliyində yaradılan 15 saylı Yasamal birinci seçki dairəsinin 39 saylı məntəqəsində səsvermə prosesi seçici fəallığı şəraitində keçib.**

İtaliya, Malta və San-Marinoda daimi və ya müvəqqəti yaşayan, o cümlədən bu ölkələrdə uzunmüddətli xarici ezamiyyətlərdə olan və 18 yaşını tamamlamış, aktiv seçki hüququna malik vətəndaşlarımız seçici hüququndan istifadə etməklə səsvermədə fəallıq göstəriblər.

Seçicilər iradələrini azad formada ifadə etməklə sərbəst şəkildə səsvermə hüquqlarından istifadə etdiklərini bildiriblər.

## Polşa

**Azərbaycanın Polşadakı səfirliyində yaradılmış seçki məntəqəsində səsvermə prosesi yüksək seçici fəallığı ilə müşahidə olunub.**

Varşavada və digər şəhərlərdə yaşayan 100-dən çox soydaşımız seçkidə iştirak edib. Polşa Azərbaycanlıları Şurasının rəhbəri Fərid Cəfərli bildirib: “Azərbaycanda keçirilən prezident seçkiləri ilə bağlı dünyanın müxtəlif ölkələrində olduğu kimi, Polşada da soydaşlarımız həmrəylik nümayiş etdirdilər. Biz də öz növbəmizdə Polşa Azərbaycanlıları Şurası olaraq, vətəndaş mövqeyi sərgiləyib həm səfirlikdə səsvermədə iştirak etdik, həm də vətəndaşlarımızın seçkidə iştirakı üçün hərtərəfli kömək etməyə çalışdıq.

Polşanın digər şəhərlərində yaşayan 70-dən çox soydaşımızın seçkidə iştirakı üçün nəqliyyat vasitələrinin təşkilini həyata keçirdik. Bu qədər soydaşımızı bir arada görmək və bu işin təşkilində iştirak etmək həqiqətən çox qürurvericidir. Polşadakı soydaşlarımız da qalib ölkənin vətəndaşları kimi səsvermə hüquqlarından böyük qürur hissi ilə istifadə etdilər”.



## Koreya

**Növbədənkənar Azərbaycan Respublikası prezidentinin seçkiləri ilə əlaqədar Koreya Respublikasındakı səfirliyimizdə yaradılan seçki məntəqəsində yerli vaxtla səhər saat 8:00-da (Bakı vaxtı ilə 03:00) səsverməyə start verilib.**

Bakı ilə saat fərqinə əsasən, səsvermə prosesi ilk olaraq ölkəmizin Seuldakı səfirliyində yaradılan məntəqə seçki komissiyasında başlayıb. Səsvermə prosesi Azərbaycan Respublikası Konstitusiyasına, Seçki Məcəlləsinə və bu sahədəki digər qanunvericilik aktlarına uyğun aparılır. Məntəqə lazımi əyani vəsaitlərlə təmin edilib, burada səs verən



seçicilərin siyahısı tərtib olunub. Yaşı 18-ə çatmış və aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları Azərbaycan Respublikasının etibarlı pasportu və ya şəxsiyyət vəsiqəsi ilə səsvermədə iştirak ediblər. Seçicilərin öz iradələrini azad və sərbəst şəkildə bildirmələri üçün lazımi şərait yaradılıb.



## Avstriya

**Növbədənkənar Azərbaycan Respublikasının prezidenti seçkiləri ilə əlaqədar Azərbaycanın Avstriyadakı səfirliyində yaradılmış 17 saylı Yasamal üçüncü seçki dairəsinin 44 saylı seçki məntəqəsində səsvermə keçirilib.**

Proses Azərbaycan Respublikası Konstitusiyasına, Seçki Məcəlləsinə və bu sahədəki digər qanunvericilik aktlarına uyğun aparılıb. Seçki məntəqəsi lazımi əyani vəsaitlə təmin edilib, burada səs verəcək seçicilərin siyahısı tərtib olunub, məntəqə seçki komissiyasının bir neçə dəfə iclası keçirilib. Konsulluq qeydiyyatında olan Azərbaycan vətəndaşları seçkilər barədə məlumatlandırılıb.

Seçki məntəqəsində səsvermə prosesində yüksək fəallıq müşahidə olunub.

## Moldova

**Növbədənkənar prezident seçkilərində Moldovada müvəqqəti yaşayan və ezamiyyətdə olan vətəndaşlarımız da fəal iştirak ediblər.**

Azərbaycanın Moldovadakı səfirliyində yaradılmış seçki məntəqəsində səsvermə yerli vaxtla saat 08:00-da (Bakı vaxtı ilə saat 10:00) başlayıb.

Seçki komissiyasından bildiriblər ki, Zəfər seçkilərində vətəndaşlarımız fəal iştirak ediblər. Onların arasında ilk dəfə səs verən gənclərimiz də var.

Seçkilərdə ilk dəfə iştirak edən Yəhya Muxtarov: “Qalib ölkənin vətəndaşı kimi Zəfər seçkilərində iştirak etmək olduqca qürurvericidir. Çünki bu səsvermə ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçirilir. Moldovada ilk dəfə seçkilərdə iştirak edən seçicilərin hamısı özlərini çox xoşbəxt hesab edir”.

## İsveçrə

**Prezident seçkiləri ilə əlaqədar Azərbaycan Respublikasının İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı səfirliyində yaradılmış 16 saylı Yasamal ikinci seçki dairəsinin**



**51 saylı seçki məntəqəsində səsvermə keçirilib.**

Məntəqədə yerli vaxtla saat 8:00-da başlayan səsvermə prosesinin qanunvericiliyə tam uyğun qaydada keçirilməsi üçün hər cür şərait yaradılıb. Səsvermə prosesi qanunvericiliyin tələblərinə uyğun qaydada, demokratik, şəffaf və ədalətli şəkildə keçirilir. Azərbaycan vətəndaşları səsvermədə fəal iştirak ediblər.

## Fransa

**Azərbaycan prezidenti seçkiləri ilə əlaqədar Fransada səsvermə prosesinə yekun vurulub.**

Fransadakı vətəndaşlarımız Parisdəki səfirliyimizdə yaradılan 16 saylı Yasamal ikinci seçki dairəsinin 46 saylı seçki məntəqəsində Zəfər seçkisində fəal iştirak ediblər. Həmvətənlərimizin səs verməsi üçün hər bir şərait yaradılmış və seçicilər sərbəst şəkildə səsvermə hüququndan istifadə ediblər. Tam azad, şəffaf və demokratik qaydada keçən səsvermə zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb, seçki komissiyasına hər hansı şikayət daxil olmayıb.

Fransa vaxtı ilə saat 19:00-da səsvermə prosesi başa çatıb və məntəqə bağlanıb. Seçki qutusunun açılması və səslərin sayılmasına başlanıb.

Buxarestdə səsvermə prosesi seçicilərin yüksək fəallığı ilə başa çatıb.

***Səhifəni “Xalq qəzeti”nin və xəbər agentliklərinin materialları əsasında Tahir Aydınoğlu hazırlayıb.***

# Mərkəzi Seçki Komissiyasında görüşlər



**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 7-də Türkiyə Yüksək Seçim Kurulunun sədri Ahmet Yenerin rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri ilə görüşüb.**

Sonra Məzahir Pənahov qonaqlara seçki prosesi barədə məlumat verib. O, ölkəmizdə medianın müstəqil olduğunu və seçki prosesini izləmək üçün onlara lazımi şəraitin yaradıldığını deyib.

Ahmet Yener səhər saatlarından etibarən məntəqələrdə yüksək seçici fəallığının müşahidə edildiyini bildirib. O, seçkiyə bu dərəcədə marağın olmasını çox sevindirici hal kimi qiymətləndirib.

Ahmet Yener diqqətə çatdırıb ki, seçki prosesi şəffaf şəkildə həyata keçirilir. Məntəqələrdə seçici fəallığı çox yüksəkdir.

***

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Macarıstan Mərkəzi Seçki Komissiyasının sədri Nagy Atilla Mihalinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Seçkilərin ilk dəfədir bütöv Azərbaycan ərazisində keçirildiyini diqqətə çatdıran MSK-nın sədri ölkədə 6,5 milyon seçicinin olduğunu və onların 6537 məntəqədə səs verdiklərini deyib. O, işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin qurulduğunu diqqətə çatdırıb.

Macarıstan Mərkəzi Seçki Komissiyasının sədri dəvətə görə minnətdarlığını bildirib, seçki prosesini sona qədər fəal şəkildə müşahidə edəcəklərini diqqətə çatdırıb.

***

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 7-də Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxodjayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Məzahir Pənahov Azərbaycanla Özbəkistan arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib.

O, qonaqlara seçki prosesi barədə məlumat verib. Bildirib ki, ölkəmizdə seçicilər və müşahidəçilər üçün bütün şərait yaradılıb.

Özbəkistan nümayəndə heyətinin Azərbaycanda çox səmimi qarşılandığını qeyd edən Zayniddin Nizamxodjayev Azərbaycanda seçki komissiyaları öz işlərini çox mükəmməl şəkildə qurduqlarını, müşahidələrinə əsasən, seçkilərdə xüsusilə də gənclərin daha fəal şəkildə iştirak etdiklərini bildirib.

***

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Rusiya, Serbiya, Qırğızıstan, Türkmənistan, Belarus və Bolqarıstan Mərkəzi Seçki komissiyalarının nümayəndələri ilə də görüşüb.**

MSK-nın sədri seçki qonaqları seçki prosesi barədə məlumatlandırıb.

Nümayəndə heyətinin üzvləri öz növbələrində seçki prosesini izləməyə dəvətə görə təşəkkürlərini bildiriblər.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

**XQ**

# “Belə seçici axınını başqa ölkələrə də arzu edirəm”




**Müşahidə apardığımız seçki məntəqələrində günün birinci yarısında insanların səs verməyə böyük həvəslə gəldiklərini müşahidə etdik. Düşünürəm bu, onun göstəricisidir ki, əhali ölkənin gələcəyinə öz töhfələrini vermək və bugünkü fəal iştirakları ilə bunu sübut etmək istəyir.**

Bu sözləri İtaliya parlamentinin deputatı Naike Qruppioni fevralın 7-də keçirilən mətbuat konfransında söyləyib.

“Çoxdan idi ki, siyasi baxımdan belə müsbət vəziyyətlə rastlaşmamışdım. Mən bu gün müşahidə etdiyim seçici axınını, bugünkü prosesi bir çox ölkələrə arzulamaq istərdim”, – deyə o, qeyd edib.

# “Hər hansı pozuntu aşkar edilməyib”

**Fevralın 7-də GUAM PA-nın müşahidə missiyası növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib.**

Mətbuat konfransında çıxış edən müşahidə missiyasının rəhbəri Altay Əfəndiyev nümayəndə heyətinin Sumqayıt şəhərində və Nərimanov rayonunda seçki məntəqələrində müşahidə apardığını deyib. O qeyd edib ki, prezident seçkiləri ölkə qanunvericiliyinə, demokratik prinsiplərə uyğun keçirilib.

“Səsvermə prosesində seçicilərin tam olaraq azad şəkildə səs verməlləri təmin edilib. Qrupumuz tərəfindən heç bir qanun pozuntusu aşkar edilməyib və bizə şikayət daxil olmayıb. Bülletenlərin doldurulması prosesi şəffaf şəkildə həyata keçirilib. Seçkilər rəqabətədavamlı şəkildə baş tutub”, – deyə A.Əfəndiyev bildirib.

**XQ**



# “Səsvermə şəffaf və fəallıqla keçdi”

**Səsvermə zamanı heç bir qayda pozuntusu aşkar edilməyib.**

Bunu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) müşahidə missiyasının növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı fevralın 7-də keçirdiyi mətbuat konfransında çıxış edən qurumun Baş katibi Asəf Hacıyev deyib.

O, bu seçkilərdə qalib gələn namizədin adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıracağını bildirib.

“Missiyamız ərzində müşahidə etdik ki, seçkilər şəffaf keçirilir və vətəndaş fəallığı yüksəkdir”, - deyə Asəf Hacıyev vurğulayıb.

**XQ**



# “Exit-poll”: İlham Əliyev 93,9 faiz səslə liderdir

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-ın “ORACLE ADVISORY GROUP” təşkilatı ilə birgə keçirdiyi “exit-poll”un ilkin nəticələrini açıqlayıb.**



Təşkilatın nümayəndəsi George Brinbaum “exit-poll”un nəticələrini açıqlayıb.

Nəticələr aşağıdakı kimidir:

Hazırkı dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev – 93,9 faiz;

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının namizədi Qüdrət Həsənquliyev – 1,2 faiz;

Öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş Zahid Oruc – 1,8 faiz;

Böyük Quruluş Partiyasının namizədi Fazil Mustafa – 1,5 faiz;

Böyük Azərbaycan Partiyasının namizədi Elşad Musayev – 0,4 faiz;

Milli Cəbhə Partiyasının namizədi Razi Nurullayev – 0,9 faiz;

Öz təşəbbüsü ilə namizədliyini irəli sürmüş Fuad Əliyev – 0,3.

**XQ**

# “Rəy” Monitorinq Mərkəzinin sorğu nəticələri

**“Rəy” Monitorinq Mərkəzi növbədənkənar prezident seçkilərində 33 seçki dairəsi üzrə 200 seçki məntəqəsində “exit-poll” keçirib.**



Bu barədə mərkəzin direktoru Rizvan Abbasov fevralın 7-də keçirilən mətbuat konfransında bildirib.

O qeyd edib ki, “exit-poll”da mərkəzin 300-ə yaxın əməkdaşı iştirak edib.

“Exit-poll”un nəticələri belə olub:

Hazırkı dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev – 92,6 faiz;

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının namizədi Qüdrət Həsənquliyev – 0,46 faiz;

Öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş Zahid Oruc – 0,37 faiz;

Böyük Quruluş Partiyasının namizədi Fazil Mustafa – 0,58 faiz;

Böyük Azərbaycan Partiyasının namizədi Elşad Musayev – 0,11 faiz;

Milli Cəbhə Partiyasının namizədi Razi Nurullayev – 1,16 faiz;

Öz təşəbbüsü ilə namizədliyini irəli sürmüş Fuad Əliyev – 0,84.

**XQ**

# Sosioloji Tədqiqatlar Mərkəzi: İlham Əliyev səslərin 92,4 faizini qazanıb

**Sosioloji Tədqiqatlar Mərkəzi fevralın 7-də keçirilmiş prezident seçkiləri ilə bağlı keçirdiyi “exit-poll”un nəticələrini açıqlayıb.**

Bbununla bağlı keçirilən mətbuat konfransında Mərkəzin nümayəndəsi Natalya İsayeva “exit-poll”un xüsusi hazırlanmış proqram əsasında aparıldığını bildirib. Qeyd edib ki, “exit-poll” 25 seçki dairəsi üzrə 125 seçki məntəqəsində keçirilib. Sorğulara 5012 respondent cəlb olunub. Onların 24 faizi Bakı şəhəri, 7,9 faizi Gəncə, Sumqayıt şəhərlərini əhatə edir. 44,3 faizi isə kənd sakinləri olub.

“Exit-poll”un nəticələri belədir:

İlham Əliyev - 92, 4 faiz;

Zahid Oruc - 2,2 faiz;

Fazil Mustafa - 2 faiz;

Qüdrət Həsənquliyev - 1,6 faiz;

Elşad Musayev - 0,8 faiz;

Fuad Əliyev - 0,4 faiz;

Razi Nurullayev - 0,3 faiz.

# MEDİA-nın jurnalistlərin fəaliyyəti ilə bağlı açıqlaması

**Növbədənkənar prezident seçkilərində jurnalistlərin sərbəst fəaliyyətinin təmin olunması ilə bağlı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən dəfələrlə açıqlamalar verilməsinə baxmayaraq, bəzi ekspertlər səviyyəsində ictimai rəyi yanlış istiqamətə yönləndirmək cəhdləri müşahidə olunmaqdadır.**

Bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib.

Açıqlamada, həmçinin qeyd edilib: “Belə əsassız iddialara cavab olaraq bir daha bildiririk ki, səsvermə günü istənilən jurnalist yalnız çalışdığı media subyektinin vəsiqəsini təqdim etməklə seçki məntəqələrində peşəkar fəaliyyətini yerinə yetirə bilər, jurnalistin informasiya əldə etmək hüququ heç bir halda məhdudlaşdırılmır.

Medianın İnkişafı Agentliyi seçki prosesini işıqlandıran media nümayəndələri ilə mütəmadi qarşılıqlı əlaqədədir və onların suallarını operativ qaydada cavablandırmaq üçün Mərkəzi Seçki Komissiyası ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir”.

# Mətbuat Şurasının məlumatı

**Mətbuat Şurasının 7 fevral prezident seçkiləri ilə bağlı yaratdığı “qaynar xətt” rejimi fəaliyyətini başa vurub. Gün ərzində səsvermə prosesini işıqlandıran media vasitələrinin təmsilçilərindən MŞ-nin bu rejimdə işləmiş (012) 441 35 96 şəhər, (050) 242 09 91 və (055) 789 85 03 mobil nömrələrinə cəmi bir müraciət daxil olub. Həmin müraciət üzrə müəyyənləşdirilib ki, xarici media vasitəsi ölkəmizdə akkreditasiyadan keçmədiyindən, onun seçkini işıqlandırması qeyri-mümkündür. Bununla əlaqədar müraciət müəllifi məlumatlandırılıb, ona qanunvericiliyin tələbləri izah edilib. Qeyd edək ki, “qaynar xətt” rejimi səsvermənin başlandığı 08.00-dan, başa çatdığı 19.00-dək jurnalistlərin ixtiyarında olub.**

Mətbuat Şurasının İdarə Heyətinin jurnalist və müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri də paytaxtdakı və bölgələrdəki seçki məntəqələrində jurnalistlərə prosesi işıqlandırmaları üçün yaradılmış şəraiti müşahidə ediblər. MŞ sədri Rəşad Məcid və Şuranın İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə 35 saylı Xətai Üçüncü Seçki Dairəsinin 5, 6, 7, 9, 10 və 32 saylı məntəqələrində, MŞ sədrinin müavinlərindən Səadət Məmmədova 21 saylı Nəsimi–Binəqədi Seçki Dairəsinin 37 saylı məntəqəsində, Vüqar Zifəroğlu 22 saylı Nəsimi–Yasamal Seçki Dairəsinin 29 saylı seçki məntəqəsində, MŞ İdarə Heyətinin üzvlərindən Əflatun Amaşov 21 saylı Nəsimi Birinci Seçki Dairəsinin 17 saylı seçki məntəqəsində, Rauf Arifoğlu 35 saylı Xətai Üçüncü Seçki Dairəsinin 10 saylı məntəqəsində, Umud Rəhimoğlu 124 saylı Şuşa–Ağdam–Xocalı–Xocavənd seçki dairəsinin 106 və 107 saylı məntəqələrində, Akif Aşırlı Yasamal Birinci Seçki Dairəsindəki 28, 29 və 30 saylı seçki məntəqələrində, Ceyhun Musaoğlu həmin seçki dairəsinin 105 saylı məntəqəsində, 122 saylı Xankəndi Seçki Dairəsinin 14 saylı məntəqəsində, Müşfiq Ələsgərli 7 saylı Səbail Seçki Dairəsinin 23 saylı məntəqəsində, Azər Həsrət 18 saylı Nərimanov–Nizami–Binəqədi Seçki Dairəsinin 28, 29, 31 və 32 saylı seçki məntəqələrində, Aqil Ələsgər 23 saylı Nəsimi–Səbail Seçki Dairəsinin 37 saylı məntəqəsində, Hacıbəy Heydərli 8 saylı Binəqədi Birinci Seçki Dairəsinin 16 saylı məntəqəsində, Aydın Quliyev 22 saylı Yasamal Seçki Dairəsinin 30, 31 və 35 saylı seçki məntəqələrində, Qulu Məhərrəmli həmin dairənin 5 və 6 saylı məntəqələrində, Yadigar Məmmədli 7 saylı Səbail Seçki Dairəsinin 11, 12, 13, 14 və 15 saylı məntəqələrində, Bəhruz Məmmədzadə 48 saylı Abşeron Seçki Dairəsinin müxtəlif məntəqələrində, Şuranın Nəzarət-Təftiş Komissiyasının sədri Rey Kərimoğlu 124 saylı Şuşa–Ağdam–Xocalı–Xocavənd seçki dairəsinin 106 və 107 saylı məntəqələrində olublar. Onlar jurnalistlərin sərbəst şəkildə peşə fəaliyyətlərini yerinə yetirdiklərini qeydə alıb, mövcud istiqamətdə heç bir problem aşkarlamayıblar.

**XQ**

# “Yaşıl artım” milli hədəfdir

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu il Bakıda keçirilməsi qərarı Azərbaycanın “yaşıl enerji” siyasətinə qlobal dəstəyini ifadə edir. 2024-cü ilin respublikamızda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi də vurğulanan fikrin bariz ifadəsidir. Neft-qaz ölkəsi olan Azərbaycan bu gün “yaşıl enerji” növlərinin yaradılmasını və “yaşıl enerji”nin dünya bazarlarına nəqlini enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlayır.**

Qeyd edək ki, bərpaolunan və “yaşıl enerji” əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. Azərbaycanın bərpaolunan enerji potensialı da yüksək qiymətləndirilib. Məhz elə buna görə də 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının ölkəmizdə 30 faizə çatdırılması nəzərdə tutulub.

Yeri gəlmişkən, statistik göstəricilərə görə, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bu göstəricilər iqtisadi potensial üzrə isə 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat və günəş enerjisi üzrə 23 min meqavatdır.

Xatırladaq ki, Vətən müharibəsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurun, həmçinin Naxçıvanın “yaşıl enerji bölgəsi” adlandırılaraq bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilanda hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayılda külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında isə bioenerji ehtiyatlarının səmərəli istifadə edilməsi nəticəsində ölkəmiz, ümumilikdə, “Yaşıl enerji” istehsalçısına və istehlakçısına çevrilə bilər. Artıq Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından fəal şəkildə istifadə edilir. Yaxın illərdə burada hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq ki, bu da “yaşıl enerji”yə keçid prosesinə böyük töhfədir.

Azad edilən ərazilərdə indiyədək bir sıra yarımstansiya və su elektrik stansiyaları istifadəyə verilib. Məsələn, Azərbaycan–Türkiyə–Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kilovoltluq “Cəbrayıl” qovşaq yarımstansiyası istismara verilib. Həmçinin “yaşıl enerji” strategiyasına uyğun olaraq Kəlbəcər rayonunda 8,33 meqavat gücündə “Çıraq-1”, 3,6 meqavat gücündə “Çıraq-2”, 6,33 meqavat gücündə “Qamışlı”, 5,3 meqavat gücündə “Soyuqbulaq” və 3,4 meqavat gücündə “Meydan” kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Paralel olaraq “AzerEnerji” tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq “Qorçu” yarımstansiyasının və “Laçın” şəhər qovşaq yarımstansiyasının da açılışı həyata keçirilib. Bununla yanaşı, Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin baş məsləhətçisi Gültac Miralıyeva söhbətində neft-qaz ölkəsi olan Azərbaycanın bu gün “yaşıl enerji” növlərinin yaradılması istiqamətində həyata keçirilən söhbətlərdən bəhs edərkən COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin davamlı inkişafına və beynəlxalq əməkdaşlığa sadiqliyini də vurğuladı, bu beynəlxalq tədbirin qlobal arenada respublikamızın nüfuzunun daha da güclənməsinə müsbət təsir edəcəyini bildirdi.

G.Miralıyeva, həmçinin ölkəmizin namizədliyi məsələsində beynəlxalq aləmin vahid mövqedən çıxış etməsini Azərbaycanın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisi kimi diqqət çəkdiyini xatırlatdı. Eyni zamanda, bildirdi ki, Bakıdakı mövcud infrastrukturu (otel, nəqliyyat sistemi, hava limanı və s. baxımından) da ciddi sınaq gözləyir. Çünki Statistika Komitəsinin bu ilin əvvəlinə olan göstəricisinə görə, paytaxtımızdakı bütün otellərin günlük əsasda birdəfəlik tutumu cəmi 24 minə, bütün Azərbaycandakı otellərin birdəfəlik tutumu isə 56 minə bərabərdir. Yəni, rəsmi rəqəmlərdən görünür ki, COP29 üçün gözlənilən turist sayı nəinki Bakının, bütün ölkənin otellərinin birdəfəlik tutumundan çox ola bilər. Ona görə də paytaxtımızın bu tədbirə özündən öncəki şəhərlərdəki qədər qonağı qarşılayaraq evsahibliyi etmək üçün infrastruktur imkanlarının qısa müddətdə gücləndirilməsi zəruridir.

Hazırda ölkəmizdə “yaşıl enerji”dən istifadənin genişləndirilməsi məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq layihələri, o cümlədən dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı planları, “yaşıl enerji”nin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, enerji effektivliyi, “yaşıl hidrogen”, elektromobillik və digər məsələlər haqqında danışıqlar aparılır. Ümumiyyətlə, “yaşıl” inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəsmisi söhbətində onu da əlavə etdi ki, Dördüncü Sənaye İnqilabı adlandırılan yeni dövrün əsasını təşkil edən “yaşıl enerji” ənənəvi enerji mənbələrini –daş kömür, neft-qaz kimi sahələri geridə qoyacaq: “Yeni istehsal olunan mühərriklər, maşınlar hidrogen, qaz və elektrik enerjiləri ilə işləyirlər. Yaşıl hidrogeni ixrac etmək potensialını yaratmaq üçün tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrində olan şirkətlərlə əməkdaşlıq etmək gündəmdədir. Bərpaolunan enerji gündəliyimizi təkcə günəş, külək elektrik stansiyaları ilə məhdudlaşdırmayaraq, Qarabağ və Şərqi Zəngəzurda hidroenerji potensialımızı inkişaf etdirmək prioritet məsələlərdəndir.

Beləliklə, Azərbaycan apardığı məqsədyönlü iş, böyük zəhmət və bu sahədə qazandığı uğurlar sayəsində İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi etməyə tam layiqdir.

***Vaqif BAYRAMOV***
***XQ***

## Orta aylıq əməkhaqqı artıb

***İlkin məlumatlara əsasən, 2024-cü il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 741,8 min nəfər olub. Onların 899,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 842,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.***



Bildirilib ki, 2023-cü ilin ilkin məlumatlarına əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 11,2 faiz artaraq 933,8 manata çatıb. Hesabat ilində iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Muzdla işləyənlərin 19,1 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

## “Astara” – 5 milyard kilovat-saat enerji

***2006-cı ilin fevral ayında istismara verilmiş “Astara” modul tipli elektrik stansiyası ahəngdar rejimdə fəaliyyət göstərir. Ötən müddətdə stansiyada 4,9 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib.***



Qeyd edək ki, Astara rayonunun Ərcivan kəndində olan stansiyanın ümumi gücü 87 meqavat olmaqla hər biri 8,7 meqavat gücündə 10 ədəd qaz porşen aqreqatından ibarətdir.

Energetika Nazirliyinin məlumatına görə, stansiyada elektrik enerjisinin istehsalı 2020-ci ildə 291,1 milyon kilovat-saat, 2021-ci ildə 309,1 milyon kilovat-saat, 2022-ci ildə 278,2 milyon kilovat-saat, 2023-cü ildə isə 286,8 milyon kilovat-saat təşkil edib.

Cari ilin yanvar ayında stansiyada 24,4 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

***XQ***

## 18 il – 4 milyon daşınmaz əmlak

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, Azərbaycanda 2006-2023-cü illərdə 3 milyon 627 min 332 daşınmaz əmlak üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına alınıb. Bunlardan 943 min 362-si ilkin qeydiyyatın, 2 milyon 683 min 970-i isə təkrar qeydiyyatın payına düşüb.***



Son 18 ildə mülkiyyət hüququ qeydiyyata alınmış əmlaklardan 623 min 726-sı fərdi yaşayış və bağ evi, 1 milyon 64 min 199-u mənzil, 1 milyon 783 min 97-si torpaq sahəsi, 77 min 784-ü qeyri-yaşayış sahəsi, 67 min 628-i qeyri-yaşayış obyekti, 12 min 694-ü əmlak kompleksi, 919-u isə çoxmərtəbəli yaşayış binası olub.

Ötən il ölkədə 477 min 351 daşınmaz əmlak üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına alınıb. Bu, 2022-ci illə müqayisədə 25 faiz çoxdur.

## Pambıqçılıqda yerli toxum...

***Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdovun mediaya bildirdiyinə görə, Azərbaycanda pambıqçılıq sahəsində qarşıda duran əsas hədəflərdən biri əkinlərin yerli toxumlar hesabına ödənilməsidir.***



Onun sözlərinə görə, ölkədə hazırda pambıq əkinlərində Türkiyə istehsalı olan toxumlar daha geniş istifadə edilir. Yerli istehsala uyğun pambıq sortlarının yaradılması, rayonlaşdırılması və toxumçuluğun təşkili seleksiya proqramlarında hədəf kimi müəyyən olunub. Nazirliyin Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunda bu istiqamətdə işlər aparılır.

İ.Cümşüdov qeyd edib ki, 2023-cü ildə ölkənin 15 rayonunda 93,7 min hektarda pambıq əkilib və bu sahələrdən 276,3 min ton məhsul yığılıb. Ölkə üzrə sahələrin orta məhsuldarlığı 29,5 sentner/hektar təşkil edib. Ötən il 2022-ci illə müqayisədə pambıq əkin sahəsi 10 min hektar azalıb. Bunun əsas səbəblərindən biri hər il eyni sahəyə pambıq əkinlərinin aparılmasının tövsiyə edilməməsidir. Ötən təsərrüfat ilində pambıq yığımı zamanı mütəmadi yağışların yağması məhsul itkisinə səbəb olub.

Şöbə müdiri xatırladıb ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2023-cü ildə istehsal edilmiş məhsula görə fermerlərə tədarük məntəqələrinə təhvil verdikləri pambığın hər tonu üçün verilən məhsul subsidiyası 180 manatdan 190 manata qaldırılıb.

***XQ***

# Azərbaycan “Prodekspo-2024” sərgisində

**Moskvanın “Exposentr” Mərkəzi Sərgi Kompleksində 31-ci Ərzaq Məhsulları, İçkilər və Onların İstehsalı üçün Xammal Beynəlxalq Sərgisi – “Prodekspo-2024” öz işini davam etdirir. Rusiya Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, Rusiya Ticarət və Sənaye Palatasının himayəsi ilə təşkil olunan “Prodekspo” miqyasına görə dünyanın ən böyük 10 ərzaq sərgisindən biridir. Onu da qeyd edək ki, Rusiya paytaxtında keçirilən budəfəki sərgidə 40 ölkədən 2145 şirkət iştirak edir. Sərgidə, əsasən, qida, içkilər və onların istehsalı üçün lazım olan xammallar nümayiş etdirilir.**



Azərbaycan şirkətləri də Moskvanın “Exposentr” Mərkəzi Sərgi Kompleksində keçirilən beynəlxalq tədbirdə fəal iştirakı ilə seçilir. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılının bildirdiyinə görə, sərgi kompleksinə gələnlər Azərbaycan stendinə böyük maraq göstərirlər. Ölkəmizin ənənəvi olaraq hər il sərgidə iştirak etdiyini vurğulayan direktor müavini bildirib ki, bu il ölkəmizin 28 şirkəti “Made in Azerbaijan” stendində öz məhsullarını nümayiş etdirir. Sərginin ilk saatlarından etibarən ziyarətçilərin Azərbaycan məhsullarına böyük maraq göstərdiklərini bildirən T.Hacılı onu da deyib ki, artıq təşkilatçılar və şirkətlərlə “Prodexpo” sərgisi ilə gələcək əməkdaşlıq məsələləri barədə müzakirələr aparılıb, təşkilatçılarla aparılan danışıqlar nəticəsində növbəti illərdə Azərbaycanın üzümçülük məhsulları və alkoqollu içkilərin təqdim olunacağı ayrıca stendin yaradılması barədə razılıq əldə edilib.

“Bu il sərgidə fərqli sahələrdən olan - qida sənayesi, kənd təsərrüfatı məhsulları, o cümlədən meyvə-tərəvəz, şərablar, qablaşdırma və digər məhsullar istehsal edən şirkətlər iştirak edir. Son illər Azərbaycanda qeyri-neft sektorunda artım müşahidə olunur. Ötən il bu sektorda əvvəlki illə müqayisədə 10 faizə yaxın, 3,3 milyard dollar həcmində artım qeydə alınıb. Bu il də biz Rusiya bazarına, eləcə də digər ölkələrə ixracın artımını gözləyirik”, – deyə o əlavə edib.

İcraçı direktorunun müavini mediaya açıqlamasında, həmçinin bildirib ki, artıq bir neçə ildir, Azərbaycan şirkətləri məhsullarını “Made in Azerbaijan” stendində təqdim edirlər. Ölkəmizdə istehsal olunan məhsulların İqtisadiyyat Nazirliyi və AZPROMO-nun dəstəyi ilə nümayiş etdirildiyini diqqətə çatdıran Tural Hacılının deyinə görə, Rusiyadan olan istehlakçılara qida sənayesi məhsulları, kənd təsərrüfatı məhsulları, o cümlədən meyvə-tərəvəz, şərablar, meyvə şirələri, zeytun yağı, quru meyvələr və s. təqdim olunur: “Rusiyalı istehlakçılar Azərbaycan məhsullarının keyfiyyətinə çoxdan bələd olduqlarını söyləyirlər. Məhz bu səbəbdən də, alıcılar Rusiya bazarlarında Azərbaycan məhsullarını daha çox çeşiddə görmək istədiklərini bildirirlər”.

Yeri gəlmişkən, təşkilatçılar fevralın 9-dək davam edəcək “Prodexpo” beynəlxalq qida məhsulları sərgisinin iki ilə yaxındır sanksiyalar altında yaşayan Rusiyanın ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edəcəyinə ümid edirlər.

Qeyd edək ki, ölkəmizdə qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi, ixracın artırılması üçün, ilk növbədə, Azərbaycan brend olaraq tanıdılmasına ehtiyac var. Bu məqsədlə ölkə Prezidentinin 2016-cı il oktyabrın 5-də yerli qeyri-neft məhsullarının “Made in Azerbaijan” adı altında xarici bazarlarda genişmiqyaslı təbliğinə nəzərdə tutan fərman imzalayıb. Sözügedən sənəd “Made in Azerbaijan” brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə 10 fərqli mexanizmi – dəstək tədbirini əhatə edir. Dəstək tədbirlərindən asılı olaraq onların həyata keçirilməsi ilə bağlı xərclər tam və ya qismən dövlət büdcəsi hesabına qarşılanır. Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracı ilə məşğul olan hər bir ixracatçı bu dəstək tədbirlərinə müraciət etmək hüququna sahibdir.

“Made in Azerbaijan” ölkəmizin iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artmasına stimul verəcək önəmli təşəbbüs kimi diqqət çəkir. Prezident İlham Əliyevin bununla bağlı imzaladığı sənədlər, sözügedən sahədə görülən bütün işlərin əsas məqsədi, ölkəmizin məhsullarını dünyada tanıtmaq, beynəlxalq bazarlara çıxış əldə etməkdir. Son illər Azərbaycanın brend olaraq tanıdılması isə nəticə etibarilə ölkəmizdə istehsal olunan məhsulların xarici bazarlara çıxış imkanını xeyli artırıb. Ekspertlər hesab edirlər ki, “Made in Azerbaijan” brendinin tanıdılması üçün təbliğat və təşviqatla yanaşı, malların keyfiyyətinə və qablaşdırılmasına da xüsusi diqqət yetirilməlidir. Onların fikrincə, sahibkarlar dünya bazarlarına daha çox məhsul çıxarmaqla həm özləri qazanır, həm də ölkəyə valyuta axını güclənir. Eyni zamanda, Azərbaycan brendinin xarici bazarda tanıdılması və təşviq edilməsi qeyri-neft sektorunun daha da inkişafına, ölkənin ixrac imkanlarının artmasına səbəb olmaqla yanaşı, yerli biznes qurumlarının istehsal imkanlarını daha da genişləndirməyə imkan yaradır.

Artıq Azərbaycanın yerli malları xarici bazarlarda rəqabət qabiliyyəti ilə də fərqlənir. Məhz bunun nəticəsidir ki, ixracda qeyri-neft məhsullarının xüsusi çəkisi ildən-ilə artır. Elə 2023-cü ildə ölkəmizin qeyri-neft sektoru üzrə ixracının 3,3 milyard dollara çatması da bunun bariz nümunəsidir. Sevindirici haldır ki, qeyri-neft məhsulları sırasında ərzaq malları üstünlük təşkil edir. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktoru Yusif Abdullayevin bildirdiyinə görə, ötən il Azərbaycandan ayrı-ayrı xarici ölkələrə 1 milyard 135 milyon dollar məbləğində aqrar və aqrar-sənaye məhsulları ixrac edilib. Onun sözlərinə görə, ümumi aqrar ixracının 878 milyon dolları emal edilməmiş kənd təsərrüfatı məhsullarının payına düşüb. İl ərzində ölkədən 127,2 milyon dollarlıq xurma, 119,6 milyon dollarlıq təmizlənmiş fındıq, 57,2 milyon dollarlıq alma, 51,5 milyon dollarlıq şaftalı və nektarin, 44,6 milyon dollarlıq albalı və gilas, 30,6 milyon dollarlıq nar ixrac olunub. Əvvəlki illə müqayisədə xurma, təmizlənmiş fındıq, alma, şaftalı və nektarin, albalı və gilas ixracında artım qeydə alınıb. Bununla yanaşı, ötən il ölkədən 257 milyon dollar məbləğində emal olunmuş kənd təsərrüfatı məhsulları ixrac edilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı “İxrac icmalı”nın yanvar sayına əsasən, keçən il Rusiya Federasiyasına 1,1 milyard dollar, Türkiyəyə 783,9 milyon dollar, Gürcüstana 332,5 milyon dollar, İsveçrə Konfederasiyasına 175,3 milyon dollar, Qazaxıstana isə 95 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

Ustad aşıqlarımız

# “Yada salarsanmı Aşıq Cəlalı?..”

**Kəndimizin mərkəzində hündür bir dirəyin üstündəki səsgücləndiricidən könülləri oxşayan saz havaları dalğa-dalğa dağların, dərələrin qoynunda əks-səda verib, hər tərəfə yayılırdı. Otların göyərən, çiçəklərin gülən vaxtı həmin saz havaları yaz havasına qarışıb ruhumuzu oxşayırdı. Sazın sinəsindən qopan səslər səhər havasının təmizliyində ürəkləri ovundururdu.**



Sağlığında üzünü görmədiyim aşıq Cəlal Qəhrəmanovun sazının səsini uşaq vaxtı ilk dəfə Ballı dərədə quzu otaranda eşitdim. O səsin, o havacatların bənzəri yoxdur. Bu gün də sazı gözəl dilləndirənlər var. Amma onun sazının səsinə bənzəyən səs eşitməmişəm. Ozan-aşıq sənətimizin saz və səs yaddaşında öz dadının, duzunun təkrarsızlığı ilə yaşayır Aşıq Cəlalın incə ovxarlı “ Dubeyti”si, “Gəraylı”sı, “Sarıtel”i...

Aşıq Cəlalın “Ruhani”sində sanki bir qulun çığırır, bir köhlən kişnəyir. Onun sazından qopan göynərtili, hənirtili, ləngərli-səngərli “Ruhani” də vurğunlarının yaddaşındadır. Çöldə, örüşdə, Şəmilin qarovul yerinin həndəvərində sürünü örüşə yayan çobanın aşıq Cəlalın çalğısından vəcdə gəlib dediyi sözləri hələ də unutmamışam: “Ayə, qadasın aldığımın sazı elə bil, ürəyimin içində çaler”...

...Əlimdəki balaca radioqəbuledici oxumağında idi. Azərbaycan radiosundan Aşıq Cəlalın ifaları Vətənin qıraqda qalan yerlərinə – Borçalı çökəyinə dalğa-dalğa yayılırdı. Bir-birinə mətərisdənmiş aran yolu, dağ yolu ta qorabişirən ayın son günlərinədək aranı dağa, dağı arana daşıyırdı. Faxraldan adlayıb Yırğançayın üzərində oynaşan ilğımlar lap uzaqlarda göz işlədikcə uzanan Qaraxaç yaylağına qədər köç yolunun üstü ilə kələğayının ağ yeləni kimi, sanki sazın səsindən vəcdə gələrək titrəyirdi. Çölün, çəmənin, atyarmaz yaylaq yerlərinin sükutuna saz layla deyirdi. Qartalların uçuşunu da, ceyranların qaçışını da telli sazın səsinə qatmışdı Aşıq Cəlal.

İncəli Aşıq Cəlalı Qazaxda, Gəncəbasarda, Borçalıda, ümumiyyətlə, Vətənimizin hər yerində sevirlər. O, sənətini sevdirə-sevdirə yaşayıb, sonra dünyadan köçüb. El-obasının saz sevdalıları aşığın xatirəsini əziz tuturlar. Ağır el yığnaqlarında onu yada salırlar. Xatirəsinə şeirlər yazılıb. Ustadı Aşıq Avdının Aşıq Cəlala ithaf etdiyi şeirlər aşıqların dilinin əzbəridir:

*Bu saray bir də yapılmaz,*
*Kərən düşdü, mil qırıldı.*
*Cəlalım bir də tapılmaz,*
*Cığır itdi, yol qırıldı.*
*...Getdi ömrümün yazından,*
*Heç doymadım avazından.*
*Aşıq Avdının sazından*
*Pərdə düşdü, tel qırıldı.*

Aşıq Cəlalın özünün də İncəyə yazdığı qoşmasının zər misrasından, hər misrasından doğma yurdlarımız boylanır. Nur camallı, şivəsi ballı, xoş xəyallı İncə dərəsi Aşıq Cəlalı anadillər kimi dinləyir:

*Sənin ellərindən biləm əhvalı,*
*Bəlkə varlığımın dəyişə halı,*
*Yada salarsanmı Aşıq Cəlalı,*
*Ay Aşıq Cəlallı İncə dərəsi?!*

Aşığın bu bəndi kimi, bir çox qoşma, gəraylı, divani və təcnisləri, deyişmələri, eləcə də “Qaratel və Aşıq Cəlal” dastanı məclisdən-məclisə dolaşır. Bədii irsindən seçmələri “Sədəfli saz, məni dindir” kitabında işıq üzü görüb.

Ömürlüyündən: Cəlal Qəhrəmanov 1928-ci ildə Qazax rayonunun Kəmərli kəndində ziyalı ailəsində doğulub. Ustad Aşıq Avdı Qaymaqlının məclislərində müntəzəm iştirak edib, onun şagirdi olub. Aşığın 20-dən çox saz havası Azərbaycan radiosunun "Qızıl fond"una daxil edilib. Özünün"Cəlaloğlu" saz havasını yaradıb.

O,1978-ci ildə vəfat edib. Kəmərli kənd qəbristanlığında dəfn olunub. Ruhu şad olsun...

**Həzi HƏSƏNLİ,**
**şair-publisist**

Təsviri sənət

# Rusəsilli, Azərbaycan ruhlu rəssam

**Təsviri sənət tariximizdə iz qoymuş sənətkarlardan biri də Əməkdar rəssam Gennadi Brijatyuk olub. Abşeron rəssamlıq məktəbinin yetirməsi kimi tanınmış fırça ustası yaradıcılıq ezamiyyətlərinə maraq göstərməsə də, bir çox əsəri xarici ölkələrdə sənətsevərlərin şəxsi kolleksiyalarını bəzəyir.**



Gennadi Brijatyuk 30 yanvar 1935-ci ildə Gəncə şəhərində hərbçi ailəsində dünyaya göz açıb. Erkən çağlardan təsviri sənətə maraq göstərib. O, orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində oxuyub. Sonra ali təhsil almaq arzusu ilə Moskvaya getsə də, antirealizm ruhlu mövqeyinə görə imtahana buraxılmayıb və Azərbaycana qayıdıb.

Gennadi yaradıcılıq fəaliyyətinə ilkin olaraq gül təsvirlərini çəkməklə başlayıb. O, peyzaj təsvirlərinə xüsusilə geniş yer ayırırdı. Həmin əsərlərin əksəriyyəti Abşeron təbiəti ilə bağlıdır. İstedadlı rəssamın müxtəlif illərdə çəkdiyi “Bahar”, “Yay motivi”, “Köhnə şəhər”, “Neft mədənlərində”, “Qırx pilləkən”, “Qırmızı damlı ev” və sair əsərləri sənətsevərlər tərəfindən maraqla qarşılanıb.

Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev rəssamla bağlı araşdırmasında yazır: “Çağdaş rəngkarlığımızın tanınmış simalarından çoxunun gerçəkliyə, milli bədii-estetik dəyərlərə və rəng plastikasına münasibətlərində “Brijatyuk ruhu” görünməkdədir. Onun çağdaş rəssamlığımızın milli ruhda inkişafına böyük təsiri oldu... Yaradıcılığı boyu əsərlərində özünün dünyaya gerçəkçi-realist baxışının klassik tutumu ilə yanaşı, miniatürsayağı ümumiləşdirmələr sərgiləyən və an nəhayət, onu əhatə edən məkana mücərrədçi gözü ilə baxan Gennadi Brijatyukun estetik saxlancından şərqli ruhu duyulmaqda idi”.

G.Brijatyukun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Müasir İncəsənət Muzeyi, Rusiya Rəssamlar İttifaqında, habelə ölkəmizlə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə və Almaniyada şəxsi kolleksiyalarda saxlanılır. Rəssamla şəxsi tanışlığı olan fotoqraf Hüseyn Hüseynzadə 40 il ərzində onun 300-dən çox tablosunu əldə edə bilib.

Tanınmış sənətkar rəssamlıqla yanaşı, poeziyaya da maraq göstərib, maraqlı şeirlər qələmə alıb. Ancaq əsərlərini nə mətbuatda, nə də kitab şəklində çap etdirməyib. Əməyi yüksək qiymətləndirilən fırça ustası 1992-ci ildə “Azərbaycan Respublikasının Əməkdar rəssamı” fəxri adına layiq görülüb.

Rəssam ömrünün son illərini Bakıda, İstiqlaliyyət və Şeyx Şamil küçələrinin kəsişməsində yerləşən şəxsi emalatxanasında keçirib. Bir sıra ölkələrdən qonaqlar qəbul edib: Tretyakov Qalereyasının (Rusiya), Şotlandiya Kral Qalereyasının nümayəndələri, türk kolleksiyaçı Nahid Kabakçı, Yeni zelandiyalı rəssam Mirey Abraxamsonla görüşüb, mübadilələr aparıb.

Fransız kinorejissor Jak Deyvis Gennadi Brijatyuk haqqında film çəkib. Professor Ziyadxan Əliyevin 2019-cu ildə rəssama həsr etdiyi “Gennadi Brijatyuk və onun mənəvi dəyərlər dünyası” adlı kitabı işıq üzü görüb. Əsərləri ilə Abşeron rəssamlıq məktəbini zənginləşdirən Gennadi Brijatyuk 11 iyun 2008-ci ildə Bakıda vəfat edib.

**Savalan FƏRƏCOV**

# Gənc yazarın ilk “Ayaq səsləri”

**Azərbaycan Milli Kitabxanasında “Xalq qəzeti”nin əməkdaşı, gənc yazar Rizvan Fikrətoğlunun yeni tərtibatda və dizaynda nəşr olunmuş “Ayaq səsləri” kitabının təqdimat mərasimi keçirilib.**



Milli Kitabxananın direktoru, professor Kərim Tahirov iştirakçıları Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib və bayrama həsr olunan tədbirlərdən danışıb. O qeyd edib ki, Rizvan Fikrətoğlunun yeni kitabının müzakirəsi də bu sıradandır. Direktor gənc yazara yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə kitabın redaktoru və ön sözünün müəllifi Əli Nəcəfxanlı təqdim olunan povestin haqqında geniş məlumat verərək əsərin bədii məziyyətlərindən bəhs edib. “Xalq qəzeti”nin multimediya şöbəsinin müdiri Səbuhi Məmmədov, yazıçı Zaur Ustac, “Xalq qəzeti”nin əməkdaşı İlqar Həsənov, “Aytam” Uşaqların Mədəni Maarifləndirilməsi İctimai Birliyinin sədri Aygün Zamanlı, “Gənclərin Töhfəsi” İctimai Birliyinin sədri Asim Vəliyev çıxış ediblər. Gənc yazar Rizvan Fikrətoğluna “İsa Muğanna” mükafatı təqdim olunub. Tədbirin davamında “Aytam” İctimai Birliyinin bədii qiraətçiləri Rəbiyyə Bayramova və Rafael İsgəndərov şeir səsləndiriblər.

Rizvan Fikrətoğlu tədbir iştirakçılarına və Milli Kitabxananın rəhbərliyinə minnətdarlığını bildirib. O, kitabını avtoqrafla oxucularına ərməğan edib. Sonra gənc yazarlara və tədbirdə iştirak edən fəal oxuculara Milli Kitabxananın rəhbərliyi adından təşəkkürnamələr təqdim edilib. Gənc yazar Rizvan Fikrətoğlunun imza törəni təşkil edilib.

**XQ**

Ölkəmizi dünyaya tanıdanlar

**1987-ci ildə Bakıda ziyalı ailəsində dünyaya gələn Atilla Əskərov Səbayıl rayonundakı 6 saylı tam orta məktəbin məzunudur. Azərbaycanın nümunəvi və milli məktəblərindən biri olan bu təhsil ocağı öz görkəmli məzunları ilə ad-san qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məktəbin ən məşhur məzunudur.**

# NASA-dakı gənc azərbaycanlı mühəndis

Atilla Əskərov İstanbul Texniki Universitetinin mexanika fakültəsini başa vurduqdan sonra təhsilini Vaşinqtondakı Virciniya Texniki Universitetində davam etdirir. Daha sonra Amerikanın ən tanınmış elm məbədlərindən biri olan Corc Meyson Universitetində elektronika mühəndisliyi üzrə magistraturanı bitirir. Gənc mütəxəssis bir neçə il məşhur "Deloitte" və Beynəlxalq Peyk Rabitəsi Təşkilatı "İntelsat" (The International Telecommunications Satellite Organization) kimi şirkətlərdə mühəndis olaraq çalışır.

ABŞ Milli Aeronavtika və Kosmos İdarəsi – NASA ilə əməkdaşlığı isə sadə bir məlumatdan başlayır: 2016-cı ildə vakansiya elanınına cavab olaraq şəxsi məlumatlarını NASA-ya göndərir və heç bir həftə keçməmiş müsahibəyə dəvət edilir. Müsahibə zamanı texniki bilik və bacarıqlarını üstün şəkildə sərgiləyən Atilla çox keçmədən NASA-dan iş təklifi alır. Proses bu qədər sadə görünsə də, Atillanın özü də vurğulayır ki, əsas məsələ bir mütəxəssis olaraq lazımı tələblərə cavab verməkdir.




Və beləliklə, Atilla kosmos sahəsində olduqca böyük nailiyyətlər qazanmış NASA-da işə qəbul edilir. Təxminən, 2 milyard dollardan çox dəyəri olan və NASA-nın 2023-cü ildə kosmosa göndərdiyi və ilk layihə olaraq 2027-ci ildə kosmosa göndərilməsi planlaşdırılan RST (Nancy Grace Roman Space Telescope) teleskopunun WFI (Wide Field Instrument) detektor elektronikasının mühəndisi kimi fəaliyyətə başlayır. 2022-ci ildən etibarən isə RST ilə yanaşı OSAM-1 (On-orbit Servicing, Assembly and Manufacturing 1) layihəsində işləyir. İki layihədə çalışmağın xeyli çətin olduğunu bildirən Atilla bu işin öhdəsindən uğurla gəlməyi də bacarır.

**Atilla qəzetimizə müsahibəsində bildirir:**

– NASA-da işləmək hər kəsə müyəssər ola bilər. Əvvəla, bunu istəmək, arzulamaq lazımdır. Ayrıca götürdükdə bunun üçün təkcə arzu kifayət deyil, daha bir neçə şərti yerinə yetirməlisən. Ən birincisi, mükəmməl təhsil görmüş mühəndis olmalısan. Mühəndisliyi bütün varlığınla sevməlisən, əks halda bütün zəhmətin boşa gedər.

Mükəmməl bir mühəndis olmaq üçün hər an inkişaf edən texnologiya ilə ayaqlaşmalısan. Bu, vacib məsələdir və mühəndis üçün həyati əhəmiyyət daşıyır. Bunun üçün sürəkli şəkildə oxumalı, öyrənməli, yeni proqramları mənimsəməli, yenilikləri təqib etməlisən. Nəhayət, nəzəri bilikləri yanaşı, hər bir mühəndis praktikada problemi sürətlə həll etmə, yaradıcı və analitik düşünmə, mürəkkəb sistemləri təhlil etmə qabiliyyəti qazanmalıdır.

Qeyd edək ki, NASA-nın RST layihəsində çalışan əməkdaşların adları yazılan lövhə teleskopun instrumentinin kənar panelinə həkk olunub. Bu əməkdaşlar sırasında həmyerlimiz Atilla Əskərovun adı da var. Ən böyük arzusunun kosmosa uçmaq olduğunu söyləyən Atilla “ehtimal ki, adım məndən öncə kosmosa gedəcək” deyir və gülür.

Azərbaycanın və azərbaycanlıların böyük potensialı olduğunu söyləyən mühəndis hər bir istedadlı gəncin böyük mütəxəssis ola biləcəyini bildirir, bunun üçün yaxşı təhsil almağı və inamlı olmağı tövsiyə edir.

Qeyd edək ki, Atilla məşhur türkoloq alim Ramiz Əskərin ailəsində dünyaya gəlib. Ramiz müəllim Bakı Dövlət Universitetinin professorudur. "Şöhrət" və 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif olunub, Əməkdar jurnalistdir. Anası Solmaz xanım Atillanın bitirdiyi 6 saylı tam orta məktəbdə müəllim işləyib. İki dəfə "İlin müəllimi" seçilən və Əməkdar müəllim adına layiq görülən Solmaz xanım 2020-ci ildə vəfat edib. Atillanın böyük bacısı Leyla jurnalistdir, kiçik bacısı Ayla isə Ankara Universitetinin məzunudur, hazırda Türkiyədə həkim işləyir.

**Namiq QƏDİMOĞLU**
**XQ**

# Hər kitab bir dünyadır

***Bu günlərdə “Vaqif Bəhmənli. ƏSƏRLƏR” çoxcildliyinin 7-ci cildi işıq üzü görüb.***




Ünlü qələm sahibi, görkəmli şair, tərcüməçi, publisist, Azərbaycan Yazıçılar Birliyinin və Avrasiya Yazarlar birliyinin üzvü, Rəsul Rza adına beynəlxalq mükafat laureatı, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənli şeir və məqalələrdən ibarət 50-dək kitabın müəllifidir. Onun əsərləri italyan, rus, özbək, ukrayna, türk, alman, ingilis, türkmən, gürcü, fransız, fars dillərinə çevrilib.

Xatırladaq ki, çoxcildliyin əvvəlki 6 cildinə Nizami Cəfərov, Nizaməddin Şəmsizadə, Bədirxan Əhmədli, Rahid Ulusel, Elnarə Akimova, Qulu Ağsəs və Qulu Məhərrəmli ön söz yazıblar. 7-ci cild isə tənqidçi Bəsdi Əlibəylinin "Vaqiflərlə dünya dolu..." adlı hədsiz dəyərli məqaləsi ilə açılır. Kitabda şairin lirikasına geniş meydan verilib.

***Dövlət Tərcümə Mərkəzi yeni nəşrini – zəngin ədəbi ənənəli İsveç ədəbiyyatının seçmə nümunələrinin toplandığı “İsveç nəsr antologiyası” kitabını ərsəyə gətirib.***

Toplunun layihə rəhbəri Xalq yazıçısı Afaq Məsud, “Ön söz”ün müəllifi yazıçı Etimad Başkeçid, əsərlərin tərcümə müəllifləri – tanınmış yazıçı və bədii tərcümə ustaları – Saday Budaqlı, Nəriman Əbdülrəhmanlı, Etimad Başkeçid, Bəhlul Abbasov, İlqar Əlfi, Mahir Qarayev, Səməd Qaraçöp, Rəbiqə Nazimqızı, Şəfiqə Şəfa, Selcan Məmmədli, redaktoru Mahir Qarayevdir.



Nəfis tərtibatlı kitaba İsveç nəsrinin Avqust Strindberq, Ernst Alqren, Selma Lagerlöf, Verner Fon Heydenstam, Per Hallström, Yalmar Syöderberq, Albert Enqström, Yalmar Berqman, Dan Anderson, Per Lagerkvist, Vilhelm Muberq, Eyvind Yonson, Harri Martinson, Lüdviq Nordström, Artur Lundkvist, Astrid Lindqren, İnqmar Berqman, Stiq Dagerman, Tumas Tranströmer, Ulf Stark, Marqareta Ekström, Eva Qabrielsson, Niklas Rodström, Stiq Larsson, Oke Edvardson, İnger Edelfeldt, Tove Alsterdal, Sesilya Davidson, Melker İnqe Qaray kimi dünyaşöhrətli yazıçılarının və müasir müəlliflərinin əsərləri daxil edilib.

**Ə.DOSTƏLİ**
**XQ**

BEYNƏLXALQ HƏYAT

# Taker Karlson niyə söz azadlığının qurbanına çevrilir?

## Həm də "demokratiyanın beşiyi" sayılan ABŞ-da

**Tanınmış amerikalı jurnalist və teleaparıcı Taker Karlsonun ötən həftə Rusiyanın paytaxtı Moskvada görünməsi və bu ölkənin prezidenti Vladimir Putindən müsahibə almaq istəməsi xəbəri ildırım sürətilə beynəlxalq kütləvi informasiya vasitələrinin baş xəbərinə çevrilib.**



Bu günlər dünyanın əksər populyar media resurslarının şərhlərində, xəbərlərində, manşetlərində adı keçən jurnalist Taker Karlson kimdir? Onu bu qədər məşhurlaşdıran nədir? Söz azadlığının və demokratiyanın az qala "atası" sayılan ABŞ-da nə üçün bir qisim insanlar bu söz azadlığı aşiqinə qara yaxmaqda, təzyiq göstərməkdə və hədələr gəlməkdə, bir çoxları isə ciddi-cəhdlə onu müdafiə etməkdə, təhlükəsizliyinin qayğısına qalmaqdadırlar?

Bu və digər suallara cavab axtarmaq üçün internet resurslarına baş vurmalı olduq. Medianın "öz balası" haqqında yazdıqlarına əsasən Taker Karlson 16 may 1969-cu ildə ABŞ-ın San-Fransisko şəhərində anadan olub. Atası "Amerikanın səsi" radio şirkətinin direktoru, İctimai Yayım Korporasiyasının prezidenti və ABŞ-ın Seyşel adalarında səfiri olub. 1992-ci ildə Karlson Triniti kollecinin tarix fakültəsini bitirib. Sonra Mərkəzi Kəşfiyyat İdarəsində (MKİ) işə qəbul olunmaq istəyib. İmtina cavabı alandan sonra jurnalistika ilə məşğul olmağa başlayıb.

Karyerasına "Policy Review" jurnalında faktların yoxlanılması mütəxəssisi kimi başlayan Karlson, sonra "Arkanzass Democrat-Gazette" qəzetində, 1995-ci ildə isə "The Weekly Standard" jurnalına işə düzəlir. 1999-cu ildə Texas ştatının qubernatoru kiçik Corc Buşdan müsahibə alır. Jurnalist siyasətçinin 1998-ci ildə Texasda edam edilən Karl Fey Takeyə istehza ilə gülməsini göstərən sitatını olduğu kimi dərc edir. Bu müsahibə kiçik Corc Buşun prezident seçkisi kampaniyasında əsl anti-reklama çevrilir və namizəd sonra özü bəyan edir ki, Taker Karlson onun ölüm hökmünə münasibətini düzgün başa düşməyib.

Bundan sonra Taker Karlson "New York и Reader`s Digest" jurnalında icmalçı olur və "Esquire", "Slate", "The Weekly Standard", "The New Republic", "The New York Times Magazine", "The Daily Beast" və "The Wall Street Journal" nəşrləri üçün məqalələr yazır.

Nəhayət, 2016-cı ilin noyabrından Taker "Fox News" telekanalında dünyalarca məhurlaşan özəl "Tucker Carlson Tonight" şousunu aparmağa başlayır. Verilişin təqdimat epizodu 3,7 milyon izləyici toplayır. 2018-ci ilin oktyabrında "Tucker Carlson Tonight" praym-taymda kabel televiziyalarının xəbərlər şousu reytingində ikinci yerə qalxır. Artıq həmin ildə Taker Karlsonun şousu baş verən hadisələrə obyektiv ironik münasibəti üzündən ABŞ siyasi isteblişmentini qıcıqlandırmağa başlayır. 2018-ci ilin sonunda isə jurnalistin "emiqrasiya Amerikanı daha yoxsul, çirkli və daha parçalanmış" vəziyyətə gətirir bəyanatından sonra reklamverənlər verilişi bloklayırlar.

2019-cu ilin dekabrında "Playboy" jurnalının modeli Karen Makdual Taker Karlsonun onu öz şousunda Donald Trampdan dələduzluq yolu ilə pul almaqda günahlandırdığı üçün "Fox News"u məhkəməyə verir. Lakin onun iddiası rədd edilir. 2020-ci ilin iyun ayında jurnalist "The Daily Caller"dəki aksiya payını satır. 2020-ci ilin oktyabrında Karlsonun şousunun izləyicilərinin sayı 5,3 milyonu keçir.

2020-ci ilin noyabrından 2021-ci ilin yanvarına qədər jurnalisti və "Fox News"un digər aparıcılarını "Dominion Voting Systems" şirkətini 2020-ci il prezident seçkilərində Donald Trampın uduzması üçün səsvermə maşınlarına "əməl etməkdə" ittiham edirlər. 2021-ci ilin martında şirkət "Fox News"u məhkəməyə verib böhtana görə 1,6 milyard dollar təzminat tələb edir. Nəticədə telekanal səsvermə aparatının istehsalçısına məhkəmədən kənar 787,5 milyon dollar ödəməli olur. Bu iş ABŞ tarixində böhtana görə mediadan alınan ən böyük təzminat hesab olunur.

2023-cü il aprelin 24-də Taker Karlson və onun şousunun icraçı prodüseri "Fox News"-dan qovulurlar.

2023-cü ilin mayında Karlson şousunu X sosial şəbəkəsində (keçmiş "Twitter") aparmağa başlayacağını elan edir. İlk şousu 2023-cü il iyunun 6-da efirə buraxılır. Bu şouda ABŞ-ın yerdənkənar kosmik gəmisi və onun pilotunun tapıldığı, eləcə də Ukrayna prezidenti Vladimir Zelenskinin xristianları təqib etməsi ittihamı səslənir. Taker Karlson həmçinin bəyan edir ki, 11 sentyabr terror aktı ilə bağlı həqiqətlər hələ də məxfi saxlanılır.

Jurnalist Taker Karlson mühafizəkar baxışları ilə seçilir. O, odlu silaha nəzarətin və abortun əleyhinə qarşı çıxır. Bəyan etdiyi fikirlərə görə, o, həmçinin irqçilik, seksizm və LGBT-yə nifrətdə ittiham olunur. İqtisadiyyatda proteksionizm siyasətini dəstəkləyir. Taker, ABŞ-ı İŞİD-i məğlub etmək üçün Rusiya ilə əməkdaşlığa çağırıb və Suriya prezidenti Başər Əsədin devrilməsinə qarşı çıxışlar edib. O bəyan edib ki, Rusiya ABŞ üçün ciddi təhlükə deyil. Jurnalist həmçinin Rusiya Federasiyasının 2016-cı ildə Amerikada keçirilən prezident seçkilərinə müdaxilə ittihamlarına qarşı çıxıb və ABŞ-ın Ukraynaya hərbi yardımını kəskin pisləyib.

Taker Karlson "Siyasətçilər, əlaltılar və parazitlər: kabel TV xəbərlərində mənim sərgüzəştlərim" (2003), "Axmaqlar gəmisi: eqoist hakim sinif Amerikanı necə inqilaba aparır" (2018) və "Uzun slayd: Amerika jurnalistikasında otuz il" (2021) kitablarının müəllifidir.

Bu, hazırda bütün dünya mətbuatının Rusiyaya səfəri haqqında danışdığı Taker Karlsonun qısa tərcümeyi-halıdır. Bəs ABŞ-ın hakim siyasi elitasının xoşuna gəlməyən nədir? Əlbəttə, siyasi elitanın "hamı üçün" hesab etmədiyi həqiqəti jurnalistin üzə çıxarmaq və söyləmək cəsarəti? Bəs İraqda, Liviyada, Yuqoslaviyada, Suriyada demokratiya, vicdan, əqidə və söz azadlığını "təmin etmək" naminə bombalar tökən ABŞ-ın özündə nədən Taker Karlsonun "dilini kəsməyə" qalxıblar? İnanmaya bilərsiniz, amma Taker Karlson özü bunu söyləyir.

Rusiyaya məhz Prezident Vladimir Putindən müsahibə almaq üçün gəldiyini açıqlayan jurnalist deyir: "Putindən müsahibə almağa ona görə gəldim ki, amerikalıların əksəriyyəti Rusiyada və Ukraynada nə baş verdiyindən xəbərsizdirlər. Müharibə başlayandan iki il keçməsinə baxmayaraq, əksər amerikalıların heç bir informasiyası yoxdur. Onların regionda nə baş verməsi haqqında real təsəvvürləri belə yoxdur".

Buna qədər amerikalı politoloq Con Varoli Karlsonun Rusiya lideri ilə gözlənilən müsahibəsi fonunda ABŞ-dakı sərt senzuradan danışıb. O qeyd edib ki, ABŞ-da informasiya məkanı 99 faiz hakim təbəqənin və Ağ evin nəzarətindədir. Onun sözlərinə görə, siyasətçilər insanlara təbliğatdan fərqli başqa heç bir məlumat öyrənməyə imkan vermirlər.

Karlson onu izləyənləri arxayın etmək üçün bildirib ki, İlon Mask X sosial şəbəkəsində onun Putinlə müsahibəsini bloklamayacaq. Karlson deyir: "Amerikalı milyarder İlon Mask bu müsahibəni X platformasında yayımlamağa mane olmayacağına söz verib. Biz buna görə ona minnətdarıq. Qərb hakimiyyətləri isə, əksinə, çox güman ki, bu videonu digər az əhəmiyyətli platformalarda senzura etmək üçün əllərindən gələni edəcəklər. Onlar nəzarət edə bilmədikləri informasiyalardan qorxurlar".

Taker Karlsonun Moskvaya gəlişi xəbərini alan ABŞ siyasi hakimiyyətinin bəzi nümayəndələri onun geri dönüşünə qadağa qoyulmasını tələb ediblər. Lakin jurnalist Brayan Krasenşteyn Putinlə mümkün müsahibəsi səbəbindən Karlsonun ABŞ-a girişinin qadağan edilməsi təklifini kəskin tənqid edib və İlon Mask bunu şərh edərək, jurnalistlə tam razı olduğunu bildirib. Amerikalı politoloq Uilyam Kristol da oxşar ideya ilə çıxış edib.

Karlson özü isə Ağ evi Rusiya lideri ilə müsahibəni pozmağa çalışmaqda ittiham edərək deyib ki, "Ağ ev iki dəfə onun Vladimir Putinlə müsahibəsini pozmağa cəhd edib. İlk dəfə bu, üç il əvvəl, ikinci dəfə – indi, Moskvaya səfər ərəfəsində baş verib".

Taker Karlson yazır: "Söz azadlığı bizim təməl haqqımızdır, biz inandığımızı söyləmək hüququ ilə doğulmuşuq. Ağ evdə kimin olmasından asılı olmayaraq, bu hüququ əlimizdən almaq olmaz. Ancaq onlar bütün hallarda buna cəhd edirlər".

Keçmiş "Fox News" aparıcısının sözlərinə görə, təxminən, üç il əvvəl ABŞ Prezidenti Co Baydenin administrasiyası onun komandasının SMS yazışmalarını casusluq yolu ilə izləyib və sonra Karlsonun Rusiya liderindən müsahibə almaq planlarını pozmaq üçün onların məzmununu öz nəzarətləri altında olan KİV-ə sızdırıb. Karlson əmin edir ki, Amerika hakimiyyəti ötən ay da eyni addımı atıb, lakin Moskvaya budəfəki səfərinə mane ola bilməyib.

Taker Karlson qətiyyətlə bildirir ki, ABŞ adminstrasiyası uzun illər ərzində media vasitələrinin məzmununa "nəzarət etmək üçün çox aqressiv cəhdlər" edib. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller öz növbəsində Karlsonun Rusiya Prezidentindən müsahibə almasına kimin qadağa qoymasından xəbərsiz olduğunu bildirib. O, Amerika hakimiyyətinin bu qadağa ilə heç bir əlaqəsinin olmadığını vurğulayıb.

Karlson ABŞ mediasını "korrupsiya"da ittiham edərək bildirir ki, Amerika mediası Ukrayna Prezidenti Vladimir Zelenskidən çoxsaylı müsahibələr alaraq, əslində jurnalistika ilə deyil, "ən iyrənc formada" təbliğatla məşğuldur.

Karlson Moskvada verdiyi açıqlamada deyib: "Biz Vladimir Putini sevdiyimiz üçün deyil, ABŞ-ı sevdiyimiz, firavan və azad qalmaq istədiyimiz üçün buradayıq. Biz sizi Putinin bu müsahibədə söylədiyi fikirlərlə razılaşmağa təşviq etmirik, lakin onu izləməyə dəvət edirik".

Söz azadlığını, demokratiyanı əlində təzyiq və hədə bayrağına çeviren ABŞ-ın ən tanınmış və sevilən jurnalisti, Qərbin bəyan etdiyi söz azadlığı vədlərinin yalan və saxta olduğunu açıqlayandan sonra ölkəsinin düşməninə çevrilirsə, deməli, o səmtdən əsən demokratiya küləyi sonradan bir çox xalqlar üçün amansız dağıdıcı fırtınaya çevrilə bilər. Biz bunu çox görmüşük.

"Mümkün qədər çox şey bilməlisən ki, sonra qul deyil, azad vətəndaş kimi özün qərar verə biləsən". Bunu da məhz Taker Karlson bəyan edir. Biz də bu fikirlə tam şərik olduğumuzu bildirir və deyirik: İndi çətin dövrdür, "azad Amerika" jurnalistinin başına gələnləri sizə çatdırırıq ki, müstəqil Azərbaycanın azad vətəndaşları kimi özünüz bu hadisələrdən nəticə çıxarıb müstəqil qərar verə biləsiniz.

***İlqar RÜSTƏMOV***
***XQ***

---

**Ermənistan hakimiyyətində daxili çəkişmələr getdikcə dərinləşir. "Joxovurd" qəzeti yazır ki, Ermənistan parlamentinin spikeri Alen Simonyanla Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında pərdəarxası mübarizə gedir. Nəşrin məlumatına görə, mübarizə açıq hücumlar və korrupsiyada ittihamlar formasında aparılır. "Joxovurd" iddia edir ki, Simonyan baş nazir Nikol Paşinyan qarşısında Qriqoryanın rolunu aşağılamağa çalışır, ikincisi isə hüquq-mühafizə orqanlarının diqqətini cəlb edən "Synergy" şirkətinin tenderində spiker ailəsinin üzvlərinin iştirakına diqqət çəkir. Hökumət nümayəndələrinin siyasi çəkişmələrini şərh edən erməni ekspertlər isə bildirirlər ki, didişmə "sorosçular" ilə hökumətdəki ruspərəst qüvvələr arasında gedir və birincilər Rusiya ilə münasibətlərin saxlanılmasını dəstəkləyənləri Ermənistanın siyasi arenasından süpürüb atmağa çalışırlar.**

"Joxovurd" qəzeti yazır ki, 2026-cı il seçkiləri ərəfəsində Ermənistanın güc dairələrində qızğın mübarizə başlayıb. 2026-cı il seçkiləri ərəfəsində hakimiyyət daxilində mübarizə getdiyini vurğulayan qəzet əlavə edir ki, parlament sədri Alen Simonyan, təhlükəsizlik şurasının katibi Armen Qriqoryan və bir neçə başqaları özlərini Nikol Paşinyanın varisi kimi təqdim etməyə başlayıblar. "Joxovurd"un yazdığına görə, A.Simonyan Rusiyanın, A.Qriqoryan isə Qərbin dəstəyi ilə mübarizəyə girişiblər və bunu o qədər ciddi qəbul ediblər ki, səhnə arxasında bir-birinə çamur atırlar. Bu günlərdə hakim "Mülki müqavilə" partiyasında Alen Simonyanın məcburi istefası məsələsi qızğın müzakirə olunur. Partiya üzvlərinin sözlərinə görə, Alen Simonyan və onun tərəfdaşları dəfələrlə qalmaqalların mərkəzində olublar, lakin cəzasız qalıblar. Alen Simonyanın həyat yoldaşı tərəfindən idarə olunan "Freenews" telekanalı bir neçə aydır ki, Ermənistan Televiziya və Radio Yayımları Şəbəkəsinə aylıq 1,5 milyon dram (3,7 min dollar – red.) ödəmir. Hazırda "Freenews" televiziya şirkətinin borcu 23,3 milyon dramdır (57,7 min dollar – red.) Bu məlumatların açıqlanmasından sonra da Simonyan ailəsi rəsmi statuslarından istifadə edərək dövlətin borcunu ödəmir.

# Ermənistan hakimiyyətində qarşıdurma dərinləşir



Bundan əlavə, Alen Simonyanın qardaşının həyat yoldaşı Ani Gevorqyanın bir neçə gün əvvəl həbs edildiyi bildirilir. Hüquq-mühafizə orqanlarının məlumatına görə, o, vəzifə səlahiyyətlərindən sui-istifadədə ittiham olunur. Bütün bunlar, əlbəttə ki, hakim partiyanı narahat edir, çünki Alen Simonyan ətrafında yaranmış bu korrupsiya qalmaqalı iqtidar komandasının reytinqinə zərbə vurur. Hətta bəzi partiya üzvləri Nikol Paşinyan qarşısında Alen Simonyanın istefası məsələsini də qaldırıblar. Keçən ilin aprelində Alen Simonyanın İrəvanın mərkəzində vətəndaşa tüpürməsi və ictimaiyyətin kəskin reaksiyasını əsas gətirən hakim partiyanın nümayəndələri Simonyanın iqtidardan uzaqlaşdırılmasını istəyirlər.

"Hraparak" qəzeti isə yazır ki, "sorosçular" Ermənistan hökumətinin rusiyayönlü qanadı ilə döyüşməyə başlayıblar: "Ermənistanın iqtisadiyyat nazirliyindəki qalmaqallı sui-istifadə tarixinin hədəfi əslində nazir Vaan Kerobyandır və həmin gün milli təhlükəsizlik xidmətinin onun rəhbərlik etdiyi nazirlikdə istintaq hərəkətləri apарması barədə ona məlumat verilməyib". Qəzetin yazdığına görə, nazir Kerobyan bunu biləndə deyib ki, irəli sürülən ittihamlar heç bir fakta söykənmir. Bəzi məlumatlara görə, istintaq orqanı cinayətin "izinin" nazirə çatması, təqsirləndirilən şəxslərin onun əleyhinə ifadə verməsi üçün hər şeyi edir. Bu, Kerobyanın dediyi kimi, ona qarşı irəli sürülən ittihamlara "faktlar əlavə edəcək".

Xüsusilə, "ağıllı bağlar" adlanan kənd təsərrüfatı proqramı ilə bağlı ikinci işin başlanması ilə rəsmi məlumatlara görə, dövlət xüsusilə böyük itkilərə məruz qalıb – təxminən 240 milyon dram (593 min dollar – red.).

Bununla yanaşı, "Hraparak" vurğulayır ki, Soros hökumətinin səhmdarları, avropalılar tərəfindən maliyyələşdirilən müxtəlif kölgəli şəxslər çoxdan hökumətin rusiyayönlü qanadı ilə şiddətli mübarizəyə başlayıb və artıq bir neçə aydır ki, nazir Kerobyanın adını yayırlar: "İddialara görə, onların fikrincə, nazir Qərbin sanksiyalarından yan keçərək Ermənistandan və ya Ermənistan vasitəsilə Rusiyaya qadağan olunmuş malların ixracına icazə verir. Yeri gəlmişkən, bu siyahıda başqa insanlar da var. Siyahı kiçikdir, lakin sorosçular ardıcıl olaraq bu insanları hakimiyyətdən uzaqlaşdırmaq qərarına gəliblər".

Politoloq Argişti Kiviryan Ermənistan mətbuatına müsahibəsində deyib ki, Paşinyan mövqelərini itirir, Simonyan hakimiyyətə can atır: "Son günlərin hadisələri göstərdi ki, hökumət daxilində, rusların dediyi kimi, "gəmidə üsyan" var. Düşünürəm ki, baş verənlər sırf daxili siyasi məsələdir və dünya oyunçularının bununla heç bir əlaqəsi yoxdur. Bu, gözlənilən proses idi və biz hökumət daxilində aşkar böhran görürük. Mən bir ildir bu haqda danışıram ki, Ermənistanda hakimiyyət dəyişikliyi küçədə deyil, hakim elita daxilində baş verə bilər".

A.Kiviryanın sözlərinə görə, indi erməni reallıqlarında qardaşına dəstək olaraq "Facebook"da şəkil yerləşdirən Alen Simonyanın demarşı göstərir ki, Ermənistan nə demokratik, nə də avtoritar ölkədir, sadəcə, fars və qarışıqlıqdır. Əslində, Simonyan bu əməli ilə Nikola badalaq gəlməyə çalışır. O, bu gücü və siyasi resursu "keçmiş"dən alır, çünki çox güman ki, özünü müəyyən mənada "keçmiş"lə körpü hesab edir. Körpülərdən biri". Bundan əlavə, erməni politoloq əlavə edir ki, Paşinyan indiyə qədər susmaqla və öz hakimiyyəti daxilində paralel mərkəzlərin yaradılması prosesini həll edə bilməməklə faktiki olaraq mövqelərini itirməkdədir.

***S.ELAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 27 (30431) 8 fevral 2024-cü il, cümə axşamı

# Oxu, Şövkət, qoy səsin...



**Dünən görkəmli müğənni, Xalq artisti Şövkət Ələkbərovanın anım günü idi. Müğənninin vəfatından 31 il ötməsinə baxmayaraq, ifa etdiyi mahnılar ürəklərə yol taparaq yaddaşlarda əbədi həkk olunub.**

Şövkət Ələkbərova o nadir şəxsiyyətlərdəndir ki, sağlığında özü haqqında xoş təəssürat, dünyasını dəyişəndən sonra isə xoş xatirələr qoyub. Bu isə insanın fəxr etdiyi ən yüksək zirvədir.

Bu gün bənzərsiz ifaları ilə könülləri fəth edən Şövkət Ələkbərovanın möhürünü qoyduğu mahnılar tələbələrinin, tanınmış və gənc sənətçilərin ifasında yenidən səslənir. Onun ifasında dinlədiyimiz hər bir nəğmə harada səslənməsindən asılı olmayaraq bu böyük sənətkarı xatırladır.

Dünyanın bir çox şəhərlərində uğurla çıxış edən Şövkət Ələkbərovanın repertuarına "Segah", "Qatar", "Şahnaz" kimi muğamlar, Azərbaycan bəstəkarlarının və Orta Şərq xalqlarının mahnıları daxil idi.

"Dərələr", "Ağ çiçəyim", "Bir könül sındırmışam", "Gedək üzü küləyə", "Ağlaya-ağlaya", "Haradasan?", "Məhəbbət", "Tez gəl", "Süsən-sünbül", "Dəli Ceyran", "Ay qadası", "Yar gəldi", "Kürdün gözəli", "Ceyran" və digər onlarca mahnı böyük sənətkarın ifasında möhürlənib.

Şövkət xanımın repertuarında olan mahnılarda söz, musiqi və ifa bir-birini tamamlayaraq, vəhdət təşkil edib. Elə buna görə də, müğənninin ifa etdiyi mahnılar ilk ifadan dinləyicilərin ürəklərinə yol taparaq yaddaşlarda dərin iz buraxıb.

*XQ*

Futbol həyəcanı

# "Köhnə qitə" "Avro – 2024"ə hazırlaşır



**Bu ilin yayında Almaniya ikinci dəfə Avropa futbol çempionatına evsahibliyi edəcək. Qitənin futbol üzrə yığma komandalarının yarışı bu ölkədə ilk dəfə 1988-ci ildə keçirilib. Açılış oyunu iyunun 14-də Münxendə, final isə iyulun 14-də Berlində olacaq. Şübhə yoxdur ki, Avropanın 24 komandası çempionluq uğrunda olduqca gərgin mübarizə aparmalı olacaq.**

## Avropa çempionatının tarixi

Futbol üzrə Avropa Çempionatı Avropa Futbol Assosiasiyaları İttifaqı (UEFA) tərəfindən 1960-cı ildən hər 4 ildən bir, Dünya çepionatları yarışları arasında keçirilir. İlk turnir Fransada baş tutub və həmin yarışma Avropa Millətləri Kuboku adlanıb. Yarışın final mərhələsində 4 yığma komanda çıxış edib: SSRİ, Çexoslovakiya, Fransa və Yuqoslaviya. Yarışda uduzan komanda turniri tərk edirdi və ev sahibinin turnirdə birbaşa iştirak etmək imtiyazı yox idi.

1968-ci ildə Avropa Millətlər Kuboku rəsmi turnir kimi tanınır və həmçinin futbol üzrə Avropa çempionatı titulunu alır. Turnirin finalı İtaliyada keçirilir və ev sahibi finalda qalib gələrək qızıl medal qazanır.

İtaliyada keçirilən "Avro-1980" çempionatına qədər turnirin final mərhələlərində cəmi dörd komanda yarışırdı. 1980-ci ildən 1992-ci ilə qədər çempionatın finalında artıq 8 ölkənin yığma komandası mübarizə aparırdı. 1996-cı ildən onların sayı 16-ya, 2016-cı ildən isə 24-ə qaldırıldı.

Beləliklə, Almaniyada baş tutacaq "Avro–2024" futbol üzrə Avropa çempionatının 17-ci final mərhələsi olacaq.

Bu turnirə evsahibliyi etmək iddiasında olan ölkələr az deyildi. Məsələn, 2024 və 2028 Avropa çempionatlarının keçirilməsinə ilkin olaraq Danimarka, İsveç, Norveç və Finlandiya iddialı idilər. Hətta Estoniya və Niderland da öz istəklərini bəyan etmişdilər. Buna baxmayaraq, bu ölkələrdən heç biri rəsmi olaraq sifariş verməyiblər.

"Avro–2024"ün təşkil edilməsi hüququna yalnız Almaniya və Türkiyə rəsmən iddialı olublar. Avropa çempionatına ev sahibinin seçilməsi mərasimi 2018-ci ilin sentyabrında keçirilib. Səsvermədə UEFA İcraiyyə Komitəsinin 20 üzvündən 17-si iştirak edib və 17 səslə bu hüquq Almaniyaya verilib. Türkiyənin lehinə 4 üzv səs verib, bir üzv bitərəf qalıb.

Beləliklə, "Avro–2024"ün bu il federativ respublikanın Berlin başda olmaqla 10 böyük şəhəri qəbul edəcək:

Məlum olduğu kimi, ötən il dekabrın 2-də Hamburqun "Elb" filarmoniyasında "Avro–2024"ün final mərhələsinin püşkatma mərasimi keçirib. Əvvəllər Futbol üzrə Dünya və Avropa çempionatlarının təsnifat mərhələsi seçmə qruplarda ikinci və üçüncü yerləri tutan komandalar arasında pley-off oyunları ilə başa çatırdı. İndi




sistem fərqlidir – pley-offa 2022/2023 UEFA Millətlər Liqası turnirindəki çıxışlarına görə vəsiqə qazanırlar. Pley-off oyunları isə 2024-cü ilin mart ayının sonunda keçiriləcək.

Dekabrın 2-də keçirilən püşkatma mərasimində isə artıq komandaların hansı qruplarda mübarizə aparacağı məlum olub – hər birində 4 komanda olmaqla 6 qrup. 24 komandadan 21-i artıq məlumdur. Qalan 3 vəsiqənin sahibi 2022–2023 UEFA Millətlər Liqasının qrup mərhələsinin 12 qalibi arasında keçiriləcək pley-off oyunlarında məlum olacaq.

Turnirin ev sahibi Almaniya, təbii ki, A qrupunda Şotlandiya, Macarıstan və İsveçrə milliləri ilə birlikdə yer alıb. B qrupunda isə hazırda çempion titulunu daşıyan İtaliya millisi İspaniya, Xorvatiya və Albaniya milliləri ilə qarşılaşacaq. Bu qrupu mütəxəssislər də, elə azarkeşlər də haqlı olaraq "ölüm qrupu" adlandırırlar.

Azərbaycan azarkeşlərinin uğurları üçün dua edəcəkləri Türkiyə millisi isə F qrupunda Portuqaliya və Çexiya komandalarına rəqib olacaq. Qrupun dördüncü komandası gələn ay Yunanıstan, Qazaxstan, Lüksemburq və Gürcüstan milliləri arasında keçiriləcək pley-off oyunlarından sonra məlum olacaq.

"Avro–2024"ün final oyunu iyulun 24-də Berlində "Olimpiştadion" arenasında keçiriləcək. Matç Bakı vaxtı ilə saat 22:00-da başlayacaq. Avropa çempionatının həlledici oyununa biletlər UEFA vasitəsilə satılacaq və qiymətlərin 95 avrodan başlarayaraq 2 min avroya qədər olacağı ehtimal olunur.

Yeri gəlmişkən, təşkilat komitəsi bildirib ki, biletlərin bölüşdürülməsinin ilk mərhələsi başa çatıb. UEFA-nın məlumatına görə, bu mərhələdə 1,2 milyon biletə 20 milyon sifariş verilib. Püşkatmadan sonra 1 milyon bilet öz sahiblərinə çatdırılıb. Daha 500 min bilet martda keçiriləcək pley-off oyunlarından sonra satışa buraxılacaq. Ümumilikdə, "Avro–2024"ün 51 matçına 2,7 milyon bilet satılacaq. Onların hamısı fərdiləşdirilib və yalnız elektron şəkildə buraxılır.

Turnirin tarixində ən yaxşı komandalara gəldikdə isə, onlardan ən böyük uğurlara imza atan Almaniya millisidir. Belə ki, almanlar 3 dəfə – 1972, 1980, 1996-cı illərdə bu turnirin qalibi olublar və 3 dəfə – 1976, 1992 və 2008-ci ildə Avropa Çempionatının finalına vəsiqə qazanıblar.

Sonra İspaniya millisi gəlir. İspanlar da 3 dəfə – 1964, 2008 və 2012-ci illərdə Avropa çempionatının qalibi olublar, 1984-cü ildə isə finala çıxıblar. "Top 3"-ü iki kubok (1968, 2020) və finala 2 vəsiqə ilə İtaliya millisi bağlayır.

Ev sahibi olan Almaniya millisi bu oyunlara çox ciddi hazırlaşır. Çünki komanda 2018 və 2022-ci il Dünya çempionatlarında çox bərbad oyunu ilə yadda qalıb. Belə ki, hər iki turnirdə Almaniya yığma komandası heç qrupdan belə çıxa bilməmişdi. Hətta ötən il keçirilən yoldaşlıq görüşlərində çox uğursuz nəticələr sərgilədi. 2023-cü ildə bundestim bir təqvim ili ərzində öz antirekordunu təkrarladı – 11 matçda 3 qələbə, 2 heç-heçə və 6 məğlubiyyət. Həm də bu məğlubiyyətlər dünyanın futbol nəhəngləri hesab edilməyən Yaponya, Türkiyə və Avstriya milliləri tərəfindən gəlib. Ona görə də "Avro–2024"də alman azarkeşlərinin öz millilərindən gözləntiləri böyükdür.

## Kim nə qədər qazanacaq?

Bu Avropa çempionatında qaliblərin və iştirakçıların nə qədər qazanacaqları da tamaşaçılar üçün maraq doğuran məsələlərdəndir. 2024-cü il Avropa çempionatının mükafat fondu 331 milyon avro təşkil edir. Turnirin bu mərhələsində iştirak edəcək hər bir milli komanda 9,25 milyon avro alacaq. UEFA hər matçda qələbəyə görə 1 milyon avro, heç-heçəyə 500 min avro verəcək. 1/8 finala vəsiqəni təmin edən komanda 1,5 milyon avroya sahib olacaq. 1/4 finala çıxan milli komanda 2,5 milyon avro, yarımfinala yüksələn yığma isə 4 milyon avro qazanacaq.

"Avro–2024"ün vitse-çempionunun hesabına 5 milyon avro, çempionun hesabına isə 8 milyon avro köçürüləcək. Avropa çempionunun mükafatının məbləği, əgər qrup turnirində də bütün rəqiblərinə qalib gəlibsə, ümumilikdə 28,25 milyon avro təşkil edəcək.

## Bəs çempion kim olacaq?

"Avro–2024" yarışmasının əsas favoritləri kimi Fransa və İngiltərə milliləri göstərilir. Fransızlar 2018-ci ildə Rusiyada keçirilən Dünya Çempionatının qalibi oldular və 4 il sonra – 2022-ci il Qətərdə finala yüksəlsələr də, penallaşmada argentinalılara məğlub oldular. İngilislər də 2021-ci ildə keçirilən "Avro–2020"nin finalına vəsiqə qazandılar, lakin onlar da doğma "Uembli" stadionunda penallaşmada İtaliya millisindən məğlubiyyətin acısını yaşamalı oldular.

"Favoritlər üçlüyü"nü Almaniya millisi tamamlayır. Ev sahiblərinin dördüncü dəfə Avropa çempionu olması o qədər də real görünmür, lakin fikirləşəndə ki, bu, futboldur, o zaman heç nəyin istisna olmadığını etiraf etməli olursan.

**İlqar ÇAYRUDLU**
**XQ**

SAĞLAMLIQ

# Tənhalıq beyni çeynəyir

**Alimlər tənhalıqla beyinin boz maddəsinin kiçilməsi arasında əlaqəni tapıblar. Araşdırmalarla bu fərqin, xüsusilə, kişilərdə olduğu müəyyən edilib. Beyinin boz maddəsi əsasən neyronal hüceyrələr, dentritlər və aksonlardan ibarətdir. Bu maddə ətrafdan alınan informasiyanın qəbulu və interpretasiyasına cavabdehdir.**

Bu tədqiqatda 9 min kişi və qadının beyni barədə məlumatlar təhlil edilib. Onlara beyinin MRT müayinəsi olunub. Alınan nəticələrə əsasən, depressiyadan əziyyət çəkən insanlar 2 qrupa bölünüb. Qruplar arasında tənhalıq 2 əsas sual əsasında müəyyən edilib: "Özünüzü tez-tez tənha hiss edirsinizmi?" və "Doğmalardan kiməsə etibar edirsinizmi?"

Nəticələr göstərib ki, depressiyada olan kişilərdə boz kütlənin həcmi daha az olub.

Əldə olunan məlumatlar göstərib ki, tənhalıq, güvənsizlik kişilərin beyninə daha neqativ təsir göstərir. Onların sosiallaşması xüsusilə vacibdir. Sosial



münasibətlər orta yaşlı kişilərin depressiyaya düşməsinin qarşısını alır.

*Z.HÜSEYNLİ*
*XQ*

Kino




# "Avatar"ın üçüncü mövsümü

**"Avatar" filminin üçüncü mövsümünün nümayiş tarixi açıqlanıb. Kanadalı rejissor Ceyms Kameronun çəkdiyi ekran əsərinin premyerası 2025-ci ildə keçiriləcək.**

Filmdə rolları tanınmış və gənc aktyorlar canlandırıb. Qeyd edək ki, "Avatar: Su Yolu" filmi qlobal kassada 2,3 milyard dollardan çox gəlir əldə edib.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Professor Mübariz Səfərov və Həsən Həsənov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sabir və Tənzilə Rüstəmxanlılar Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xalq şairi Vahid Əziz Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və bütün kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini Vəli Nağıyevə və ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynovaya anaları

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Nağıyevlər ailəsinə anaları

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

HAVA

# Yağmursuz və dumanlı günlər davam edir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 8-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 5-9°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 50-60 faiz olacaq.**

Azərbaycanın rayonlarında, əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 15-20° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3455
SİFARİŞ 286
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00